**Hər kəs ədalətli olacaq** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 34 (6176) 11 sentyabr 2026-cı il | Qiyməti 40 qəpik

# Prezident açılış etdi




Bax:səh-2

## Ərdoğan: "Türkiyəyə düşmənçilik edənlər itirəcəklər"



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkənin güclənməsindən və bölgədə sülh yaratmasından narahat olan qüvvələrin Türkiyəni öz yolundan döndərə bilməyəcəyini açıqlayıb.**

Adalet.az xəbər verir ki, Türkiyə dövlət başçısı ölkənin tarixi keçmişinə, xarici siyasətinə, regional gərginliklərə və iqtisadi göstəricilərə toxunub:

"Bu torpaqlarda heç kimə hərbi əməliyyat etdirmərik. Bölgəmizdə ölkəmizi mühasirəyə almaq niyyətlərini tribunalardan izləməyəcəyik. Səlcuqlu və Osmanlı irsini yox sayan tarix oxunmalarını xoşniyyətli hesab etmirik. Türkiyəyə düşmənçilik edənlər itirəcəklər".

Türkiyə Prezidenti İrandakı böhranın qlobal neft qiymətlərini rekord həddə çatdırdığını da vurğulayıb:

"Hörmüzdəki düyün çözülmədikcə, neft qiymətləri hər kəsi çətinə salacaq. Bütün bunlara baxmayaraq, avqustda ixracatımız 23,5 milyard dollara yüksələrək rekord vurub, illik ixracat isə 280,3 milyard dollara çatıb".

## FHN nümayəndələri beynəlxalq tədbirdə



**Rusiya Federasiyası Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyinin təşəbbüsü ilə 3-5 sentyabr 2026-cı il tarixlərində Rusiyanın Kazan şəhərində "Kompleks təhlükəsizlik - 2026" XVI Beynəlxalq Sərgi keçirilib.**

Adalet.az xəbər verir ki, tədbirdə Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi daxili xidmət general-mayoru Asif Məmmədli və Maddi-Texniki Təchizat İdarəsinin rəis müavini Turan Əliyev iştirak ediblər.

Sərgidə nümayiş edilən fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsi üzrə ən müasir texnika və avadanlıqlarla yaxından tanış olan FHN-in nümayəndələri tədbir çərçivəsində bir sıra ölkələrin fövqəladə hallar üzrə qurumlarının müvafiq vəzifəli şəxsləri ilə görüşlər keçirib, fəaliyyət istiqamətlərinə uyğun fikir mübadiləsi aparıblar.

## Əbülfət Mədətoğlu oxucularla görüşəcək



**Sentyabrın 11-də saat 15.00-də Qazax Rayon İcra Hakimiyyəti və AYB-nin Qazax Rayon Şöbəsini təşkilatçılığı ilə tanınmış şair, publisist, Əməkdar jurnalist, "Ədalət" qəzetinin Baş redaktorunun birinci müavini Əbülfət Mədətoğlunun Qazaxda Ədəbiyyat Muzeyində oxucularla görüşü keçiriləcək.**

Adalet.az xəbər verir ki, görüşdə şairin yaradıcılığından söhbət açılacaq, şair oxucuların suallarını cavablandıracaq. Ədəbiyyatsevərlər və oxucular görüşə dəvət olunur!

## ABŞ İran yaxınlığında 230-dan çox döyüş təyyarəsi saxlayır



**ABŞ aviasiya bölmələrinin rotasiyasına baxmayaraq, İran yaxınlığında Yaxın Şərqdəki bazalarda və regionda yerləşən gəmilərdə 230-dan çox qırıcı və hücum təyyarəsi saxlayır.**

Adalet.az xəbər verir ki, bu barədə Military Air Tracking Alliance (MATA) aviasiya resursunun və "Itamilradar" portalının məlumatlarında bildirilir.

"Itamilradar"ın məlumatına görə, son iki həftə ərzində ABŞ rotasiya çərçivəsində Yaxın Şərqdəki bəzi qırıcı eskadrilyaları dəyişir. Lakin bununla belə, regiondakı döyüş təyyarələrinin ümumi sayı azalmır.

ABŞ-ın taktiki aviasiyası əsasən İordaniyada yerləşir. Həmçinin İsrail, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərində də Amerika hərbi təyyarələri bazalaşdırılıb.

ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının Yaxın Şərqdəki bazalarında təxminən 208 qırıcı, o cümlədən 65 ədəd F-35A/C, 64 F-15E, 61 F-16C, 12 F/A-18C/D və altı EA-18G, həmçinin 30 ədəd A-10 hücum təyyarəsi var.

Bundan əlavə, İrandan cənub-şərqdə, Ərəbistan dənizində döyüş növbəsində olan iki təyyarədaşıyan gəmidə və böyük desant gəmisində F/A-18 və F-35 də daxil olmaqla 110-dan çox qırıcı yerləşdirilib.

## Zaxarova Almaniya kanslerini təhqir etdi



**Rusiyanın Komi Respublikasında eyzamiyyətə olan xarici işlər nazirliyinin rəsmi əməkdaşı Mariya Zaxarova, Almaniyanln kansleri Fridrix Mertsi, alman hərbi sənaye kompleksinin qulu adlandırıb.**

Zaxarova "Sputnik" radiosuna müsahibəsində, Almaniya xarici işlər naziri Yoxan Vadefulun Kiyevin hərbi sifarişləri azaltdığından şikayət etməsinə təhqirlə cavab verib: "Hazırda olduğum Komi Almaniyanın ərazilərindən böyükdür".

"Merts Almaniyanın HSK-ə lobbiçilik etmir, o Hərbi Sənaye Kompleksinin quluna çevrilib"- deyə Zaxarova bildirib.

Daha əvvəl, Rusiya təhlükəsizlik şurasının sədr müavini Dmitri Medvedevdə, Ukrayna hərbi qüvvələrini hərbi texnika ilə təmin edən Almaniya müəssələrinin potensial zərbələr obyekti olması ilə təhdid etmişdi.

*Əbülfət MƏDƏTOĞLU*

## Günah hər kəsin özündədi

Bax:səh-8

## GÜNÜN LƏTİFƏSİ



Vəli Xramçaylı qəbrstanlıqda məzarlara baxa-baxa gəzir. Kənardan onu müşayət edən molla:

**-Nə çox baxırsan, qardaş?**

Vəli:

**- Heç, mənə deyirlər ki, adamlar ən çox araq içməkdən ölür. Bayaqdan məzarlara qoyulan əklillərə baxıram, hamısının üstünə "qaynanasından", "qaynatasından", "qaynından", "yaxın dostlarından", "iş yoldaşlarIndan" və s. yazılıb. Heç bir dənə də araqdan öldüyü yazılanı yoxdur...**

# Prezident açılış etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da paytaxtın Qaradağ rayonunda ”Fabriora Group” Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) kağız və gigiyenik məhsulların istehsalı müəssisəsinin açılışında iştirak edib.**

Adalet.az xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və ”Fabriora Group” MMC-nin təsisçisi İbrahim Uygur dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, müəssisədə həm yerli bazar, həm də xarici ölkələrdən gətirilən xammal və materiallardan istifadə olunmaqla kağız və gigiyenik məhsullar, o cümlədən uşaq bezləri, müxtəlif salfetlər və yuyucu vasitələr istehsal ediləcək. On bir hektara yaxın ərazidə yerləşən müəssisədə Almaniya, İtaliya və Türkiyənin müasir və yüksək avtomatlaşdırılmış istehsal texnologiyaları tətbiq olunacaq.

Məhsullar daxili bazarla yanaşı, Gürcüstana, Qazaxıstana, Rusiyaya, Yaxın Şərq ölkələrinə və digər dövlətlərə ixrac ediləcək. Burada 240 nəfərin daimi işlə təmin edilməsi planlaşdırılır.

Müəssisə İqtisadiyyat Nazirliyinin tabeliyində Əmlak Məsələləri Dövlət Xidmətinin təşkil etdiyi investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilib. Layihənin ümumi investisiya dəyəri 27 milyon manatdır.

”Fabriora Group” MMC investisiya təşviqi sənədi əsasında avadanlıq idxalı zamanı ƏDV və gömrük rüsumlarından 1 milyon manat dəyərində güzəşt əldə edib.

Qeyd edək ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin mühüm istiqamətlərindən biri sənaye potensialının gücləndirilməsi və rəqabətqabiliyyətli istehsalın genişləndirilməsidir. Sənayeləşmə prosesinin nəticələrindən biri də ölkədə daha dayanıqlı istehsal və təchizat zəncirlərinin formalaşmasıdır. Yerli istehsalın genişləndirilməsi həm daxili tələbatın ödənilməsinə və idxaldan asılılığın azaldılmasına, həm də Azərbaycan məhsullarının xarici bazarlara çıxışının artırılmasına imkan yaradır.

## İlham Əliyev qida təhlükəsizliyi üzrə Dövlət Proqramını təsdiqləyib

**Prezident İlham Əliyev ”Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027?2032-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.**

Sənədin mətni Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Sərəncama əsasən, ”Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027?2032-ci illər üçün Dövlət Proqramı” (bundan sonra - Dövlət Proqramı) təsdiq edilib.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirməli, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə birlikdə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikası dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görməlidir.

# Sahibə Qafarova Xəlilur Rəhmanla görüşüb

**Milli Məclisin sədri Sahibə Qafarova ABŞ-yə işgüzar səfəri çərçivəsində Nyu-Yorkda BMT Baş Assambleyasının 81-ci sessiyasının prezidenti Xəlilur Rəhmanla görüşüb.**

Bu barədə Adalet.az-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Milli Məclisin sədri qarşı tərəfi bu vəzifədə fəaliyyətə başlaması münasibətilə təbrik edib, ona uğurlar arzulayıb.



Görüşdə Azərbaycan-BMT münasibətlərinə nəzər salınıb, Azərbaycanın BMT-nin işinə verdiyi töhfələr, gördüyü işlər barədə danışılıb, bu sahədə Azərbaycan parlamentinin və onun həyata keçirdiyi parlament diplomatiyasının çoxtərəfliliyin inkişafındakı rolu vurğulanıb. Spiker Sahibə Qafarova Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti barədə BMT Baş Assambleyasının 81-ci sessiyasının prezidentinə məlumat verib.

Söhbət zamanı tərəflər BMT-nin Parlamentlərarası İttifaqla (PAİ) əlaqələrinin inkişafı haqqında fikirlərini bölüşüblər.

**Görüşdə digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.**

# Ceyhun Bayramov: ”Azərbaycan Türkiyəyə dəstəyini davam etdirəcək”

**Biz Türkiyə və Braziliyadan olan tərəfdaşlarımızla çox sıx şəkildə fəaliyyət göstəririk.**

Adalet.az xəbər verir ki, bunu xarici işlər naziri Ceyhun Bayramov Bakıda Azərbaycan Respublikasının ev sahibliyi və Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Dördüncü İqlim Həftəsinin (CW4) açılış mərasimində deyib.

Nazir bildirib ki, Azərbaycan COP31-in təşkilində Türkiyəyə dəstəyini davam etdirəcək: ”Azərbaycanın Türkiyəyə növbəti COP-a ev sahibliyi etməyə hazırlaşdığı bir vaxtda göstərdiyi sarsılmaz qardaş dəstəyini bir daha təsdiqləmək istəyirəm.

COP29 və COP31 sədrliyi arasında əməkdaşlıq regional həmrəyliyin nümunəsidir.

Bu əməkdaşlıq ardıcıllığın, iddialı iqlim maliyyəsi mexanizmlərinin və qlobal fəaliyyətin davamlılığının təmin edilməsinə xidmət edir”.

XİN rəhbəri qeyd edib ki, çoxtərəflilik planetimizin üzləşdiyi bu çağırışın öhdəsindən gəlmək üçün ən güclü alətimiz olaraq qalır və Bakı İqlim Həftəsi praktiki icraya həsr olunub.



# "Bu təşkilata maraq göstərən ölkələr arasında Azərbaycan da var"

**”Hindistanda sentyabrın 12 və 13-də BRICS təşkilatının zirvə toplantısı keçiriləcək. Təşkilatı 5 ölkə (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası) təsis etsə də, hazırda BRİCS yeni üzvlər hesabına genişlənmə mərhələsindədir. 2006-cı ildə yaradılan BRICS-in hazırda 10 üzvü var. Genişlənmə təşkilata geniş coğrafi əhatə dairəsi, daha böyük demoqrafik və iqtisadi çəki və çoxqütblü dünyanın formalaşmasında daha güclü iddia qazandırıb. Şanxay Əməkdaşlıq Təşkilatında üzvlərlə yanaşı tərəfdaş olkələr olduğu kimi, BRİCS-in də oxşar modeli var. Söhbət BRICS+ formatından gedir”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloqun sözlərinə görə, təşkilatın təsisçiləri özlərinə yaxın dövlətlər tərəfdaş qismində görmək istəyirlər:

”Misal üçün yeni üzvlərlə bağlı Çin və Rusiyanın maraqları Hindistanın maraqlarından fərqlənə bilər. Eyni zamanda Yeni Dehli Moskva və Pekindən fərqli olaraq BRİCS-in anti-ABŞ və anti-Qərb platformasına çevrilməsinin əleyhinədir. Hindistan ABŞ, Avropa İttifaqı və Yaponiya ilə strateji tərəfdaşlığı dərinləşdirməyə çalışır. Bununla yanaşı BRİCS Qlobal Cənub ideyasından çıxış edərək Yaxın Şərq, Afrika, Asiya ölkələrini də əməkdaşlığa cəlb etməyi hədəfləyib. Bu dövlətlərin bir qismi özlərini nə Qərb, nə də Çin düşərgəsinə aid edirlər”.

O, bildirib ki, BRICS+ platforması üzvlüyə və tərəfdaşlığa çalışan dövlətlərə strateji muxtariyyət, çoxqütblülük, suveren bərabərlik, çoxtərəflilik kimi daha geniş təmsilçilik verməlidir:

”Qlobal Cənub diplomatiyası texnologiyalara çıxış, ərzaq və enerji təhlükəsizliyi, davamlı təchizat zəncirləri və rəqəmsal ictimai infrastruktur məsələləri üzrə platforma təmin etməyi qarşısına məqsəd qoyub. Misal üçün Birləşmiş Ərəb Əmirlikləri şaxələndirilmiş




tərəfdaşlığa, İndoneziya təşkilat çərçivəsində muxtariyyətə üstünlük verir. BRICS nə qədər böyük olarsa, Pekin və Moskva üçün ona tək bir geosiyasi kimlik tətbiq etmək çətinləşəcək. Yeni Dehlinin əsas məqsədi BRICS+ formatını rəqabət aparan bloklar əvəzinə çoxsaylı muxtariyyətlərin koalisiyasına çevirməkdən ibarətdir”.

E.Şahinoğlu deyib ki, buna baxmayaraq, Çinin artan iqtisadi gücü bu ölkənin cazibəsini artırıb:

”BRICS+ ölkələri Çinlə daha dərin ticarət əlaqələrə üstünlük verməklə yanaşı, Pekinin daha böyük kredit vermə qabiliyyətindən faydalanmaq istəyirlər. Hindistan isə təşkilat çərçivəsində tərəfdaş ölkələrlə ikitərəfli əlaqələri gücləndirməyə çalışacaq. Təşkilatın digər üzvü olan Rusiyanın da Çinin iqtisadi gücü ilə rəqabət aparması mümkün deyil. Bu səbəbdən Moskva Yeni Dehlinin təşkilat çərçivəsində çoxqütblülük konsepsiyasının əleyhinə çıxmayacaq. BRİCS-də Rusiyanı müstəqil güc mərkəzi kimi saxlamaq Hindistan üçün strateji əhəmiyyətə malikdir. Hindistanın vəzifəsi Rusiyanın Qərblə qarşıdurmasının BRICS-in təşkilati prinsipinə çevrilməsinə imkan verməməkdir”.

Politoloq bildirib ki, təşkilata maraq göstərən ölkələr arasında Azərbaycan da var: ”İki il əvvəl Rusiyanın Kazan şəhərində keçirilən sammitə Prezident İlham Əliyev də iştirak edib. Azərbaycanın təşkilata üzvlüklə bağlı müraciəti mövcuddur. BRİCS-ə üzv olmaq üçün təşkilatdakı ölkələrin yekdil qərarı lazımdır. Bu baxımdan Hindistanın qərarı əhəmiyyət kəsb edəcək. İlham Əliyevin bu ayın əvvəlində Şanxay Əməkdaşlıq Təşkilatının Bişkekdə keçirilən zirvə toplantısında ilk dəfə Hindistanın baş naziri Narendra Modi ilə fikir mübadiləsi aparması ölkəmizin gələcəkdə BRİCS-ə yolunu aça bilər. Birincisi, Hindistan təşkilatın genişləndirilmiş üzvlərinin institusionallaşdırılması və qlobal inkişaf üçün əsl qüvvəyə çevrilməsinə çalışır. İkincisi, Hindistan təşkilatın anti-Qərb blokuna çevrilməsinin əleyhinədir. Azərbaycan hər iki meyara cavab verir”.

**Vasif ƏLİHÜSEYN**

# Zəngəzur dəhlizinə görə yeni güzəştlər olacaq

**"Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişikliklər edilib".**



Adalet.az xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, yeni dəyişikliklərə əsasən, Zəngəzur dəhlizi istifadəyə veriləndən sonra Naxçıvan üçün yeni güzəştlər tətbiq ediləcək.

"Proqrama əsasən, Zəngəzur dəhlizi açıldıqdan sonra Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların quru yolu ilə ixracı üçün yeni imkanlar yaranacaq, bu imkanlardan hərtərəfli istifadənin stimullaşdırılması məqsədilə müxtəlif güzəştlərin tətbiqi məsələsinə ayrıca qiymətləndirmə aparılmaqla baxılacaq. Sənədə əsasən, dəhlizinin istifadəyə verilməsindən sonra Naxçıvanda sahibkarlara dəstək mexanizmi daha da genişləndiriləcək.

Proqramda qeyd edilir ki, güzəşt tədbirləri Naxçıvanın əlverişli coğrafi mövqeyindən istifadə edilərək, regionda istehsal olunan məhsulların xarici və ölkədaxili bazarlara çıxışını sürətləndiriləcəkdir. Bu çərçivədə, yerli məhsulların rəqabətqabiliyyətliliyini artırmaq və daşıma xərclərini optimallaşdırmaq məqsədilə sahibkarlara məqsədli logistik dəstək mexanizmləri tətbiq olunacaq".

Deputat qeyd edib ki, yeni güzəştlər Naxçıvanın sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə xidmət edəcək: "Bu Naxçıvanda istehsal edilən məhsulların daha böyük bazarlara çıxış imkanlarını təmin edəcək. Proqramda nəzərdə tutulan tədbirlər Naxçıvan Muxtar Respublikasının ərazisində iqtisadi aktivliyin, məşğulluğun və ixracın artmasına, iqtisadiyyatda yerli istehsalın rolunun gücləndirilməsinə kömək edəcək. Bu, Naxçıvanın inkişafında yeni mərhələnin başlanması demək olacaq".

# «Avropada bir kabus dolaşmaqdadır, alman faşizmi»

**"9 may 1945-ci ildə Vermaxt sarayında fotoqraflar Berlin-Karlshorstda feldmarşal Keitelin təslim aktının imzalanmasını sənədləşdirirlər.**

**Bax bu mərasimdə alman dövləti adına sonuncu faşist imzasının atılmasından düz 81 il keçir. Üçüncü Reyxin imperial ölümündən sonra Avropada çox divarlar örüldü, Roma dövlətinin şimalından gələn barbar tayfalarının hücumlarının qarşısını almaq üçün tikdirdiyi sədlər heç bu qədər möhkəm deyildi, Berlin divarlarını iki tərəfində bir-birindən amansız şəkildə nifrət edən eyni xalqın fərqli həyat tərzləri vardı".**




Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib. O, bildirib ki, bu cür düşmənçiliyi, nifrəti ola bilsin ki, ən mükəmməl formada xalqların timsalına Hüqo Vaterloonun səhifələrində ən mükəmməl formada təsvir etmişdi: "Amma özü ilə birlikdə bütün Avropa və dünya xalqlarını cəhənnəmin amansız alovlarına qalayan alman millətçiliyinin odu sönsə də külü daim qalmağa davam edir.İstənilən bir sosial media təhlilində görmək mümkündür ki, müxtəlif profillərdə faşizmə duyulan nostalgiya, Hitlerin böyük həsrətlə xatırlanması mövcud olan, amma basdırılmış hissin yaşadığını, ilk münbit şəraitdə qol-qanad açacağını proqnoz etmək olar. Bax, həmin o sözügedən mümkün ehtimallar bugünkü regional və qlobal şəraitdə yetişməkdədir. Düzdür, bunu Marks o zaman nasional-sosialistlərin əmisi uşaqları olan inter-nasionalistlər haqda demişdir, lakin təhlükə təhlükədir, icraçıları nə qədər fərqli olsa da, "Avropada bir kabus dolaşmaqdadır...".

**Vasif**

# <u>Təhsil eksperti:</u> "Oğlan tələbələrə buna görə kirayə mənzil verilmir..."

**Xəbər verdiyimiz kimi, yeni tədris ilinin başlamasına sayılı günlər qalıb. Valideynlər isə universitetə qəbul olan övladları üçün həmin şəhərlərdə kirayə ev axtarışına çıxıblar. Oğlan tələbələrin valideynləri isə qız tələbələrlə müqayisədə kirayə ev tapmaqda çətinlik çəkirlər. Bir sözlə, mənzil sahibləri oğlanlara evlərini kirayə vermək istəmirlər.**

Məsələylə bağlı Adalet.az-a danışan təhsil üzrə ekspert Məzahir Məmmədli bildirdi ki, Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələrinin heç birisi istisna olmaqla, demək olar yerdə qalanlarının heç bir birisinin konfuslu yataqxana şəraiti yoxdur. Onun sözlərinə görə, bir vaxtlar Azərbaycanda fəaliyyət göstərən məsələn, Texniki Universitetin, Bakı Dövlət Universitetinin, Bakı Dövlət Universitetinin, İnşaat Mühəndisləri Universitetinin, Pedaqoji Universitetin böyük tələbə şəhərcikləri var idi: "Bu şəhərciklər məcburi köçkünlər Bakıya gələndən sonra zəbt olundu və dövlət bu məsələyə loyal yanaşdı ki, yeni onların məskunlaşması ilə bağlı bir proqram, plan yox idi. Ancaq məsələ burasındadır ki, artıq bir neçə ildir o yataqxanalarda məskunlaşan məcburi köçkünlər öz doğulduqları dədə-baba yurdlarına qayıdırlar. Məsələn, Bakı Dövlət Universitetinin tələbə şəhərciyi 10 ildir ki, boşaldılıb. Köhnə yataqxana söküldü amma hələ ki, orda planlı, sistemli yataqxana tikilmədi. Məsələn, Pedaqoji Universitetin böyük bir tələbə şəhərciyi var və orda bir neçə korpus boşalmaq üzrədir. Yaxşı olar ki, orda təmir işləri aparılsa, xeyli tələbəni orda yerləşdirmək olar. Yəni faktiki olaraq bu gün tələbələr tələbə yataqxanaları olmadığına görə çox ciddi əziyyət çəkirlər. Hələ ki, bu sahədə müəyyən qədər tələbələrin problemlərini qarşılayan Azərbaycan Aqrar Universiteti və Bakı Ali Neft Məktəbidir. Lənkəran Dövlət Universitetində bir qədər yer ayrılıb, çünki orda qızlar üçün yeni korpus tikilib. Amma bu da hələ problemi həll etmir. Yerdə qalan universitetələrin hər birinin 150-200 tələbəni yerləşdirmək imkanları var. Bu gün Bakı Dövlət və Pedaqoji Universitetin 20 mindən artıq tələbəsi var, amma təəssüflər olsun ki, yataqxana ilə bağlı problemləri yaşamaqdadırlar".



Ekspert bildirib ki, Texniki, Neft və Sənaye, İnşaat Mühəndisləri Universitetinin tələbə şəhərcikləri olduğu halda eyni vəziyyəti yaşayırlar: "Azərbaycan Dillər Universitetinin qızlar yataqxanası hələ ki, universitetin balansındadır. Amma digərlərində məcburi köçkünlər məskunlaşıblar. Yəni bu kimi problemlərin həlli üçün yəqin ki, dövlət proqramı lazımdır. Dövlət proqramı olmadan universitetlər həmin problemləri həll etmək gücündə deyillər".

M.Məmmədlinin fikrincə, oğlan tələbələri kirayə ev məsələsi çox ciddi problemdir:

"Artıq neçə illərdir ki, bu istiqamətdə müəyyən narazılıqlar ifadə olunur. Ancaq təəssüf ki, həlli istiqamətində heç bir addım atılmayıb. Bildirilib ki, kirayə bazarında ancaq ailələr və qız tələbələr üçün kirayə ev imkanları var. Oğlan tələbələrə ona görə kirayə mənzil vermirlər ki, bir neçə tələbə bir evdə qalanda artıq qonşulardan narazılıq gəlir. Ona görə də ev sahibləri bu kimi problemlər yaşamamaq üçün bəri başdan oğlan tələbələri kirayəyə almırlar.

Hesab edirəm ki, bu barədə ciddi düşünülməlidir. Kimin qohum-əqrəbası varsa, orda məskunlaşa bilir, amma digər oğlan tələbələr var ki, kirayə ev tapmaqda ciddi çətinlik çəkirlər. Yəqin ki, dövlət bu məsələylə bağlı ciddi ya bir proqram hazırlamalıdır, ya da ki, universitetlərin kompuslarının formalaşması üçün müəyyən maliyyələr ayırmalıdır".

**Sübhan**

*Rüstəm HACIYEV*



# Putinin "ilkin səbəbi" Qərbi qəzəbləndirdi

***Rusiya Federasiyasının prezidrnti Vladimir Putinin, ABŞ prezidenti Donald Trampın xüsusi elçiləri Stiv Uitkoff və Cerald Kuşnerlə Kremldə keçirilən görüşü zamanı, "ilk növbədə müharibənin başlamasının ilkin səbəbi aradan qaldırılmalıdır" sözləri, Avropa ittifaqını qəzəbinə səbəb olub.***

***Donald Trampın xüsusi elçisi, yeznəsi Cerald Kuşnerin Ukrayna prezidenti Volodimir Zelenskiylə görüşəndən sonra verdiyi açıqlamada, "Sülh "vin-vin" razılaşması əsasında qurulmalıdır ki, Putinə onun həyata keçirilməsi imkanları yaratsın" sözləri Qərbdə geniş müzakirələrə səbəb olub. Avropa İttifaqı avrokomissiyasından bildirilir ki, Trampın biznesmen yeznəsi Cerald Kuşner müharibə ilə, biznesi səhv salıb. Ona görə ki, "vin-vin" müharibə deyil, biznes terminidir.***

***Bundan başqa, Vaşinqtonun "sülh razılaşması" təkliflərində yer alan "Ukraynanın ərazi itkiləri məsələsində güzətə getməli" olduğu bildirilir. Ukrayna tərəfinin açıqlamalarına görə, "Tramp planına əsasən, atəşkəsdən sonra...***

***1.Ukrayna Silahlı Qüvvələri Donbasdan geri çəkilməlidir, əlavə olaraq, qoşunlarını Zaparojye vilayətindən də çıxarmalıdır.***

***2.Süllh əldə olunduqdan sonra bu ərazilərə BMT-nin "sülhməramlıları" yerləşdirilməlidir.***

***3. Kiyev itirilmiş ərazilərin güc yolu ilə qaytarılmasından imtina etməlidir və hər hansı hərbi ittifaqa qoşulmasına qadağa qoyulmalıdır.***

***4. Ukrayna Silahlı Qüvvələrinin sayı məhdudlaşdırılmalıdır.***

***5. Rus dili məsələsi həll olunmslıdır.***

***6.Sülh razılaşmasının yekun sənədinin imzalanması, BMT-nin prosedurları çərçivəsində Ukraynada prezident seçkiləri keçirilməsindən sonra həyata keçirilməlidir.***

***Yəni, Vaşinqtonun təqdim etdiyi bu plana görə, Ukrayna ağ bayraq qaldıraraq, rəsmi şəkildə təslim olduğunu bəyan etməlidir.***

***Ukrayna tərəfinin imzaladığı bu sənəd nə qədər realdır, demək çətindir. Finacial Times mənnələrinə istinadən bildirir ki, Ukrayna KİV-lərində yayılan bu məlumatlar 2025-ci ildə təklif edilən "Tramp planının" maddələri ilə üst-üstə düşür.***

***ABŞ-ın NATO-kı keçmiş səfiri Daldeer bildirib ki, Ukraynanın dörd il yarımlıq müharibədə hesaba alınmaz itkiləri qarşısıda Donbası Rusiyaya güzəştə getməsi ideyası heç vaxt həyata keçirilə bilməz. "Sülh? Nəyin əvəzinə? Hətta razılaşmada göstərilən müvəqqəti atəşkəs əldə olunsada, müharibə hələ uzun illər davam edəcək. Ukrayna günü-gündən Putinə göstərir ki, o, istədiyinə nail ola bilməyəcək. Ukrayna Putinə göstərəcək ki, qonşu ölkənin ərazilərinə girməklə ərazilərini ələ keçirmək, ona baha başa gələcək".***

***Beləliklə görünən odur ki, danışıqların gələcəyi yenə dumanlı görsənir. "Müharibə nə vaxt sona çatacaq" sualı yenə cavabsız qalır...***

## *"Tramp Ukrayna-Rusiya savaşında ilkin razılığa nail olmağa çalışır..."*

**"İndi az qala bütün dünya mediası D.Trampın təmsilçilərinin sülh missiyasından yazır. Moskvada V.Putinlə görüşdən sonra ABŞ prezidentinin xüsusi nümayəndələri Stiv Uitkof və Cared Kuşner Kiyevə V.Zelenski ilə görüşə gəliblər. Azadlıq Radiosu Ağ Evə istinadən Moskva müzakirələrini "məhsuldar" adlandırıb. Putinin köməçisi Yuri Uşakov da danışıqların əhəmiyyətli və konstruktiv olduğunu deyib. Uşakovun deməyindən məlum olur ki, Moskva əvvəlki mövqeyində qalır, yəni Kreml Ukraynanın NATO üzvlüyü ümidinin sona çatdırılmasını, Ukrayna ordusunun effektiv silahsızlandırılmasını, digər tarixi narazılıqların həllini istəyir".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Qulu Məhərrəmli deyib. "Kiyev əvvəlki danışıqlarda bunlardan imtina etmişdi. V.Zelenskinin bu dəfə nə deyəcəyi bilinmir. ABŞ prezidenti isə tezliklə nəticənin olmasına tələsir, özü İranda palçığa batsa da, Ukrayna-Rusiya savaşında ilkin razılığa nail olmağa çalışır. Çünki qarşıdan seçkilər gəlir və D.Tramp yenidən bu seçkidə iştirak edəcəyini bildirib.Bəs Kiyevlə Moskva arasında sülh olacaqmı? İndiki şəraitdə tərəflərdən biri, yəqin ki, daha çox Ukrayna əsaslı güzəştə getməsə heç bir razılaşma olmayacaq. Kiyev isə (son həftələr Rusiyanın raket yağışı altında olmasına baxmayaraq) bu güzəştə getməyəcək, çünki onun hərbi-siyasi mövqeyi son bir ildə xeyli güclənib. Əlbəttə, danışıqlarda hər cür gözlənilməzliklər də mümkündür", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**



Səxavət Məmməd

# Sərhədlərimi keçən...

Azadlıq tərəfdarıyam. Hər kəs azad fikrini deyə, ifadə edə bilər, etməlidir də. Hər kəs necə istəyir, elə də yaşamalıdır: biri vicdanı ilə, biri qüruru ilə, başqa biri də öz prinsipləri ilə. Ancaq sənin azadlığın, sənin yaşayışın mənim sərhədlərimə qədərdir! Sərhədlərimi keçən gözümün işığı olsa belə, üstündən tank kimi keçərəm, xırtxəşilinə də dönüb baxmaram!

Bunu ilk dəfə deyil yazmıram. Mənə görə tərifiənəcək adam tərifiənməli, tənqid edilməli adam tənqid edilməlidir. Haqqı verilməli olana haqqı verilməlidir. Bu yazdıqlarım o demək deyil ki, əks fikirdə olan insanlara təzyiq olunmalı, aşağılanmalıdır. Konfutsi deyirdi: "Sənə pislik edənə heç vaxt yaxşılıq etmə. Əks halda yaxşılığa nə ilə cavab verəcəksən? Yaxşılığa yaxşılıqla, pisliyə isə ədalətlə cavab vermək lazımdır!"

İndi ləqəbi "Çevik" olan biri çıxıb ortaya, guya cahilliklə mübarizə aparır. Türkiyəlilərin maraqlı bir deyimi var: "Dinimə küfr edən musulman olsa bari". İnsan qəribə bir varlıqdır; bəziləri özlərinə hardansa bir vəzifə uydurub hesab edir ki, bu missiyanı o daşımalıdır. Adama sual verərlər: sən kimsən, elmin nədir, elmi dərəcən nədir ki, cahilliklə mübarizə bayrağı qaldırmısan? Dünyanın ən intellektual ölkələrində belə cəmiyyətin fikrini dəyişən, elmi-mədəni həyatda rol oynayan kəsim 2-3 faizi keçmir. Deyirsiniz ki, xalqımız cahil olmasın. Mən də bunu istəyirəm. Amma alternativ olaraq nə təklif edirsən? Ateizm? Kim və harada deyib ki, cahil ateist olmur?

Biz hələ uşaq vaxtından fərqli ideoloji və dini təbliğatlarla qarşılaşmışıq. Dini təbliğatçılıq missionerlik adlanır və mən ilk dəfə missionerlərlə 8-9 yaşımda tanış olmuşam. Çadır şəhərciyinin qarşı tərəfində meşə zolağı vardı. Tez-tez ora gedirdik oynamağa, giləmeyvə yeməyə. Meşədən çıxıb çadıra tərəf yolu keçmək istəyəndə xarici maşınlar saxlayar (o dövrdə xarici maşın az görünərdi), bizə kasetlər, kitablar verərdilər. O kasetləri maqnitofona qoyanda İsa Məsihdən danışıldığını eşidərdik. Sonra valideynlərimiz o kasetləri götürməyi qadağan etdi. Açığı, biz kasetləri alırdıq, sonra aparıb Ağcabədidə kaset satılan yerə verib üstünə mahnılar yazdırırdıq - çünki yeni kaset almaqdan ucuz başa gəlirdi. Bizim çadıra Türk Qızılayı baxırdı. İndi Ərdoğanı siyasi islamla ittiham edirlər, ancaq o vaxt bizə türkiyəlilər türklük, Orxon-Yenisey yox, eləcə də Latın əlifbası yox, məhz "Əlif, Ba, Ta, Sa, Cim..." öyrədirdilər. O dövrdən iki yerdən qovulmuşam: biri Aşura mərasimi, biri də türkiyəlilərin keçdiyi din dərsləri. Yəni öz ölkəsində və keçmişində nələrin baş verdiyindən bixəbər olanlar bu gün ortaya düşüb ağıllı-ağıllı mühakimələr yürüdürlər.

Yazının əvvəlində qeyd etdim ki, sənin azadlığın mənim sərhədlərimə qədərdir. Sosial şəbəkələrdə videolara baxıram, qarşıma yazılar çıxır. Kimsə "şiəyəm" deyəndə dərhal damğalayırlar: "İran aftafası", "Xomeyni küçüyü". Mənim babam, nənəm, onların da babaları hamısı namaz qılıb, oruc tutub, hamısı da möhürlə. Nəslimizdə bir möhür var, ona lağ edənlərin soy-kökündən daha qədimdir, daha dəyərlidir. Mənim nəslimin qıldığı namazın İranla heç bir əlaqəsi olmayıb və yoxdur; onlar namaz qılanda Xomeyninin "X"-sı da yox idi. Hər kimsə ümumi şəkildə insanları, bütöv bir inancı aşağılayırsa, qoy dönüb öz keçmişinə, öz kökünə baxsın! Sən azadlığının sərhədlərini aşdığın yerdən mənim azadlığım və reaksiyam başlayır. Mənim reaksiyamı isə bilmək istəməzsən...

Bu adamlar camaatı təhqir edəndə, aşağılayanda olur "bomba oğlan", "cahilqovan". Amma başına bir iş gələndə xatırlayırlar ki, qazidirlər. Ateizmdə qazilik anlayışı var ki? Gələk qazilik məsələsinə... Bu ölkədə neçə-neçə qazi imkansızlıqdan, haqsızlıqdan özünü yandırdı, intihar etdi. Qaziləri incitdilər, təhqir etdilər, dövlət qurumlarının qapısından qovdular. Nə əcəb onda bu "cahilliklə mübarizə aparanların" səsi çıxmırdı? Qazi deyildi onlar? Bayraq ordenli Azərbaycan zabiti gedib Rusiya-Ukrayna müharibəsində həlak oldu. Nə əcəb araşdırmırsınız ki, sinəsi medallı oğlanlar niyə gedib Ukrayna bataqlıqlarında tələf olurdular? Səbəbi nə idi?

Müharibənin 11-ci günü idi, Ağ uçuq tərəfdə uşaqlarla yığışmışdıq. Əmr gəlmişdi, döyüşə girəcəkdilər. İçlərində namaz qılanlar var idi - həm sünni, həm şiə. İçlərindən biri uzun illərin tanışı idi. Kanistri verdi mənə, dedi: "Ay dinsiz, suyu sən tök, dəstəmaz alaq". Gülə-gülə əllərinə, ayaqlarına su tökdüm; sünnili-şiəli çiyinçiyinə durub namaz qıldılar və döyüşə getdilər. Aralarında sağ qalanı da oldu, şəhid olanı da. İndi nə düşmüsünüz sünnişiə davasına? Bu ölkədə belə bir ayırıcılıq yox idi, təxribatçılar hər şeyi bir-birinə qatdı. Müharibənin ağır günlərində yolla gəlirdik, dostum Vasif Qurbanzadə saatına baxıb dedi: "Namazın vaxtıdır, namaz qılım, qardaşlarımıza da dua edim". Su yox idi. Əlimizlə toz ovuclayıb gətirdik, Vasif torpaqla təyəmmüm edib namazını qıldı. Sən o adamlara necə cahil deyə bilərsən? O adamların vicdan azadlığı mənim azadlığıma mane olurdu? Qətiyyən! Əksinə, müharibənin ortasında onların inancına sadiqliyi mənə xüsusi bir ruh verirdi. Kiminsə vicdan azadlığı o zaman mənim azadlığıma mane olar ki, o mənim ömrümü "İslama gəl", "Xristianlığa gəl" və ya "Ateist ol" deməklə zəbt etsin. O adamların oxuduğu kitablar da, aldığı təhsil də bəzilərinin nəslindən ağırdır. Bir gün xəbər gəldi ki, əsgərlər cəbhədə ancaq əsgər duası istəyir. Yağış yağdı, yarıqlar örtüldü? Dindən uzaq biriyəm, çox kitab oxumuşam və oxuyuram. Amma bu mənə haqq verirmi ki, kitab oxumayana pis baxım, namaz qılana "cahil", şiəsinə "İran aftafası", sünnisinə başqa bir damğa vurum?

Bir çoxu da özünü millətçi, türkçü kimi qələmə verir. Türklər tarixən irili-xırdalı tayfalar halında yaşayıblar. Bu adamların originatesi, kimliyi bəlli deyil, amma gəlib burada gen davası aparırlar.

Kim deyir ateizm pis şeydir? Ol, mane olan var? Ancaq sənin ateist olmağın inancların aşağılanmasına, təhqir olunmasına bəhanə verə bilməz. Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq hüquq normalarına əsasən, vətəndaşların vicdan azadlığı müdafiə olunur. Dini, milli, irqi nifrətin qızışdırılması hüquqi məsuliyyət yaradır.

Dostlarım dedi ki, o videolara bax. Baxdım və sadəcə gülümsədim. Çünki onun ortaya qoyduğu, Allahın yoxluğu ilə bağlı dediyi arqumentlər mənim 9-cu sinifdən 1-ci kursa qədər axtarıb geridə qoyduğum məsələlər idi. Budur elm? Budur intellekt?

İbn Sina "Əl-İşarat vət-Tənbihat" əsərində "Burhan-i Siddiqin" konsepsiyasını irəli sürüb. Bu, İslam fəlsəfəsində Varlığın (Allahın) isbatı üçün istifadə olunan ən güclü və mükəmməl fəlsəfi arqumentlərdən biridir. Dində sən səthi arqumentləri dağıda-dağıda gələ bilərsən, ancaq bu cür fəlsəfi təfəkkürə çatanda daş qayaya rast gəlir. Mənə görə, həqiqi elmi yanaşma və intellekt də budur. Döyülmə faktını Nəsimini dərisinin soyulması ilə müqayisə edirlər. Nəsimini gedin yaxşı-yaxşı oxuyun, adam İslam fanatiki olub. Xalqı cahillikdən ayıltmaq istəyirsiniz? Çox gözəl. Riçard Dokinsə, Kristofer Hitçensə nə gərək var? Elə Nəsimini, Nizamini, Füzulini, Tusini öyrədin. Kökü burada olan düşüncə insanı mənən böyüdər, xaricdən daşınan primitiv ritorika isə sadəcə cəmiyyəti bölər. Əsl intellektual cəmiyyəti söyən deyil, onu öz dəyərləri ilə ucaldan adamdır.

# "İnflyasiya da inkişaf etməkdə olan ölkələrin orta göstəricisi səviyyəsindədir"

**"Dünyada ərzaq qiymətlərinin yenidən artması müəyyən narahatlıq yaratsa da, hazırda qlobal ərzaq qıtlığından danışmaq üçün əsas yoxdur. FAO (BMT-nin alt qurumu) 2026-cı ildə dünya üzrə taxıl istehsalının təxminən 2,98 milyard ton olacağını proqnozlaşdırır. İstehsalın ötən illə müqayisədə 2 faiz azalacağı gözlənilsə də, qlobal taxıl ehtiyatlarının istehlaka nisbəti 31,6 % səviyyəsində qalır. Yəni dünyada taxıl təminatı baxımından kritik vəziyyət yoxdur".**



Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, problemin daha çox qiymətlərlə bağlı olduğunu bildirib:

"Avqustda FAO-nun dünya ərzaq qiymətləri indeksi bir ayda 1,9 %, illik müqayisədə isə 2,5 % artıb. Buğdanın dünya qiyməti bir il əvvəllə müqayisədə 15 % yüksəkdir.Azərbaycanda isə hazırda illik inflyasiya 5,8 %-dir. Bu göstərici BVF-nin 2026-cı il üçün inkişaf etməkdə olan ölkələr üzrə proqnozlaşdırdığı orta 5,8 %-lik inflyasiya ilə eynidir. Gələn il üçün mənzərə bir qədər yaxşı görünür. Azərbaycanda 2027-ci ildə orta illik inflyasiyanın 4,5 %-ə enəcəyi gözlənilir. BVF-nin inkişaf etməkdə olan ölkələr üzrə 2027-ci il proqnozu isə 4,8 %-dir".

İqtisadçının fikrincə, bu il Azərbaycanda inflyasiya inkişaf etməkdə olan ölkələrin orta səviyyəsinə uyğundur, gələn il isə həmin orta göstəricidən bir qədər aşağı olması proqnozlaşdırılır:

"Əlqərəz, dünyada ayrı-ayrı ölkə və regionlarda ərzaq təhlükəsizliyi və aclıq problemi mövcud olsa da, qlobal miqyasda ərzağın fiziki çatışmazlığından söhbət getmir. Əsas məsələ qiymətlərdir. Enerji, geosiyasi və iqlim amilləri qlobal inflyasiyanın arzu olunan aşağı səviyyələrə enməsini çətinləşdirir. Azərbaycan üçün isə hazırda ərzaq çatışmazlığı ilə bağlı hər hansı ciddi risk görünmür. İnflyasiya da inkişaf etməkdə olan ölkələrin orta göstəricisi səviyyəsindədir və gələn il üçün daha aşağı səviyyə proqnozlaşdırılır".

**Vasif ƏLİHÜSEYN**

# «İrana təkbaşına yeni hücum İsrailin fəlakəti olar»

**"Oktyabrın 27-də İsrail Knessetinə, noyabrın 3-də isə ABŞ Konqresinə keçiriləcək seçkilər İrana qarşı hərbi əməliyyatlara müəlliflik edən Netanyahu-Tramp ittifaqının da siyasi taleyini birdəfəlik müəyyənləşdirəcək proseslərdir. Tramp-Netanyahu ittifaqının 28 fevralda başladığı əməliyyat hər iki liderin seçkiqabağı böyük uğur hekayələri olmalı idi, ancaq əksi baş verdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şükürlü deyib.

O, bildirib ki, həm ABŞ, həm də İsraildə keçirilən ən son sorğular göstərir ki, İran



əməliyyatındakı uğursuzluq - əvvəlcədən elan edilən məqsədlərin hər hansı birinə nail olunmaması - ABŞ və İsrail ictimai rəyini kəskin dəyişib:

"Önümüzdəki 1 ay ərzində fövqəladə hadisələr baş verməsə, Trampı müdafiə edən respublikaçılar ABŞ Konqresindəki, Netanyahunun rəhbərlik etdiyi "Likud" isə Knessetdəki üstünlüyünü itirəcək.Konqresdə - həm Senat, həm də Nümayəndələr Palatasında üstünlüyün itirilməsi seçkiqabağı vədlərinin heç birini yerinə yetirə bilməyən və bu səbəbdən ABŞ ictimai rəyində mövqeləri sürətlə geriləyən Trampın hətta qarşıdakı 2 illik prezidentlik müddətini belə tamamlamasında ciddi əngələ çevrilə bilər - onu impiçment təhlükəsi gözləyir, buna kifayət qədər də əsaslar var. Eyni qaydada, Netanyahunun yenidən baş nazir seçilə bilməməsi onun barəsindəki cinayət işinin yeni epizodlarla təzələnməsi və həbslə yekunlaşmasıyla bitə bilər. İsraildə bu fikir hakimdir ki, mənimsəmədə və səlahiyyətlərindən sui-istifadədə ittiham olunan Netanyahunun HƏMAS-ın 7 oktyabr hücumundan da öncədən xəbəri olub, sadəcə, bu ittihamlardan yayınmaq və öz siyasi karyerası naminə dinc insanların qurban edilməsinə bilərəkdən göz yumub.Hazırda İran hakimiyyəti də bütün addımlarını ABŞ və İsrailin daxilindəki bu kəskin qütbləşməyə, siyasi gərginliyə hesablayıb".

E.Şahinoğlunun sözlərinə görə, Qərbin 47 illik əzici sanksiyalarına dözən İranda çox yaxşı anlayırlar ki, daha 40-47 günlük dözüm və dirəniş təkcə ABŞ və İsraildəki siyasi qüvvələrin mövcud balansını dağıtmaqla yetməyəcək, həm də elə ABŞ və İsrail arasında kəskin maraq toqquşmasına gətirib çıxaracaq:

"Artıq Trampın İran məsələsinə baxışda Netahyahudan fərqli mövqe tutduğu, İranın ABŞ üçün çıxılmaz bir bataqlıq olduğunu dərk etdiyi və uğur qazana biləcəyi yeganə meydanın Ukrayna olduğunu, bu səbəbdən əsas diqqətini də qarşıdakı 1 ayda Ukrayna mövzusuna - onu xilas etmək şansını hələ saxlayan Putinlə anlaşmaya ayıracağı aydınca görünür. Netanyahuya isə tarana getməkdən başqa yol qalmayıb. İrana təkbaşına yeni hücum İsrailin fəlakəti olar. Odur ki, Suriyada, Livanda, İraqda və Yəməndə İranın dəstəklədiyi qüvvələrə ardıcıl zərbə endirməyə, belə demək mümkünsə, "müqavimət oxu"nu sındırmağa, paralel şəkildə, İsrailin güclü olduğu coğrafiyalarda təxribatçı siyasi əməliyyatlara uğur qazanmağa çalışır".

Politoloq hesab edir ki, bu baxımdan, önümüzdəki 40-47 günlük dönəm təkcə İran üçün deyil, İranla həmsərhəd bütün ölkələr, o cümlədən Azərbaycan üçün də çox kritik dönəm sayılır və xüsusən də İsrailin hər an bizi böyük bir təxribata çəkə biləcəyi, daha çox da İran və Türkiyə ilə əlaqələrimizə zərbə vuracaq addımlar atacağı ehtimalı çox yüksək tutulmalıdır:

"Unutmayaq ki, İsrail kəşfiyyatının ən güclü olduğu ölkələrdən biri də Azərbaycandır və Azərbaycanda son aylar xüsusilə ideoloji sferada, informasiya-təbliğat sektorunda etnik, milli və dini zəmində aparılan ideoloji diversiyaların da əsas müəllifi məhz İsrailə bağlı mərkəzlər, təşkilatlar, şəxslərdir. Onlar son 30 ildə dövlət aparatına, müxtəlif hakimiyyət qollarına, əhəmiyyətli strukturlara elə dərindən sızıblar ki, təmizləmək xeyli riskli olmaqla yanaşı, həm də xeyli vaxt aparacaq. Ən çox qorxduqları və özlərinə manеə gördükləri də öz dəyərlərinə sahib çıxan azərbaycanlılardır".

**Sübhan**

# «Çinin texnoloji dəstəyi olmadan...»

**"ABŞ Prezidenti Donald Trampın xüsusi nümayəndəsi Stiv Uitkoff və Cared Kuşnerin Moskva və Kiyevə səfərləri yekunlaşıb. Moskvada və Kiyevdə üçtərəfli görüşün keçirilməsi imkanları müzakirə edilib. Stiven Uitkoff Moskvada keçirilən danışıqlarda mühüm irəliləyiş əldə olunduğunu bildirib. Ancaq bu irəliləyişin nədən ibarət olduğu haqqında detallı açıqlama verməyib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, Stiven Uitkoff Moskva və Kiyevin müharibəyə son qoymaları üçün güzəştə getmələrinin vacib olduğunu deyib:

"Yəqin Vaşinqton hər iki tərəfin konkret güşəztlərini də müəyyənləşdirib. Kiyevin güzəşti atəşkəs və ərazilərin itkisi hesabına olsa belə bir daha müharibənin başlamayacağına dair təminat almaqdan ibarətdir. Moskvanın güzəşti isə bəlli deyil, əksinə Rusiya Prezidenti Kiyevdən Donbasın tamamını tələb edir. Kiyevin buna razılaşması mümkün deyil. Bu səbəbdən tərəflərin qarşılıqlı güzəştlərlə müharibəni dayandıracaqları ehtimalı azdır. Vladimir Putin Donald Trampın nümayəndələrini yola saldıqdan dərhal sonra Şimali Koreyaya səfər edib. Bu o deməkdir ki, Rusiya Prezidentinin müharibəni dayandırmaq fikri yoxdur. Çünki, Vladimir Putinin Şimali Koreyaya səfəri yenidən bu ölkədən daha çox raket əldə etməkdən və koreyalıları cəbhə bölgəsinə göndərməkdən ibarətdir.Rusiyanın özündə də hərbi texnika istehsalı genişlənib. "The Telegraph" və "Politico" nəşrlərinin birgə araşdırmasına görə, Çinin dövlət şirkəti



Rusiyaya yüzlərlə kamikaze dronunun istehsalı üçün materiallarla təhciz edib. Hissələr Rusiyanın ən böyük enerji istehsalçısı ilə əlaqəli bir şirkətə göndərilib".

Politoloq bildib ki, nəşrlərin əldə etdiyi sənədlərə görə, həmin şirkət avqust ayında Ukraynanın mərkəzindəki ticarət mərkəzinə hücum etmək üçün istifadə edilən və ən azı 16 nəfərin ölümünə səbəb olan Geran dronlarını istehsal edir:

"Vaşinqton dəfələrlə Pekini müdafiə sənayesində istifadə edilə bilən və birbaşa Rusiya ordusuna gedən ikili təyinatlı əşyalarla təmin etməkdə günahlandırıb. ABŞ Dövlət Departamentinin ötən ilki bəyanatında Rusiyanın müharibə səylərini dəstəkləyənlərə qarşı sanksiyalar tətbiq ediləcəyi bildirilmişdi. Nəşrlərdə yayımlanan məqalə Çin lideri Si Cinpini çətin vəziyyətə salıb. O bu ayın sonlarında ABŞ səfər edərək Ağ Ev sahibi Donald Trampla müxtəlif mövzuları müzakirə edəcək. Tramp daha əvvəl Si Cinpindən Rusiya və İranı silanlandırmamağı xahiş etmişdi. Ancaq bu xahişin yerinə yetirildiyini söyləmək çətindir. Qərb ekspertləri hesab edirlər ki, Çinin texnoloji dəstəyi olmadan Rusiya Ukraynaya qarşı müharibəni davam etdirə bilməz. Çin lideri Si Cinpin isə Vladimir Putinlə son görüşündə iki ölkə arasında əlaqələrin möhkəmlənəcəyini bildirib. Bayden administrasiyasında dövlət katibinin keçmiş müavini Kurt Kempbell bildirib ki, Çində Rusiyanın hərbi sənaye kompleksinə ikiqat təyinatlı imkanlar təqdim edən şirkətlərin sayı hazırda onlarladır və bu əlaqələr dərindir. O əlavə edib ki, bunun müqabilində Moskva Pekinə "axtardıqları bəzi hərbi imkanları" təkmilləşdirmək üçün texnologiya transferləri təmin edib".

**Sübhan**

# "Ancaq tibblə ölkə xilas olunmaz"

**"Türkiyədə universitetlərə qəbul imtahanlarında ən çox bal toplayan ilk 20 min nəfərin 17 mini tibb fakültəsini seçib. Ölkənin gələcəyini dəyişdirə biləcək cəmi 3 min gənc isə mühəndisliyə yönəlib.Bu rəqəm ilk baxışda tibbin nüfuzunu göstərir, əslində isə daha ciddi bir təhlükədən xəbər verir: ən parlaq zəkaların yarada biləcəyi elmi və texnoloji əlavə dəyər itirilir".**

Adalet.az xəbər verir ki, bunu Türkiyədə yaşayn tanınmış jurnalist İbrahim Nəbioğlu deyib.

O, bildirib ki, əlbəttə, ölkəyə yaxşı həkimlər lazımdır. Ancaq heç bir dövlət yalnız tibblə sənayeləşməyib, texnoloji gücə çevrilməyib:

"Üstəlik, həmin 3 min mühəndisin ən azı 2 mini, 17 min həkimin isə azı yarısı xaricə getməyə çalışacaqsa, problem gənclərin seçimində deyil, onları ölkədə saxlaya bilməyən sistemdədir. Çin Xalq Respublikasına bəzən "Mühəndislər



Respublikası" deyilməsi təsadüfi deyil. Ölkənin son üç dövlət başçısı mühəndislik təhsili alıb; Si Cinping kimya mühəndisliyi oxuyub. Bir vaxtlar kimya sənayesinin mərkəzi Almaniya idisə, bu gün bu elmi və sənaye üstünlüyü tədricən Çin və Hindistana keçir. Çin nadir torpaq elementləri üzərində qurduğu üstünlüklə artıq dünya texnologiyasının zirvəsinə oynayır. Çünki mühəndislik səhlənkarlığı bağışlamır".

İ.Nəbioğlu deyib ki, Türkiyə də vaxtilə Anadolunun istedadlı uşaqlarını İTÜ-də yetişdirərək mühəndis etdi:

"Süleyman Dəmirəl, Turqut Özal, Nəcməddin Ərbakan və Recai Kutan kimi adlar həmin nəslin nümayəndələri idi. Dünya müharibələrinin yorub geridə qoyduğu ölkənin yenidən qurulmasında bu nəslin böyük payı oldu. Onlar yalnız siyasətlə məşğul olmadılar; yolların, zavodların, enerji sistemlərinin və böyük infrastruktur layihələrinin arxasında dayandılar. Ən yaxşıları mühəndisliyə həvəslendirmədikcə texnoloji inqilabın baş verməsi mümkün deyil".

**Vasif**

# Politoloq: "Ukrayna ordusunu geri çəkərsə, atəşkəs olacaq..."

**"Rusiya və Ukrayna danışıqlar masasına oturur. Rusiya və Ukrayna xüsusi xidmət orqanları arasında konfedensial aparılan danışıqların nəticəsidir ki, V.Putin Vladivostokda inkar etdiyi Ukrayna Dövləti ilə ikitərəfli danışıqlar aparmaq və razılığa gəlməyi qeyd etdi. Avqust ayında Ukrayna rəsmiləri bir neçə dəfə Moskvada olublar və tərəflər arasında aparılan danışıqlarda ABŞ-nin yenidən vasitəçiliyi ilə üçtərəfli formatda atəşkəs və sülh razılaşması müstəvidində danışıqlara rəsmi başlamaq barədə razılığa gəliblər".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloqun sözlərinə görə, Ukraynanın



Rusiyaya zərbələri Rusiyanı danışıqlar masasına oturmağa məcbur etdi:

"Ukrayna kifayət qədər Rusiyanın enerji və strateji əhəmiyyətli neft bazalarına zərbələr endirdi. Rusiya iqtisadiyyatı tənəzzülə gedir. Rusiya prezidenti hazırkı baş tutan danışıqları yenidən manipulyasiya edəcəksə, ABŞ Ukraynaya ölümcül və hücum silahları verəcək. Həmçinin Rusiya iqtisadiyyatına ciddi sanksiyalar tətbiq edəcək. Rusiya Donbasın işğal olunmamış ərazilərindən Ukraynanın çıxmasını tələb edir".

O, bildirib ki, hazırda əsas problem budur: "Ukrayna ordusunu geri çəkərsə, atəşkəs olacaq. Atəşkəsdə Ukraynada seçki deməkdir. Seçkidə torpaqları Rusiyaya güzəştə getdiyinə görə V.Zelenskinin məğlub olması və həbsə getməsi deməkdir. Ukrayna tərəfi Rusiyanın bu planın Ukrayna üçün mənfi ssenari olduğunu çox yaxşı bilir. Ukrayna ordusunun Donvasdan döyüşsüz çıxması dövlətin zəifləməsi və ordunun parçalanmasına gətirib çıxara bilər. İki tərəf üçün ən optimal variant hazırkı mövqedə durmaqla atəşkəs rejiminə keçməkdir. ABŞ hazırda bunun üzərində işləyir".

**Sübhan**

*Zaur ƏHMƏD*



# Qanla yazılan tarixə başqa boyaq olmaz!

**İşğaldan azad olunan ərazilər bizim üçün adi bir bölgə, rayon, şəhər deyil. Qarabağ hər bir Azərbaycan vətəndaşı üçün hələ uzun illər müqəddəs yer, ziyarətgah, qibləgah timsalı kimi qalacaq. Odur ki, oralara ayaq basan hər kəs bunun fərqində olmalıdır.**

**Artıq 30 ilə yaxın düşmən tapdağında olan Qarabağımız azaddır. Xalqımız Qarabağına qovuşduğu kimi, Qarabağımız da öz doğma xalqına qovuşub. Amma bu qovuşma asan olmayıb. Minlərlə igid oğullarımız bu uğurda canını fəda edib, şəhadətə ucalıb. Minlərlə qəhrəman qazimiz bu yolda sağlamlığını, əlini, qolunu, ayağını, gözünü, hətta canını qurban verib. Ona görə də o gözəl diyara səfər edəndə, gəzəndə, yurdumuzun gözəlliklərini seyr edəndə bütün bunları göz önünə gətirməli və ona uyğun davranmalıyıq.**

**Təəssüf ki, bəzən kimlərsə Qarabağ səfəri zamanı ya məsuliyyətsizlikdən, ya da düşüncəsizlikdən bunu unudur. Şuşanın necə azad olunduğunu bilənlər, elə bilməyənlər də o sıldırım qayalardan hansı zillətlə keçildiyini anlamalıdır. Şuşaya çəkilən Zəfər Yolu ilə hətta avtomobillə qalxanda adamı vahimə bürüyür. Amma Şuşa fatehləri oranı əlində silah-sursat, çiynində ağır yük, ayaqla, əllə, dırnaqla qalxaraq düşməni məhv ediblər.**

**Bu səbəbdən də Şuşada döyüş izlərinin olduğu mövqelərə, qayalara, daşlara, qanlı döyüşlərin baş verdiyi tarixi izlərə toxunmaq olmaz. Axı, oranın hər bir qayasında, daşında şəhidin ayaq izi, qanı var. Orada neçə-neçə qazinin kəsilmiş əli, ayağı var. Heç rəvadırmı ki, ora hansısa boyaqla ad yazasan, söz yazasan?**

**Biz qanla yazılan bu tarixi gələcək nəsillərə çatdırmaq üçün onu olduğu kimi qorumalıyıq. Bu, təkcə qanunla, qayda ilə tənzimlənən bir məsələ deyil. Bu, vicdanla, mənəviyyatla, ruhla tənzimlənməlidir.**

**O daşların, qayaların üzərinə primitiv üsulla nəsə yazmaqla şəhid adını əbədiləşdirmək olmaz. Zatən hər bir şəhidin adı bu xalqın qəlbində silinməyəcək qədər dərin izlərlə yazılıb. Bəlkə də kimlərsə anlamadan özünü təəssübkeş göstərmək istəyir, bəlkə də niyyəti pis deyil. Amma bu, özfəaliyyət ediləcək bir məsələ də deyil. Ola bilər, niyyət pis deyil, amma tarixi mənzərəni zədələyərək qəhrəmanlarımızın xatirəsinə qarşı istəmədən edilən bir diqqətsizliyə, hörmətsizliyə yol verilir.**

**Şuşa tarix boyu Azərbaycanın göz bəbəyi olub. Bu, təkcə təbiəti ecazkar bir yer deyil, həm də mədəniyyət beşiyidir. Odur ki, hər kəs bu gözəl, müqəddəs, hər daşında, qayasında, torpağında şəhid izi olan ərazilərdə gəzəndə bu vacib, milli təhlükəsizlik məsələsi qədər əhəmiyyətli amili unutmamalıdır. Son olaraq, bir məqamı xüsusi vurğulayım: qanla yazılan tarixə başqa boyaq olmaz!**

## *Dünyada kimin ordusu güclüdür?*




**Son müharibələr bir daha təsdiq edir ki, bu gün dünyada GÜC hakimdir, yaxşı ordun varsa, yaşayacaqsan. Bəs dünyada hansı ölkələrin ordusu ən güclüdür?".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Qulu Məhərrəmli deyib.

""Global Firepower" 2026-cı il reytinqinə hörə, hazırda dünyanın ən güclü orduları siyahısında ABŞ birinci yeri tutur. Rusiya ikinci, Çin isə üçüncü yerdə qərarlaşıb. Reytinq 145 ölkəni əhatə edir və qoşunların sayı, silahlanma, logistika, maliyyə imkanları və coğrafiya da daxil olmaqla 60-dan çox göstəricini nəzərə alır.

Liderlər arasındakı əsas dəyişiklik Fransanın altıncı pilləyə yüksəlməsi olub. O, Yaponiya və Böyük Britaniyanı qabaqlayaraq Global Firepower versiyasına görə Avropanın ən güclü hərbi dövlətinə çevrilib.Braziliya 11-ci, Almaniya 12-ci, İsrail 15-ci, İran isə 16-cı yeri tutub. Ukrayna Polşanı bir qədər qabaqlayaraq 20-ci mövqedə qərarlaşıb", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Dövlətimiz həkimləri sevindirdi...

Mən həmişə həkimləri Yer üzünün mələkləri adlandırmışam. Çünki onlar hər gün onlarla insanı ölümün pəncəsindən alaraq həyata qaytarırlar! Bundan gözəl, bundan yaxşı əməl nə ola bilər? Əlbəttə, heç nə! Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyeva TƏBİB işçilərinin əmək haqlarının artması təşəbbüsü ilə bağlı prezident İlham Əliyevə müraciət edib! Cənab prezident İlham Əliyevin tapşırığı ilə onların maaşı əsaslı surətdə artırılıb. Bu artım 600 manatdan çoxdur.

Və artımdan sonra TƏBİB-in elə həkimləri var ki, 3000 manata qədər maaş alır! Çox gözəl! Buna öncə həmin həkimlər sevinir. Ki, onların bu artımdan sonra rifah halları yüksələcək! Və gün o gün olsun ki, başqa sahələrdə də əmək haqqı yüksəlsin. Onsuz da hər il bütün sahələr üzrə bu artım olur. Ancaq bu, insanların həyat tərzində əsaslı dəyişiklik yaratmır! Amma buna da min şükür! Çünki dövlətimiz bu barədə həmişə yeni addımlar atır. Və bir də görəcəyik ki, bu artım hər sahədə oldu və insanların güzəranı daha da yaxşılaşdı. Sadəcə olaraq bir qədər səbr etmək lazımdır! Müəllimlərin də maaşı ikiqat artırılmalıdır və ən yüksək əməkhaqqı onlara verilməlidir.

Çünki onlar öyrədənlərdir! Dünyanın çox yerində bu, belədir! Həkimlərin sağ əli müəllimlərin başına! Mədəniyyət işçilərinin maaşı da çox aşağıdır. Hansı ki, onlar dövlətə və xalqa böyük xidmətlər göstərir. Yaradıcı adamlar cüzi maaşla hansı böyük sənət əsəri yarada bilər! Heç şübhəsiz ki, bütün bunlar haqqında daha dərindən düşünülür və bir gün biz bu sevincin şahidi ola biləcik! Əksər pensiyaçılar 350-400 manat civarında təqaüd alırlar! Bu da yetərincə deyil! Müavinətlər isə 220-250 manat arasındadır! Bunların da əsaslı surətdə artımına son dərəcə ehtiyac var! Min manatdan çox pensiyaları artırmaqdansa, 350-400 manat civarında olan təqaüdlərin yüksəldilməsi daha vacibdir. Belə ki, bazar tələbləri ilə müqayisədə indiki pensiya həmin adamlara bəs eləmir.

Təbii ki, əksər pensiyaçılar mövcud təqaüdün miqdarından o qədər də razı deyillər. Amma görünən odur ki, dövlətimiz bu məsələləri daim diqqət mərkəzində saxlayır, imkan olduqca, həmin pensiya və müavinətlərin əsaslı surətdə artırılması ilə bağlı ciddi addımlar atır! Və inanırıq ki, bir gün hamı sevinəcək!!!

## *Geri qayıdan Harri və Meqan hansı statusda olacaqlar?*



**Böyük Britaniya Kralı III Çarlzın adından göndərilən məktubda Sasseks hersoqu Şahzadə Harrinin və onun həyat yoldaşı Meqanın ölkəyə qayıtmalarına baxmayaraq, kral ailəsinin işləyən üzvləri kimi rəsmi vəzifələri yerinə yetirməyəcəkləri bildirilib.**

Adalet.az xəbər verir ki, məktub Harri və Meqanın övladları Arçi və Lilibetlə birlikdə ötən ay Amerika Birləşmiş Ştatlarından Böyük Britaniyaya köçməsindən sonra onların statusuna aydınlıq gətirmək məqsədi daşıyır. Kralın adından sarayın yüksəkvəzifəli rəsmisi Lord Çemberlen tərəfindən göndərilən məktubda bildirilir ki, cütlük "His/Her Royal Highness" - "Əlahəzrət" (HRH) titullarından istifadə edə bilməyəcəklər. Onlar kommersiya və xeyriyyəçilik maraqları olan özəl vətəndaşlar kimi fəaliyyət göstərəcəklər.

Saray mənbələrinin məlumatına görə, məktub Şahzadə Harrinin komandasına, həmçinin hökumətə, hərbi strukturlara və Lord-Leytenantlara göndərilib. Sənəddə vurğulanır ki, Harri və Meqanın iştirak etdiyi hər hansı tədbir şəxsi xarakter daşıyacaq və onlar həmin tədbirlərdə kral ailəsini təmsil etməyəcəklər.

Məktubda 2020-ci ildə Sasseks hersoqu və hersoginyasının Böyük Britaniyanı tərk etməsindən sonra əldə olunmuş razılaşmanın qüvvədə qaldığı da qeyd edilir. Həmin razılaşmaya əsasən, cütlüyün həm şəxsi kommersiya fəaliyyəti ilə məşğul olması, həm də kral ailəsinin işləyən üzvləri kimi fəaliyyət göstərməsi nəzərdə tutulmur.

"Hamıya məlumdur ki, 2020-ci ilin yanvarında hersoq və hersoginya monarx adından təmsilçilik vəzifələrini yerinə yetirməkdən imtina ediblər və artıq kral ailəsinin işləyən üzvləri deyillər", - deyə məktubda diqqətə çatdırılır.

Sənəddə onların xeyriyyəçilik fəaliyyətinin də şəxsi xarakter daşıdığı vurğulanır.

# Diqqət, uşaqlar!

**Bu deviz altında respublikas ərazisində təhlükəsizlik aylığı keçirilir. Şübhəsiz ki, bu cür təhlükəsizlik tədbirləriinin keçirilməsi hərəkət iştirakçılarının həyatında önəmli əhəmiyyət kəsb edir. O ki, qala uşaqlar ola! Artıq sentyabrın 15- dən bütün ümumtəhsil məktəblərində dərslər başlayacaq . Əlbəttə, hər bir məktəblinin sağ-salamat məktəbə gedib - qayıtması valideynlərin ən böyük arzusudur.**




Amma gərək valideynlər də öz üzərinə düşən vəzifənin məsuliyyətini dərindən dərk eləsin və övladlarını məktəbə apararkən diqqətli olsunlar! Xüsusilə də ibtidai sinif şagirlərinə daha çox nəzarət edilməli, onlar məktəbə gedərkən və qayıdarkən bir anda olsun valideynlər məsuliyyətsizlik etməməlidirlər. Öncə bu il ilk dəfə məktəbə gedən birincilərə önəmli diqqət edilməli,onlar nəzarətsiz olmamalıdır.Düzdür, bu barədə yol polisi davamlı olaraq uşaqları və hərəkət iştirakçılarını maarifləndirir! Ancaq buna arxayın olub , nəqliyyat vasitələrinin intensiv hərəkət etdiyi yerlərdə uşaqlar nəzarətsiz qalmamalıdır. Bir sözlə, həm məktəblilər, həm də valideynlər yol polisinin tövsiyələrinə riayət etməli, mövcud təhlükələrə qarşı hazır olmalıdırlar.

Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə Əlaqələr şöbəsininin bölmə rəisi , polis kapitanı Elvin Hacıyev deyir ki, hər bir valideynin böyük arzusu var. Valideyn arzulayır ki, övladı böyüyüb məktəbə getsin, universitet tələbəsi olsun, ali məktəbi bitirdikdən sonra yaxşı bir yerdə işləsin və ailə qursun! Arzuların yarımçıq qalmaması üçün hər bir valideyn üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirməli, onları məktəbə aparıb- gətirərkən yol hərəkəti qaydalarına əməl etməlidir.

Yeni bir anda olsun , ibtidai sinif şagirdlərini nəzarətsiz qoymaq olmaz. Eyni zamanda onlar uşaqlarina da bu təhlükəsizlik tədbirlərini tez - tez xatırlatmalıdır! Yeni dərs ilinə sayılı günlər qalıb və bu, hər bir valideynin üzərinə böyük məsuliyyət qoyur. Elə edək ki, Bakıda və digər şəhərlərdə məktəbə gedən bir nəfər belə xəsarət almasın! Bir sözlə, " Uşaqlar, diqqətli olun!" təhlükəsizlik aylığı uğurla başa çatsın heç kim ağır qəzalar yaşamasın!

**Emil FAİQOĞLU**

# Yol qaşındı, amma asfalt salınmadı...

**Bu gün Yeni Günəşlinin yolları çox bərbad vəziyyətdədir.Çünki kələ-kötür yollarda avtomobillər çalaya düşür və nəticədə nəqliyyat vasitələrinə ciddi ziyan dəyər .**



Məsələn, həmin qəsəbədə yaşayan Arif Həsənov deyir ki, Yeni Günəşlinin yolları bizi lap boğaza yığıb. Bərbad gündə olan yollarla hərəkət edəndə avtomobilimizə çoxlu ziyan dəyər ! Dəfələrlə mənim idarə etdiyim avtomobil çuxura düşüb və altı əzilib. Ustaya apardım maşını düzəltmək üçün məndən 100 manat istədi.

Çıxış yolum yox idi, onun dediyi pulu verdim və avtomobili təmir elətdirdim. Amma tay həmin istiqamətdə hərəkət etmirəm, deyirəm , yol düzəlsin , ondan sonra avtomobillə həmin yerdə hərəkət edərəm. Bir sözlə, Yeni Günəşlidə yolların bərbad olduğu üçün onlarla avtomobil sahibi ziyan görüb! On beş gün bundan əvvəl Yeni Günəşlidə " Şir" abidəsinin yanından Mürəsəl Kazımlı küçəsinə qədər yollar müxtəlif texnikalar tərəfindən qaşındı və təmizləndi.

Əhali də bunu görüb çox sevindi! Camaat dedi ki, şükür Allaha yollarımız yenidən düzəldilir! Amma insanların sevinci uzun çəkmədi. Belə ki, asfalt yol qaşındı, ancaq ora yeni asfalt örtük döşənmədi! İndi həmin yerlər əvvəlkindən də pis vəziyyətdədir. Hər gün çoxlu sayda avtomobil çala-çuxura düşür və bundan nəqliyyat vasitələrinə ziyan dəyir. Bu barədə " Ədalət"ə neçə-neçə sürücü kömək məqsədilə müraciət edib.

Onlar deyirlər ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşları həmin yerdə yolu qaşıyıb və işləri yarımçıq qoyaraq çıxıb gediblər. Düz , 15 gündən çoxur ki, onlardan bir səs -səmir çıxmır. Sentyabr 7-8- da yağan intensiv yağışdan sonra həmin küçədə vəziyyət daha da çətinləşib.

Belə ki, yağan yağış çalalara dolub və qəza vəziyyəti yaradır. Üstəlik də, maşınlar bərbad yolda hərəkət edərkən çaladakı su sıçrayıb səki ilə gedən piyadaların üstünə düşür. Buna görə də insanlar sürücüləri qınayır. Birazdan yağışlar daha intensiv yağacaq və təmir işlərinə imkan verməyəcək. Ona görə də tez bir vaxtda çıxış yolu tapılmalıdır! Biz yarmçıq qalmış işlərlə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli ilə əlaqə yaratdıq " yarımçıq qalmış işlər nə vaxt başa çadırılacaq?" sualını ona ünvandalıq. Anar müəllim dedi ki, həmin məsələlər bizim diqqət mərkəzindədir.



Yaxın günlərdə həmin yerdə işlər başlanacaq və yola asfalt örtük döşənəcək! Təki belə olsun ! Amma həmin gündən bəri xeyli vaxt keçib, yenə məlum qurumdan bir hərəkət hiss edilmir. Və nəticədə yenə çoxlu sayda sürücülər onların fəaliyyətindən narazılıq edirlər. Nə isə... Gözləyək görək bu işlərin axrı necə olur.

Mövzuya yenidən qayıdacağıq!!!

**Emil FAİQOĞLU**

# 500 illik dünya xəritəsi dəyişir

**BMT Baş Assambleyası dünyada təxminən 500 ildir geniş istifadə olunan Merkator proyeksiyasına alternativ xəritə yanaşmasını dəstəkləyib. Afrika ölkələrinin rəhbərlik etdiyi təşəbbüs çərçivəsində qəbul edilən qərar qitələrin real səth sahələrini daha dəqiq əks etdirən Bərabər Yer proyeksiyasından istifadənin təşviq edilməsini nəzərdə tutur.**

Adalet.az xəbər verir ki, qətnamə 164 ölkənin dəstəyi ilə qəbul edilib. ABŞ qərara qarşı səs verən yeganə ölkə olub, Serbiya, Estoniya, Gürcüstan, Litva, Moldova və Ukrayna isə bitərəf qalıb.

1569-cu ildə flamand kartoqrafı Gerardus Merkator tərəfindən naviqasiya məqsədilə hazırlanan proyeksiya qütblərə yaxın əraziləri olduğundan daha böyük göstərir.

Məsələn, Merkator xəritəsində Qrenlandiya Afrika ilə, demək olar ki, eyni ölçüdə görünür.

Halbuki Afrikanın real səth sahəsi Qrenlandiyanın səth sahəsindən təxminən 14 dəfə böyükdür. Bərabər Yer proyeksiyasında isə qitələrin səth sahələri daha dəqiq göstərilir. Bu xəritədə Afrika daha böyük, Avropa, Şimali Amerika və Qrenlandiya isə Merkator proyeksiyası ilə müqayisədə daha kiçik görünür.

Toqonun liderliyi və Afrika İttifaqının dəstəyi ilə irəli sürülən təşəbbüs BMT Baş Assambleyasında səsverməyə çıxarılıb.

ABŞ qətnamənin kartoqrafik müzakirələrdən kənara çıxan "ideoloji gündəm" daşıdığını və beynəlxalq sülh, rifah və münasibətlər kimi daha vacib məsələlərdən diqqəti yayındırdığını bildirib. Qətnamə məcburi xarakter daşımır və Merkator proyeksiyasını qadağan etmir.

Bu proyeksiyanın dənizçilik və aviasiya kimi sahələrdə bəzi texniki üstünlüklərinin qaldığı qeyd olunur.

Yeni qərar hökumətləri və müxtəlif qurumları qitələrin faktiki ərazilərini daha dəqiq göstərən xəritə proyeksiyalarından istifadəyə təşviq edir.

Təşəbbüsü dəstəkləyən "Xəritəni DÜZƏLDİN" kampaniyası isə Bərabər Yer xəritəsinin məktəblərdə, dərsliklərdə, mediada və rəqəmsal platformalarda daha geniş istifadəsinə nail olmağı hədəfləyir.

# ... Sağ qaldı...

**”Yol hərəkəti haqqında ”Qanunun əsas tələblərindən biri də təhlükəsizlik kəmərindən istifadə edilməsidir. Buna da sürücülər və sərnişinlər ciddi əməl etməlidirlər. Çünki qəza zamanı təhlükəsizlik kəməri insanları 80- 85 faiz ölümdən və ağır xəsarətlərdən xilas edir.**

Ona deyə bilirik ki, yol polisinin təhlükəsizlik kəməri ilə bağlı apardığı maarifləndirmə işləri öz müsbət təsirini göstərib. İndi demək olar ki, sürücülərin və sərnişinlərin böyük əksəriyyəti təhlükəsizlik kəmərindən istifadə edirlər. Düzdür, istifadə etməyənlər də var və onlar inzibati məsuliyyətə cəlb edilir və 50 manat civarında cərimə olunurlar.

Amma dediyimiz kimi, təhlükəsizlik kəmərindən istifadə edənlər daha çoxdur! Xüsusilə də respublika əhəmiyyətli



avtomobil yollarında həmin vasitələrindən hər bir sürücü və sərnişin istifadə etməyə borcludur! Belə ki, həmin yollarda sürət həddi yüksək olur, üstəlik də, qeyri - sabit hava şəraiti hər hansı qəzaya münbit şərait yaradır.

Bu günlər respublika əhəmiyyətli avtomobil yolunda sürücü yüksək sürətə hərəkət edən nəqliyyat vasitəsinin sükan arxasında yatıb və maşın idarəetmədən çıxaraq aşıb. Sürücü təhlükəsizlik kəmərindən istifadə etdiyinə görə, qaza zamanı maşından yola düşməyib. Əgər o, təhlükəsizlik kəmərindən istifadə etməsiydi, heç şübhəsiz ki, belə qəzadan sağ çıxa bilmədi. Sürücü təhlükəsizlik kəmərindən istifadə etdi və qəzadan sağ-salamat çıxdı! Ona görə də sürücülər həmişə bu məsələləri diqqət mərkəzində saxlamalıdır!!!

**Emil FAİQOĞLU**

# "Çin İranın ABŞ-yə məğlub olmasını və İranda rejim dəyişkliyini istəmir..."

**”Şanxay Əməkdaşlıq Təşkilatının Bişkəkdə keçirilən zirvə toplantısı liderlərin ikitərəfli görüşləri ilə yadda qaldı. Prezident İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü sülh quruculuğunun davamına həsr olunmuşdu. İlham Əliyev iranlı həmkarı Məsud Pezeşkianla ikitərəfli əlaqələri və bölgədəki mövcud durumu müzakirə etdi. İlham Əliyevin Hindistanın baş naziri Narendra Modi ilə qısa fikir mübadiləsi də diqqətdən yayınmadı”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib bu liderlərin ilk təması idi. Modinin Rusiya Prezidenti Vladimir Putinlə görüşündə ”müharibəni dayandırmaq lazımdır” cümləsi diqqəti çəkdi:

”Bunların fonunda Çin lideri Si Cinpinin Bişkəkdə Məsud Pezeşkianla geniş fikir mübadiləsi aparmadığına dair xəbərlər yayıldı. Halbuki, Çin İranın ABŞ-a qarşı müqavimətinə dəstək verən əsas dövlət kimi xarakterizə edilir.Si Cinpinin Məsud Pezeşkianla görüşü bir neçə dəqiqə çəkib. İranın ”Mehr” xəbər agentliyi Si Cinpin və Pezeşkian arasında keçirilən görüşdə iki ölkə arasında münasibətlərin möhkəmləndirilməsi istiqamətində müzakirə aparıldığını xəbərini yaysa da, bu mövzunu detallı müzakirə etmək üçün bir neçə dəqiqə kifayət etmir. Çin informasiya agentlikləri isə iki liderin görüşü barədə məlumat yaymayıblar. Aydındır ki, bu Pekinin təlimatı əsasında olub”.

Politoloq Çin liderinin İran Prezidenti ilə görüşə əhəmiyyət verməməsinin səbəbini belə izah edib: ”Bunu Si Cinpinin bu ayın sonunda ABŞ-yə səfəri və



Prezident Donald Trampla keçirəcəyi görüşlə əlaqələndirirlər. Si Cinpin Ağ Evdə görüş ərəfəsində Donald Trampı qıcıqlandırmaq istəməyib. Təsadüfi deyil ki, Donald Tramp son açıqlamalarının birində Si Cipinə ünvanladığı xahişi xatırladıb: ”Ona söylədim ki, İrana dəstək verməyin”. Si Cinpinin Məsud Pezeşkianla görüşə maraq göstərməməsi İrandakı mühafizəkar dairələrin də diqqətindən yayınmayıb. İran parlamentinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin keçmiş sədri Həşmətullah Fəlahətpişə deyib ki, çinli rəsmilər İranla münasibətlərin ölkələrinin qlobal siyasətinə və digər dövlətlərlə əlaqələrinə təsir etməyəcəyini Vaşinqtona göstərmək istəyiblər. Sabir deputat maraqlı statistikaya müraciət edib: ”Çin-ABŞ iqtisadi əlaqələrin həcmi Pekin-Tehran iqtisadi əlaqələrindən 60 dəfə, Çinlə Səudiyyə Ərəbistanı arasındakı iqtisadi əlaqələrin həcmi isə İranla əlaqələrdən 10 dəfə çoxdur”. Sabiq deputatın fikrincə, Pekin Tehranla münasibətlərini sabit strateji tərəfdaşlıq çərçivəsində müəyyənləşdirməyib. İranın sabiq deputatı haqlıdır. Pekin strateji müttəfiqlik və strateji tərəfdaşlıq münasibətlərini yalnız Çinin maraqları üzərində qurub. Çinin yanaşması əməliyyat xarakterlidir: Pekin faydalı olduqda İranı dəstəkləyəcək, lakin xərclər faydaları üstələdikdə İrandan məsafə saxlayacaq. Pekin Tehranla yanaşı İranın bombaladığı Körfəz ölkələri, o cümlədən Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanı ilə sıx əlaqələr malikdir. Birləşmiş Ərəb Əmirlikləri Çin üçün logistika və maliyyəsi üçün mərkəz, Səudiyyə Ərəbistanı isə Çinin enerji təhlükəsizliyinin təməl daşıdır. Bu mənada Çin İranın bu ölkələrə hava hücumlarını dəstəkləyə bilməz.Buna baxmayaraq, Çin İranın ABŞ-yə məğlub olmasını və İranda rejim dəyişkliyini istəmir. Çünki, ABŞ Venesuelanı ram etdikdən sonra bu ölkənin nefti Vaşinqtonun nəzarətinə keçib və Çinin yatırımları təhlükə altına girib”.

**Vasif**

# Eynşteyn bir daha haqlı idi: Kvant dünyasında tarixi cazibə təcrübəsi uğurla başa çatdı

**Beynəlxalq alimlər qrupu ilk dəfə olaraq kvant miqyasında Albert Eynşteynin Ümumi Nisbilik Nəzəriyyəsinin təməl daşlarından biri olan ”ekvivalentlik prinsipini” sübut etməyə müvəffəq oldu.**

Adalet.az xəbər verir ki, təməlləri Qalileo tərəfindən Piza Qülləsindən atdığı ağırlıqlarla qoyulan və Apollo 15 astronavtları tərəfindən Ay səthində lələk və çəkiclə sınaqdan keçirilən ”sərbəst düşmə prinsipi” (zəif ekvivalentlik prinsipi) bu dəfə mütləq sıfıra yaxın temperaturda atomlara uğurla tətbiq edilib.

Laboratoriya şəraitində aparılan incə bir təcrübədə tədqiqatçılar rubidium atomlarını donduraraq onları mütləq sıfıra yaxınlaşdırıblar. Atomlar kvant ”super mövqe” vəziyyətinə gətirilib və bu da onların eyni vaxtda iki fərqli yolda hərəkət etməsinə imkan verib. Maqnit sahələrindən istifadə edərək, atom dalğasının bir hissəsi hərəkətsiz saxlanılıb, digər hissəsi isə cazibə qüvvəsinin təsiri altında sərbəst düşməsinə icazə verilib. Payızın sonunda iki kvant dalğası yenidən bir araya gətirilib və aralarındakı kiçik kvant faza fərqləri ölçülüb. Ölçmələr Eynşteynin kvant dalğaları üçün ekvivalentlik prinsipinin nəzəri proqnozlarına mükəmməl uyğun gəlib. Oksford Universitetinin Fizika kafedrasının müəllimi və tədqiqat qrupunun üzvü professor Vlatko Vedral nəticələrin kvant fizikasını cazibə həddinə çatdırdığını bildirərək bunları deyib: ”Kvant fizikasının cazibə qüvvəsi altında niyə uğursuz olması barədə ardıcıl bir nəzəriyyəmiz yoxdur. Bu təcrübə bir daha göstərdi ki, kvant mexanikasının proqnozları mükəmməl işləyir”. Nəzəri fiziklər bütün kainatı tək bir tənliklə izah etməyi hədəfləyən ”Hər Şeyin Nəzəriyyəsi”nə çatmaq üçün kvant mexanikası ilə nisbilik arasındakı sərhəd xəttini araşdırmağa davam edirlər.

**Məşhur fizik və tədqiqatın həmmüəllifi professor Ser Rocer Penrouz iddia edir ki, daha böyük kütləyə malik obyektləri uzunmüddətli superpozisiya vəziyyətlərində saxlamaq mövcud nəzəriyyələrdə qırılma nöqtələrini aşkar edə bilər. Alimlər kvant mexanikası və ümumi nisbilik nəzəriyyəsinin harada fərqləndiyini müəyyən etmək üçün ”nanodiamblyuz” adlanan daha böyük strukturlar üzərində oxşar sərbəst düşmə təcrübələrini təkrarlamaq üçün yeni tədqiqatlara başlayıblar.**

**Sübhan**

*Rüstəm HACIYEV*

# ABŞ-nin növbəti cəhdi uğurlu alınacaqmı?

***ABŞ prezidenti Donald Trampın xüsusi elçiləri Stiv Uitkoff və Cersld Kuşner uzun fasilədən sonra Moskva və Kiyevə səfər ediblər. Onlar Kremldə Rusiya prezidenti Vladimir Putinlə üç saatdan çox Vaşinqtonun sülh təkliflərini müzakirə ediblər.***

***Xüsusi elçilər daha sonra Ukrayna prezidenti Volidimir Zelenskiylə də bu təklifləri müzakirı ediblər. Ukrayna hazırda qış kompaniyasına başlayır, xüsusi elçilər sülh məsələsini soyuqlar düşənədək həll olunmasına çalışırlar.***

***Avopalı ekspertlər, tərəflər arasında dərin fikir ayrılığı olduğunu nəzərə alaraq, Vaşinqtonun bu cəhdinin uğurlu ola biləcəyi məsələsinə ehtiyatla yanaşırlar.***

***ABŞ prezidenti Donald Tramp, növbəti dəfə jurnalistlərə bildirib ki, ”Vaşinqtonun yeni sülh təklifləri var”. Bu təkliflərin nədən ibarət olduğu açıqlanmasa da, RF-sı prezudentinin köməkçisi Yuri Uşakov görüşdən sonra təsdiq edib ki, Uitkoff və Kuşner ” böhrandan çıxış yolu olaraq, ”bir sıra təkliflər” irəli sürüblər.***

***Uşakovun sözlərinə görə, Rusiya prezidenti Moskvanın mövqeyini yenidən təsdiq edərək, bildirib ki, vəziyyətin düzəlməsi üçün münaqişənin ilkin səbəblərinin həll olunmasına qayıtmalıyıq.***

***Uitkoff və Kuşner Kiyevdə Zelenskiylə də görüşüb müzakirə aparıblar. Daha sonra Almaniya, Böyük Britaniya və Fransanın təhlükəsizlik üzrə məsləhətçiləri də, müzakirələrə qoşulub.***

***Xüsusi nümayəndə Kuşner bildirib ki, Donald Tramp Moskva və Kiyev arasında sülh sənədinin hazırlanmasını tapşırmışdı. Sonradan bu danışıqları Rusiya-Ukrayna-ABŞ arasında üçtərəfli firmatda davam etdirilməsini təklif etmişdi.***

***Danışıqlara yenidən başlamaq cəhdi pozitiv sayılsa da, ekspertlər danışıqların uzun zaman davam edəcəyini proqnozlaşdırırlar. Belə ki, Ukrayna prezidenti ”sülh bağlamaq naminə heç vaxt Donbasın Rusitaya verilməsi ilə razılaşmayacaq”.***

***Beləliklə görünən odur ki, Tramp nümayəndələrinin bu missiyasını, hələlik münaqişənin həllinə tərəf atılmış addım kimi deyil, itirilmiş kanalların bərpası kimi qiymyləndirmək olar.***

## *“İran iqtisadi böhrana yuvarlanır...”*

**”İrana qarşı ABŞ-nin avqustun 24-dən elan etdiyi hərtərəfli və ağır sanksiyalara Avropa İttifaqı da qoşuldu. İran uzun illər Avropa İttifaqı, qonşu ölkələr və strateji tərəfdaşları ilə iqtisadi əlaqələrini davam etdirirdi. ABŞ-nin İrana tətbiq etdiyi iqtisadi müharibənin ölkənin defolta düşməsinə gətirib çıxarması mümkündür”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, uzun müddət tətbiq edilən sanksiyalara duruş gətirən İranın bundan sonrakı sanksiyalar qarşısında necə idarə olunacağı sual doğurur:

”Çünki əvvəlki sanksiyalar müəyyən dərəcədə İrana ələ-və imkanlar tanıyırdı. İran qonşu ölkələr və Avropa ölkələri ilə də iqtisadi əlaqələr qurmuşdu. Hazırda tətbiq edilən sanksiyalar çərçivəsində İranın qonşu ölkələri və strateji tərəfdaşları da hədəfə gələ bilər. Artıq Pakistan və Türkmənistan İran TIR-larının tranzitinə icazə vermir. Həmçinin Türkmənistanla İran arasındakı dəmir yolu xətti ilə daşınan yüklərin hərəkəti dayanıb”.

Politoloqun sözlərinə görə, ABŞ-nin İrana tətbiq etdiyi sanksiyalar Tehranda ciddi fikir ayrılıqlarını dərinləşdirir:

”Artıq benzinin qiyməti bahalaşıb. Yanacaq və enerji çatışmazlığı, rialın devalvasiyası, ölkədə çörək problemi xalqın getdikcə narazılığını artıracaq. SEPAH müqavimətin davam etdirilməsini, keçmiş liderlər və hökumət isə ABŞ sanksiyalarının İranda xaosa gətirib çıxaracağını və iqtisadi defolt yaşanacağını önə sürərək razılaşmaya getməyi təklif edirlər. Prezident M.Pezeşkian İslamabad memorandumuna qayıtmağı qeyd edir. İrana tətbiq olunan ağır və hərtərəfli sanksiyalar SEPAH-ı danışıqlar masasına əyləşdirməyəcək. SEPAH Venesuela və Kuba ssenarisini tətbiq etməyə çalışır. Amma İranın yerləşdiyi region ona kifayət qədər müqavimət göstərməyə imkan vermir. Həmçinin SEPAH-a qarşı prezident, keçmiş liderlər və xalq da müxalif mövqeyə keçir. Belə olan təqdirdə İranda yenidən etirazların baş verməsi istisna deyil.

İran sonu bilinməyən bir yola çıxıb. Çin və Rusiya SEPAH-a dəstək verməklə ABŞ-ı regionda saxlamağa çalışır. Amma Vaşinqton İran ətrafında bataqlığa qərq olmayacaq.Azərbaycan İranla qonşu ölkədir. Rəsmi Bakı İran böhranın danışıqlar yolu ilə həllində maraqlıdır. Azərbaycana qarşı daima qeyri -konusturiktiv siyasətini həyata keçirən SEPAH İranı da çətin vəziyyətə salıb”.

**Vasif ƏLİHÜSEYN**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Günah hər kəsin özündədi

## Xalq şairi Osman Sarıvəllinin ruhuna ehtiramla

**Hər dəfə dünənimə, yəni arxada qalan və indi mənə bəzən çox sərt təpkilər gələn günləri düşünəndə daha çox özümü günahkar görürəm. Bütün olmuşlar mənim özümün ağlımın, ürəyimin və bir də həyata baxışımın mənə verdiyi cəzadır. Bir insan olaraq mən dünyanı öz ürəyimin pəncərəsindən seyr etmişəm. Görünür bu, yetərli olmayıb. Çünki bir ürəyin pəncərəsi kimlərəsə görə dünyanı göstərə bilməz, seyr etməyə imkan verməz. Bu cür düşünənlərə indi içimdə "yazıqlar olsun" desəm də, gerçəklikdə bəlkə də elə mənə yazıqlar olub. Ən azından ona görə ki, yük də, ağır da, elə yaşadıqlarım da mənim çiyinlərimdə özünə yer tutub. Və ayaqlarını sallayıb çiynimdən üzü aşağı. Mən isə...**

Allah insanı yaradanda onu digər canlılardan fərqləndirən ağılla mükafatlandırıb, ağıl verib bəndəsinə. Doğrudur, ağılın ölçüsü, çəkisi yoxdu və varsa da mən bilmirəm. Amma ağıldan yararlanmaq, onu işlək hala gətirib cəmiyyətə və təbii ki, cəmiyyətin içərisində özünə də faydalı etmək bəndənin vəzifəsidi. Bu mənada mənim ağıl payımdan giley etmək haqqım yoxdur.

Amma ondan yararlana bilməməyim də ağılın yox, yenə mənim günahımdı. Bir az da açıqlasam "ağıl ağıldan üstün olar" fikrinə, zərb-məsəlinə həmişə sayqı ilə yanaşıb öz fikrimi arxa plana keçirmişəm. Nəticədə də ağlımdan üstün olan ağıl sahibləri mənim halal haqqıma bu və ya digər şəkildə əngəl törədiblər, problem yaradıblar.

Üstəlik mənim özüm də bu məqamda onların şərikinə, yardımçısına çevrilmişəm. Fərqinə varmamışam ki, niyə və nələr baş verir. Sonda isə suyu sovrulmuş dəyirmanda və yaxud toz qopan xırman yerində xəyala dalmaq qalıb mənə. Xəyal isə nə çıxış yoludu, nə də xilas. Olsa-olsa iynə ucu boyda təsəlli, ya da arzu, ümid... Budur, özünün öz əlinlə uçurtduğun divarın yerində qalan...

Gerçəkliyi öncədən görə bilməmək və son nəticəni də yalnız təxmin etmək...

Bax, bu aralıqda həmişə yaxın bildiklərimi, doğma hesab etdiklərimin sözünə, ağlına üstünlük verməyim indi çəkdiklərimin nə boyda olduğunu ürəyimdəki saysız-hesabsız sancılarırn dili ilə ifadə edir. O sancmalar göstərir ki, dörd divar arasında özözüylə danışan adam kimlər üçünsə dəli, anormal kimi də görünə bilər və bu görünüşə, bu düşüncəyə görə heç bir tərəf qınanıla bilməz. Necə deyərlər, məni dərd yandırır, onları isə görüntü!

Bax, elə bu durum, bu real həyat məni xəlbirdən, ələkdən keçirir, sağasola çırpır. Hər şeyi olduğu kimi anlamağa, dərk etməyə və yenidən dəyərləndirməyə istiqamətləndirir. Mən isə kağıza, qələmə tərəf baxıram və:

*Dağ dumana, dərə selə göz qoyub*
*Yaranıbdı təmaslardan bu ülfət...*
*Ürək dilə, dil dodağa söz qoyub -*
*Bu sevginin günahkarı Əbülfət!*

*Gecə açıb yaxasını ulduzlar*
*Bu halından həyalanıb qızarıb...*
*Taleyimdə bir mirvari ulduz var -*
*Onun mənə diqqəti tay azalıb...*

*Kim istəməz yar yarasın sarısın -*
*Bir də axı, sarımağa nə gərək?*
*Bu dünyada yar sözünün yarısın -*
*Haqq etmədi belə çıxır, bu ürək!*

*...Sığınıbdı bir Allaha, bir Ona*
*Bir özüdü və bir də ki, dərd-külfət...*
*Bir ömür də belə çatır tay sona -*
*Günahkarı bu Ürək və Əbülfət...*

Ürəyimin səsi, pıçıltısı olan bu misralar həm də mənim ürəyimə etdiyin bu zülmün əks-sədasıdır. Allahın verdiyi ömrü və bir də Allahın varlığıma hopdurduğu sevgini adam kimi yaşaya bilməmək, adam kimi dəyərləndirməmək məndən başqa kimsənin günahı deyil. Burda söhbət bir ömrə pay olan, lap elə ömrün haqqı olanın qarşı tərəfin ürəyinə köçürə bilməməkdən, onu da bu sevdada olmağa inandıra bilməməkdən gedir. Hər halda ürək nə çəkirsə, onu elə ürəyin özü bilir.

Amma tək əl gücsüz olduğu kimi tək ürək də dərdə, ağrıya, həsrətə müqavimət göstərməkdə həmişə arxasız, köməksiz, ümidsiz qalmağa məhkumdu. Bu, mənim fikrim deyil, bu, həyatın özünün ortaya qoyduğu gerçəklikdi. Gerçəkliyi də yalnız sevənlər, sevginin nə olduğunu yaşayanlar, gecələr yastığı, gündüzlər dizini qucaqlayanlar bilər...

Qapını döyən səs adamın diqqətini nə qədər özünə çəksə də şübhə yeri qoyur. Çünki o səs tanış deyil. Və tanış olmayan səsin də nə gətirdiyini Allahdan başqa bir də gətirən bilir. Yəni səsin sahibi. Məhz bu düşüncə səni də, məni də, elə hər birimizi də bir diqqətə kökləyir. Toparlanıb o səsə tərəf boylanırsan, qapını o səsə açırsan.

Elə həmin o prosesin içində də bir şok yaşamaq da var, bir göz yaşı da var, bir təəssüf də, bir peşimançılıq da. Bu da hər kəsin qapısını döyən səsin məramından, gəlişindən asılıdır. Mən bütün günahlarımın içərisində boğulanda da, ayaqda durub vargəl edəndə də tək olmamışam. Daxilimdə, ruhumda həmin o qapını döyən səsin sahibi olub. Ona görə də qapını döyən səsin sənə aid olduğunu gözü yumulu bilmişəm.

Soruşmadan, tərəddüd etmədən açmışam qapını o səsə. O səs xatirə olsa da... o səs bugünün, bu anın içindən qopub gəlsə də...o səs mənimlə göz-gözə, üz-üzə, nəfəs-nəfəsə dayansa da... Ona görə ki, mən o səsi özümdən uzağa buraxmamışam. Deməli, həmişə yanımda olan səs həvalandığım, öz-özümə danışdığım anlarda da qapını döyməklə sənli xatirələri geri gətirir və:

*Dinləmək çox gözəldi*
*Boyat xatirələri...*
*Bir mesajla lütf edib -*
*Oyat xatirələri!*

*Demə sevgi yandırar,*
*Gün gələr inandırar!*
*Sənə məni andırar -*
*Həyat xatirələri...*

*Yenə gözlərim dolub,*
*Payızdı - çöhrəm solub...*
*O köhnə Ümid olub -*
*Soyad, xatirələri...*

Bəzən mənə təsəlli verirlər. Bu təsəlli sancmalarla dolur, ironiyalarla da müşaiyyət edilir. Amma həqiqi, yəni sevginin nə olduğunu bilən dostlar, tanışlar isə birmənalı olaraq bu mövzuda ya susurlar, ya da eyni fikri təkrarlayırlar. Onlar səmimi şəkildə deyirlər ki, günah hər kəsin özündədir, kənarda günah axtarmağa heç bir səbəb yoxdur! Mən öncə bu yanaşmadan, bu münasibətdən bir az incidim. Amma sonra fikrin qatlarına enəndə anladım ki, acı da olsa bu, gerçəkdi. Bu gerçəyin özünün də yozumları var, yəni səbəbləri var. Bir az dünyaya gec gəlmişəm... bir az yolumuz gec kəsişib... bir az sevgimi gec etiraf etmişəm..., bir az... bir az... bir az. Və sonda da mənim ürəyimdə mütləq hakim olan sevgi o bir azlarla vuruşmalı olub, indi də vuruşur. Ən maraqlısı da budur ki, vuruş da özü-özüylədir. Çünki qarşı tərəf bilmirəm hansı mənadasa "bir az da gözlə" deyir. Mən də gözləyirəm. Çünki gözlədiyim özü deyir gözlə. Bu da o deməkdir ki, o var. Yəni sən varsan. Mən də həmin o var olanı, varlığım olanı gözləyirəm. Təbii ki, həyat bir andır. Amma bir də təbii ki, həyat davam edir. Mən o bir anın içində də gözləyirəm, davam edən həyatda da. İçimdəki ümid bir az da gözlə deyir, qarşımdakı sən də bir az gözlə deyirsən.

Bu qoşalaşan bir azların içərisində bir az da mən özüm-özümə döz deyirəm. Və:

*Kirpiklərim düyüm düşüb, amma ki,*
*Gözlərimin çuxurunda bürküdü...*
*Söyləyəndə, dil-dodağım, yanma ki,*
*Bu ağrılı bir havadı - türküdü...*

*Sinəm boyu sıralanıb cığır, iz*
*Addım başı qarşıma da çıxır iz!*
*Nə ləpirə, nə çəhlimə sığır iz -*
*Bəlkə bu da Allahın bir görküdü?!*

*Boğulsa da dərd yuvamda körpə qəm,*
*Bil ki, sənin ümidinə körpünəm!*
*Onu görə belə çılğın görükürəm -*
*Yolumdakı gizli səddi, hörgüdü...*

*Danışmıram daha tabdan, dözümdən -*
*Dünya keçib ürəyimdən, gözümdən!*
*Sən varsansa razıyam mən özümdən -*
*Çiynimdəki Allahın bəxt kürküdü!*

**Bəli, yaşanan həyatın ürək və ağıl süzgəci məni elə bu cür, yəni bugünə qədər yaşadığım tərzdə yaşatmağa davam etdirir. Mən dünən də, bu gün də, əgər yaşasam sabah da, elə beləcə ağlımın və ürəyimin məni kökləndiyi hava ilə yaşayacam. Düşünürəm ki, itirdiklərim də, itirə biləcəklərim də bir bəxt işidi. Əsas odur ki, bu ürəkdə, bu ağılda sən varsan və bir də əsas odur ki, mən Allahın verdiyi sevgi ilə səni onun mərtəbəsinə qədər sevirəm.**

Fikrət ƏKBƏRLİ,
Türkiyə üzrə
araşdırmaçı-yazar



# Hörmüzün kölgəsində: Yaxın Şərqin çətin ıeçimi

**Region ölkələri artıq gələcəklərini təhdid edən enerji marşrutlarını təmin etmək üçün mübarizə aparmaqdadırlar. Səudiyyə Ərəbistanı bu ay Pakistan və Türkiyə ilə qarşılıqlı müdafiə müqavilələri imzaladı. Region ölkələri Avropa, Cənubi Koreya, Türkiyə və Ukraynadakı təchizatçılardan daha çox silah alır. Onlar həmçinin siyasi və iqtisadi tərəfdaşlıq üçün Çin və Rusiyaya üz tuturlar, xüsusən də regionda artıq ən böyük xam neft alıcısı olan Çinlə iqtisadi əlaqələri gücləndirməyə çalışırlar.**

**Körfəz dövlətləri də Çin və Rusiyanın müharibədə İrana verdiyi dəstəyə görə narazıdırlar. Buna görə də, Amerika bazalarının onları hədəfə çevirə biləcəyi riskinə baxmayaraq, onlar hələ də ABŞ-ın hərbi varlığını və müdafiəsini istəyirlər.**

**Yaxın Şərq uzunmüddətli qeyri-sabitlikdən qorunmaq üçün xarici güclərə etibar edə bilməz. Region ölkələri hava müdafiə sistemlərini, eləcə də pilotsuz uçuş aparatlarına qarşı imkanlarını gücləndirməlidirlər.**

**Lakin, yerli müdafiə sənayesi hələ regionun yaxın müddətli ehtiyaclarını ödəmək üçün kifayət qədər yetkin deyil və xarici istehsalçılarla tərəfdaşlıqdan çox asılıdır. Buna baxmayaraq, sektor böyüyür və müharibənin uzanması regional şirkətlərə lazım olan daha çox silah istehsal etməyə imkan verə bilər.**

**Problem təkcə potensialda deyil, həm də əməkdaşlıqdadır. Artan siyasi fikir ayrılıqları ölkələrin müdafiə sahəsində birgə fəaliyyət göstərməsini çətinləşdirə bilər. Hava və raketdən müdafiə şəbəkələrinin inteqrasiyası kəşfiyyat və həssas məlumatların paylaşılmasını tələb edir.**

**Ölkələr fərqli hərbi sistemlərə üz tutduqca, onların ahəngdar şəkildə birlikdə işləməsi daha da çətinləşə bilər. Üstəlik, zenit raketləri kimi məhdud resurslar uğrunda rəqabət müdafiəni regional rəqabətin yeni bir meydanına çevirə bilər. Bu, xüsusilə qonşularının köməyindən asılı olan Bəhreyn və İordaniya kimi daha az varlı ölkələr üçün dağıdıcı ola bilər.**

**Region müdafiəyə nə qədər pul xərcləsə də, İranın gələcək hər hücumunun qarşısını ala bilməz. Milyonlarla kvadrat kilometr ərazini qorumaq və intensiv dron və raket hücumlarını dayandırmaq məsələsində heç bir müdafiə sistemi aşılmaz deyil. İranın hərbi imkanlarını davamlı olaraq inkişaf etdirməsi riski daha da artırır.**

**Bu vəziyyət regionun iqtisadi gələcəyi üçün xüsusilə vacibdir. Yaxın Şərqin böyük bir hissəsi gəlir əldə etmək üçün neft və təbii qaz ixracından asılıdır. Tehran, bölgənin neft və qazının böyük bir hissəsinin keçdiyi Hörmüz boğazını gəmilərə atəş açmaqla uzun müddət istifadəyə yararsız hala sala bilər. Bəzi ölkələr ixracatı Süveyş kanalı ilə Bab əl-Məndəb arasındakı Qırmızı dəniz marşrutuna yönəldə bilərlər. Lakin bu marşrut İranla müttəfiq olan Yəmən husilərinin hücumlarına da qarşı həssasdır.**

**Hətta Oman və BƏƏ kimi açıq okeana birbaşa çıxışı olan azsaylı ölkələr belə İranın onların limanlarına hücumlarından narahatdırlar. Əgər Yaxın Şərq neft və qaz ixracında davamlı problemlərlə üzləşərsə, iqtisadi çətinliklər daxili siyasi problemlərə də çevrilə bilər. Bu risk daha çox neftdən asılı olan İraq üçün daha aydın görünür. Daha varlı Körfəz ölkələri də bundan qaça bilməyəcəklər.**

**Ərəb ölkələri risklərin fərqindədir və alternativlər axtarır. Bəziləri regional maneələri aradan qaldıra biləcək boru kəmərlərinə investisiya qoymağı planlaşdırır. Lakin boru kəməri siyasəti keçmişdə İraq və Türkiyə, Qətər və Səudiyyə Ərəbistanı kimi ölkələr arasında münasibətləri mürəkkəbləşdirib. Üstəlik, bu infrastruktur hücumlara və təxribatlara qarşı həssasdır.**

**Buna görə də, daha uyğun variantlardan biri xaricdə neft saxlamaq ola bilər. Bu anbarlar Hörmüz boğazı açıq olduğu müddətdə doldurula bilər; marşrut bağlanarsa, ölkələr bu ehtiyatlardan istifadə edə bilərlər. Xarici anbarlar İranın hücumunu da çətinləşdirər.**

**Bəzi ölkələr artıq bu istiqamətdə addımlar atır. Küveytin Cənubi Koreya və Yaponiyada neft saxlama şəbəkəsini genişləndirməsi, BƏƏ-nin Hindistanda xam neft saxlama tutumunu artırmağı düşünməsi və Cənubi Koreyada neft və qaz saxlamağa maraq göstərən digər Yaxın Şərq istehsalçıları bunun əlamətləridir.**

**Region öz sərvətini qorumaq, özünütəminatını artırmaq, təhlükəsizliyini şaxələndirmək və mümkün olduqda onu öz əlində saxlamaq üçün yeni yollar tapmalıdır.**

**Daha da əhəmiyyətlisi, region ölkələrinə fikir ayrılıqlarını idarə etməyə və ortaq təhdidlərə qarşı birləşməyə kömək edəcək yeni bir mexanizmə ehtiyac var. Buna nail olmaq Yaxın Şərqin bu münaqişədən sağ çıxması və növbəti münaqişə ilə üzləşməsinin yeganə yoludur.**



**Tural ADIŞİRİN**
**AMEA-nın Şəki Regional Elmi Mərkəzinin “Ədəbi-mədəni mühit və folklor” şöbəsinin elmi işçisi**

# Şairliklə şəhidliyin qovuşduğu ünvan

## (Şəhid şair Müzəffər Məmmədoğlunun şeirləri haqqında)

**Azərbaycan ədəbiyyatı tarixi azadlıq, vətənpərvərlik və milli müstəqillik uğrunda canından keçmiş sənətkarların - döyüşçü-şairlərin şərəfli salnaməsi ilə zəngindir. Sözlə əməlin, qələmlə silahın eyni mənəvi müstəvidə birləşdiyi bu qəhrəmanlıq irsi xalqımızın tarixi taleyinin poetik yaddaşıdır. Azərbaycan poeziyasında şəhid şairlərimiz müxtəlif tarixi mərhələlərdə xalqın azadlıq hayqırtısını, torpaq və vətən sevgisini öz qanları və misraları ilə tarixləşdirmişlər.**

20 Yanvar faciəsinin işıqlı simaları, milli azadlıq hərəkatının gənc fədailəri Ülvi Bünyadazadə və böyük şairimiz Mikayıl Müşfiqin doğma əmisi nəvəsi olan Cavad İsmayılov (Cavad Qəmli) poeziyamıza şəhadət məqamının ilk müqəddəs möhrünü vurdular. Birinci Qarabağ müharibəsinin alovlu illərində torpaqlarımızın müdafiəsinə qalxan Nizami Aydın, Fuad Əsədov kimi şairlərimiz, eyni zamanda odlu nöqtələrdən həqiqəti xalqa çatdırarkən şəhidlik zirvəsinə ucalan telejurnalist və şair Alı Mustafayev milli poeziya salnaməmizə silinməz səhifələr yazdılar. Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində isə Murad Nağıyev, Teymur Rəsulov və Elzamin Təhməzov kimi şəhid şairlərimiz öz gənc ömürlərini və poetik istedadlarını Vətənin ərazi bütövlüyü uğrunda fəda edərək şəhidlik poeziyasının müasir zəfər mərhələsini formalaşdırdılar.

Bu şərəfli bədii-tarixi xəttin nakam simalarından biri də şəhid şair Müzəffər Məmmədoğludur. Xatırladım ki, may ayında Zaqatalanın Yeni Suvagil kəndində folklor ekspedisiyasında olarkən bu istedadlınakamşairimizin yaradıcılığıyla tanış oldum. MənəMüzəffər Məmmədoğlunun şeirlər kitabını bağışladılar.

Qısa tanıtım:Müzəffər Məmmədoğlu - 1975-ci ildə Zaqatalanın Yeni Suvagil kəndində anadan olub. I Qarabağ müharibəsi gedən ərəfədə Müzəffər 1992-ci ildə orta təhsilini başa vurub. Hərbi xidmət yaşı çatdıqda orduya getmək istəyib, tək qardaşı hərbi xidmətdə olduğundanonun bu arzusu təxirə salınıb. Yalnız qardaşı hərbi xidməti bitirib döyüş bölgəsindənqayıtdıqdan sonra, 1995-ci ilin mart ayında hərbi xidmətə çağırılıb. Tam döyüş hazırlığı keçdikdən sonra Füzuli bölgəsinə göndərilib. Kəşfiyyat qrupunda xidmət edən Müzəffər növbəti döyüş tapşırığını yerinə yetirərkən düşmən minasına düşüb və 1996-cı il noyabrın 2-də Füzuli rayonu ərazisində şəhid olub. Müzəffər subay idi, ondan qalan yeganə yadigar 2006-cı ildə Mustafa Camalın redaktorluğuyla işıq üzü görən ”Mən ölsəm də, sən yaşa Vətən” adlı şeir kitabıdır.

Müzəffər Məmmədoğlunun bədii irsinə xalq poeziyası gələnəyinin sadəcə passiv davamı və ya mexaniki təkrarı kimi yanaşmaq doğru sayılmaz. Bu poeziya Şah İsmayıl Xətainin irfani sədasından, Molla Pənah Vaqifin dünyəvi poetik incəliyindən və Aşıq Ələsgərin ustad kökündən bəhrələnən poetik yaddaşın fərdi şüur süzgəcindən keçərək yenidən doğulmasıdır. Gələnəkdən gələn arxetiplər və ritorik fiqurlar Müzəffərin fərdi duyumunda müasir ruha uyğunlaşaraq yeni məzmuni semantika kəsb edir.Onun yaradıcılığını fərqləndirən əsas cəhət şeirlərindəki səmimiyyət, mənəvi təmizlik, eksistensial sarsıntılar və ən başda öz taleyini - şəhadət məqamını - bədii dillə əvvəlcədən duyub misralara həkk etməsidir.

Müzəffər Məmmədoğlunun şeirlərində aparıcı bədii forma Azərbaycan xalq şeirinin sütunu sayılan qoşma və gəraylı janrıdır. Şəhid şairin qoşmaları 11 hecalıq ölçüsündə (əsasən 4+4+3 və ya 6+5 təqtili ilə) yazılmışdır. Müəllif bənd quruluşunda klassik aşıq poeziyasının dəqiq qafiyə sisteminə (a-b-v-b, ç-ç-ç-b) ardıcıl olaraq riayət edir.

Xüsusi qeyd edək ki, bu bölgülər yalnız formal-ritmik funksiya daşımır; eyni zamanda sintaktik və semantik vahidlərin misra daxilində yerləşdirilməsini, poetik fikrin müəyyən intonasiya pillələri üzrə inkişafını şərtləndirir.

Şairin poeziyasında həmçinin rədif mühüm struktur-semantik məna daşıyan diqqətçəkici detaldır. Müzəffərin istifadə etdiyi rədiflər silsiləsi (”Olur”, ”Eyləməz”, ”Görünməz”, ”Ağlaram”, ”Olmaz-olmaz”, ”Eylərsən”, ”Yaraşmır”, ”Hərdən”, ”Belə




olmaz”, ”Eylər”, ”Bizləri”, ”İnciyər”, ”Kimisən”, ”Bir baxışınla”) bədii düşüncənin dinamikasını təmin edir. Rədifin təkrarı şairin poetik mətnində ritmik-sintaktik paralelizm yaradır və misralar arasında semantik əlaqəni möhkəmləndirir. Eyni söz və ya ifadənin müxtəlif kontekstlərdə təkrar olunması onun ilkin leksik mənasını aşaraq əlavə emosional-semantik çalarlar qazanmasına səbəb olur.

***Cümlə ay camallı yığışsa bəhsə,***
***Günəş camalına tay olmaz-olmaz.***
***Qələm-qaş gözəllər çoxdu dünyada,***
***Ancaq səninkitək, yay olmaz-olmaz.***

Misralardan göründüyü kimi, şair şeirlərində klassik qoşma janrının daxili musiqisini və ritmik axıcılığını qoruyub saxlaya bilir. Nümunədə diqqəti çəkən digər mühüm cəhət klassik təşbeh sisteminin qoşma poetikası daxilində funksionallaşdırılmasıdır. ”Günəş” və ”yay” obrazları gözəlliyin müxtəlif komponentlərini - camal və qaşları - poetik müqayisə yolu ilə konkretləşdirir. ”Camal-günəş” və ”qaş-yay” semantik paralelliyi Azərbaycan klassik və folklor poetik düşüncəsinin ənənəvi obrazlar sisteminə söykənsə də, şairin fərdi lirik intonasiyası daxilində yeni emosional məzmun qazanır.

Şəhid şairin poeziyasında mərdlik, vəfa, etibar və halallıq əsas əxlaqi-fəlsəfi dayaqlardandır. Şair üçün insan mənəviyyatı ən ali dəyərlərdəndir. Bu baxımdan ”Olur” şeiri milli əxlaq kodeksinin poetik bəyannaməsi kimi səslənir:

***Uca dağların başında,***
***Duman olur, duman olur.***
***Namərdlərin tənə sözü,***
***Yaman olur, yaman olur.***
***Xəstənin görmürsə gözü,***
***Saralıbsa gülər üzü,***
***Mərdlərin bir kəlmə sözü***
***Dərman olur, dərman olur.***
***Dad olmaz haram aşında,***
***Etibar var mərd başında,***
***Vəfalılar hər yaşında,***
***Qurban olur, qurban olur.***

**(ardı 13-cü səhifədə)**

**...Kənardan tələskən adam təəssüratı yaratsa da, əslində çox təmkinli və səbrlidir. İnsanlara dəyər verməyi bacarır. Kiməsə yuxarıdan aşağı baxmır, bu onun ruhuna, əxlaqına ziddir. Sadəliyini, təvazökarlığını həmişə qoruyub saxlaya bilir.**

Savadlı, məlumatlı, dünya görüşlü adamdır. Güclü düşünmə qabiliyyəti var. Çox zəhmətkeş və məhsuldardır. Səhnə sənətinə, kinoya, təsviri incəsənətə, dramaturgiyaya, aktyor və rejissor peşəsinə, mədəniyyətin müxtəlif problemlərinə aid minə yaxın məqalə yazıb. Sənətkarlara həsr olunmuş, onların ömür və yaradıcılıq yollarını əks etdirən müxtəlif kitablar ərsəyə gətirib, Azərbaycan teatrlarının tarixi haqda sanballı əsərlərin müəllifidir...

Deyir ki:- ”Mən rəssam olmaq istəyirdim. Bu sənətə təsadüf və şans nəticəsində gəlmişəm. Anar, Əkrəm Əylisli ilə birgə işlədi və gözəl tamaşalar hazırladı. Mən inanmıram ki, yaxşı pyesi teatr geri qaytarsın. Sadəcə, bu gün rejissorla teatrın qarşılıqlı, ehtiramlı, inamlı əlaqəsi itib. Bu gün çox yazan dramaturqlardan biri Əli Əmirlidir. Mən Akademik teatrda ədəbi hissə müdiri işləyəndə onun pyesini bəyənməyib qaytarmışam. O da təmkinlə mənim iradlarıma qulaq asıb.

Sonralar Əlinin dramaturji yaradıcılığını təbliğ edənlərdən biri də mən olmuşam. Mənim fikrimcə, onun Akademik Teatra ilk gətirdiyi ”Meydan” əsəri zəif idi. Amma ”Ağqoyunlular və Qaraqoyunlular”, ”Köhnə ev”, ”Varlı qadın” maraqlı əsərlərdir. ”Messenat”ı bəyənməmişəm.”- söyləyir...

Sürətlə işləmək qabiliyyəti onu vunderkində çevirib. Yüzdən çox kitabın müəllifidir. Azərbaycanda onun qədər kitabı nəşr olunan müəllif hə-

# Azərbaycan mədəniyyətinin İlham Rəhimli sütunu...

Bəlkə indi çoxlarına inanılmaz görünür, amma həqiqətən belə olub. O vaxt Azərbaycan Dövlət Teatr İnstitutunun Rəssamlıq fakültəsinə daxil olmaq istəyirdim. Amma sənədlərimi verəndə heç götürmədilər də, dedilər, əvvəlcə rəssamlıq məktəbini bitir, sonra gəl. Qanım elə qaralmışdı ki, heç rayona qayıtmaq da istəmədim, birinci mərtəbəyə enib divardakı elanlara baxdım, ”şünas” sözü xoşuma gəldi. Teatrşünaslıq barədə elə ordakılardan soruşdum, nəsə dedilər anlamadım, axırı birtəhər başa saldılar ki, dramaturgiya ilə bağlı olacaq fəaliyyətim. Nə isə, sənədlərimi verdim və qəbul olundum. Amma zamanla teatr mühitinə alışsam da, teatrşünas olacağıma, bu sahədə uğur qazanacağıma elə də inamım yox idi...”



Haqqında söhbət açdığım İlham Rəhimli 1949-cu ildə Yevlax rayonunun Malbinəsi kəndində dünyaya göz açıb. 1989-cu ildən əməkdar incəsənət xadimi fəxri adını daşıyır. 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb...

Düzə düz, əyriyə əyri deməyi bacarır. Tənqiddən çəkinmir. Klassiklərin, eləcə də müasir yazarların yaradıcılığına subyektiv deyil, obyektiv yanaşma tərzi var..

”Elçinin, Əli Əmirlinin əsərləri teatrlarda teztez oynanılır. İlqar Fəhminin, Firuz Mustafanın, Elçin Hüseynbəylinin, Afaq Məsudun yaxşı pyesləri var. Kamal Abdulla çox maraqlı dramaturqdur, tamamilə fərqli üslubda yazır. Məsələ nədir: Azərbaycanda rejissor və dramaturqun birgə işləmək səriştəsi çox zəifləyib. Səməd Vurğun qələmindən dürr tökülürdü, amma ”Vaqif”i həddindən artıq uzun yazmışdı. Yazdığının da poetik cəhətdən nə qədər füsunkar olsa da, dramaturji baxımdan əsaslı işlənməyə ehtiyacı vardı. Ədil İsgəndərov o əsəri dramaturqla birgə qısaldıb gətirdi səhnəyə. Səməd Vurğun ”Fərhad və Şirin”də dramaturgiyanı artıq xeyli mənimsəmişdi. Bu o demək deyil ki, Ədil İsgəndərov Səməd Vurğuna qələm tutmağı öyrədib.

Dramaturgiya çətin janrdır. Ədil İsgəndərovla Səməd Vurğunun işlədiyi variantı Tofiq Kazımov ömründə tamaşaya qoymazdı. Mehdi Məmmədov da o cür. Ədil İsgəndərovdan sonra iki rejissorun adını inamla çəkə bilərəm ki, onlar öz dramaturqlarını yetişdirdilər. Gənc Tamaşaçılar Teatrında Zəfər Nemətov Rauf İsmayılov, İsgəndər Coşqun, Yusif Əzimzadə, Əfqan, Firudin Ağayev kimi müəlliflərlə səylə işlədi və onlar oldular bu teatrın dramaturqu. Tofiq Kazımov dramaturqlardan İlyas Əfəndiyev, Sabit Rəhman, lə ki, yoxdur. Bu sırada birinci yeri o, tutur. Qəlbi yumşaq adamdır, əl tutmağı, yardım etməyi xoşlayır. Maraqlı həmsöhbətdir, mütaliəsi o qədər güclüdür ki, hər bir söhbəti yeni bir məntiq, yeni bir məna kəsb edir. İçi dolu, niyyəti saf, məzmunlu adamdır. Məram və məqsədi gün kimi aydındır. Bildiklərini öyrətmək, insanları maarifləndirmək, xalqa, millətə xidmət etmək onun həyat kredosudur. Nöqsanlara göz yummağı bacarmır. Bir teatrşünas kimi ürək ağrısı ilə onları dilə gətirir...

Deyir ki:- ”Doğrudur, son illər Azərbaycanın əksər teatrları əsaslı şəkildə yenidən qurulub, müasir texnika və texnologiya, işıq, səs sistemləri ilə təchiz edilib. Binaya daxil olanda, məşq və qrim otaqlarını, butafor, rekvizit sexlərini gəzəndə, tamaşaçı salonunda əyləşəndə qürur duyursan. Bunu Bakıda keçirilən beynəlxaq konfranslara gələn qonaqlar da gizlətmirlər, gözəlliyi sevinclə etiraf edirlər. Çox təəssüf ki, teatrların yaradıcılıq prosesi texnikanın və texnologiyanın imkanlarından qat-qat aşağıdır. Bəzi teatrlarımızın güclü və səriştəli cərrahiyyə əməliyyatına ehtiyacı var. Bir qrup teatrlarımız isə ciddi terapevtik müalicəyə möhtacdır və onların sağlam sabahına ümid daha çoxdur. Çox-çox təəssüf ki, reanimasiyada güclə ”nəfəs alan” teatrlarımız da var...”

**Teatrşünas-tənqidçi, jurnalist, əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor İlham Əziz oğlu Rəhimlinin sentyabrın 8-i 76 yaşı tamam olur. Onu bu münasibətilə təbrik edir, möhkəm cansağlığı arzulayıram...**

**Hörmətlə,**
**Elman ELDAROĞLU**

# Mərmərə dənizi yaxın gələcəkdə məhv ola bilər



**Türkiyənin Mərmərə dənizi çirkab sularının qeyri-kafi təmizlənməsi səbəbindən yaxın gələcəkdə məhv ola bilər.**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Dəniz Tədqiqatları Fondunun sədri və İstanbul Universitetinin professoru Bayram Öztürk deyib. Onun sözlərinə görə, Mərmərə bölgəsindəki çirkab sularının təmizlənməsi qurğularının təxminən 50%-i işlək vəziyyətdədir, qalan çirkab suları isə lazımi qaydada təmizlənmədən dənizə axır. Alim qeyd edib ki, bu, oksigen çatışmazlığını daha da artırır və ekosistemə təhlükə yaradır.

Öztürk, Mərmərə dənizinə qeyri-kafi emal olunmuş tullantıların atılmasının nəticələri barədə danışarkən xəbərdarlıq edərək bildirib ki: ”Bu, dənizin yaxın gələcəkdə öləcəyi deməkdir”.

Alim, hətta bir litr təmizlənməmiş məişət və ya sənaye tullantılarının Mərmərə dənizinə daxil olmasının qarşısını almağa çağırıb.



**Məmmədsəfa QASIMOV**
**Xalq artisti, professor**

# SƏSİN SƏNƏTƏ ÇEVRİLDİYİ YER: DUBLYAJ

## MahirəYaqubovanın "Dublyaj sənətinin nəzəriyyəsi və praktiki əsasları" dərs vəsaiti haqqında

**Bəzən ekranda bir aktyorun üzünə baxırıq, amma onun səsini eşitmirik. Eşitdiyimiz səs başqa bir aktyora məxsusdur. Buna baxmayaraq, tamaşaçı çox vaxt həmin fərqi hiss etmir. Çünki peşəkar dublyajda səs artıq sadəcə səs olmur - o, obrazın özünə çevrilir.**

Bəlkə də, dublyaj sənətinin ən böyük sirri elə bundadır: başqasının yaratdığı obrazı öz səsinlə yaşatmaq, amma onu özünə çevirməmək.

Bu, ilk baxışda asan görünür. Lakin işin mahiyyətinə vardıqda anlayırsanki, dublyaj aktyoru qarşısında kifayət qədər mürəkkəb və məsuliyyətli yaradıcılıq vəzifəsi dayanır. O, aktyorun yalnız sözləri deyil, baxışı, nəfəsi, susması, emosiyası, qorxusu, sevinci, qəzəbi və daxili ritmini də səsi ilə çatdırmalıdır.

Məhz,bu baxımdan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Səhnə danışığı kafedrasının dosenti Mahirə Mehdi qızı Yaqubovanın "Dublyaj sənətinin nəzəriyyəsi və praktiki əsasları" adlı dərs vəsaiti vaxtında meydana çıxmış, önəmli elmi-metodiki və sənət hadisəsidir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Elmi Şurasının 8 iyul 2026-cı il tarixli qərarı ilə nəşrə tövsiyə edilən 307 səhifəlik bu kitab dublyaj sənətinin tarixi, nəzəriyyəsi, texnologiyası və praktikasını bir sistem daxilində təqdim edir.

Amma kitabın əhəmiyyətini yalnız mövzusunun aktuallığı ilə izah etmək azdır.

Məsələ ondadır ki, Azərbaycan dilində dublyaj sənətinin nəzəri və praktik əsaslarını bütöv şəkildə əhatə edən, ali məktəb tələbəsinə həm nəzəri bilik, həm də praktiki vərdiş qazandırmağa yönələn belə bir nəşrə ciddi ehtiyac var idi.

Dublyaj - görünməyən aktyor sənəti.

Teatr aktyorunun tamaşaçı ilə bir başa münasibəti var. Onu səhnədə görürük. Aktyorun jesti, mimikası, hərəkəti, səsi və nəfəsi bir bütöv şəkildə tamaşaçıya çatır.

Dublyaj aktyorunda isə vəziyyət bir qədər fərqlidir.

O, ekranda görünmür. Onun yaradıcılığının əsas aləti səsdir. Bu səs isə başqa bir aktyorun üzündə, başqa bir məkanda, başqa bir zaman və mədəniyyət kontekstində görünən obrazın üzərinə "oturmalıdır".

Bu səbəbdən, dublyaj aktyorundan yalnız yaxşı nitq və düzgün tələffüz tələb etmək kifayət deyil. O, ilk növbədə aktyor olmalıdır.

Səsin tembri, nəfəsin uzunluğu, cümlənin ritmi, sözün vurğusu, pauzanın yeri, emosional keçidlər - bütün bunlar obrazın yaradılmasında mühüm rol oynayır.

Məsələn, ekrandakı qəhrəman bir cümləni sakit şəkildə söyləyirsə, dublyaj aktyoru həmin cümləni sadəcə düzgün oxumamalıdır. O, qəhrəmanın niyə sakit danışdığını, həmin sakitliyin arxasında hansı emosiyanın dayandığını anlamalıdır.

Əks halda, texniki cəhətdən düzgün səsləndirmə alınsa da, sənət yaranmayacaq.

Mahirə Yaqubovanın kitabının mühüm üstünlüklərindən biri də dublyaj prosesinə məhz bu sənət baxışından yanaşmasıdır.

Sözün tərcüməsi deyil, obrazın tərcüməsi.

Dublyajın ən mürəkkəb məsələlərindən biri mətndir. Bir dildən digərinə sözləri mexaniki şəkildə çevirmək mümkündür. Lakin dublyaj üçün bu kifayət etmir. Çünki ekrandakı aktyorun dodaq hərəkətləri, danışıq tempi, emosional vəziyyəti və səhnənin ritmi nəzərə alınmalıdır.

Deməli, dublyaj tərcüməçinin də, aktyorun da, rejissorun da yaradıcılıq məsuliyyətini özündə birləşdirən mürəkkəb prosesdir.

Bəzən orijinal dildə bir neçə sözlə ifadə olunan fikir Azərbaycan dilində daha çox söz tələb edir. Bəzən isə, əksinə Azərbaycan dilinin ifadə imkanlarından istifadə etməklə daha qısa və təbii cümlə qurmaq lazım gəlir. Əsas məqsəd təkcə sözü çevirmək deyil, mənanı, emosiyanı və obrazı qorumaqdır.

Bu səbəbdən, dublyaj həm dil, həm aktyor sənəti, həm də texnologiyanın kəsişdiyi məkandır.

Mahirə Yaqubovanın dərs vəsaitində mətnin adaptasiyası, sinxronlaşdırma, obrazın səs vasitəsilə yaradılması, nitq texnikası, diksiya, intonasiya, emosional ifadəlilik və aktyor ustalığının qarşılıqlı əlaqədə təqdim olunması kitabın əsas üstünlüklərindən biridir.

Səsin arxasında böyük zəhmət dayanır.

Tamaşaçı hazır məhsulu görür. Amma o məhsulun arxasında bəzən saatlarla davam edən məşq, təkrar, texniki düzəliş və yaradıcı axtarış dayanır.

Dublyaj aktyoru üçün mikrofon qarşısında dayanmaq səhnəyə çıxmaq qədər məsuliyyətlidir. Hətta bəzi məqamlarda daha mürəkkəbdir. Çünki səhnədə aktyor öz ritmini yarada bildiyi halda, dublyajda o, artıq mövcud olan ritmə uyğunlaşmalıdır.

Ekrandakı aktyorun nəfəsaldığı anı hiss etmək, onunla eyni vaxtda danışmağa başlamaq, dodaq hərəkətlərinə uyğunlaşmaq, emosional keçidi vaxtında tutmaq və bütün bunları təbii səsləndirmək xüsusi hazırlıq tələb edir.

Burada səhnə danışığı sənətinin imkanları xüsusilə mühüm əhəmiyyət daşıyır.

Düzgün nəfəs, səsin idarə olunması, artikulyasiya, diksiya, intonasiya, nitq tempi və ritmi - bunlar yalnız səhnə aktyorunun deyil, dublyaj aktyorunun da əsas peşə alətləridir.

Lakin dublyaj aktyoru bütün bunlara əlavə olaraq mikrofonla işləməyi, səsini müxtəlif məsafələrdən və emosional vəziyyətlərdən idarə etməyi, texniki rejimin tələblərinə uyğunlaşmağı da bacarmalıdır.

Bu baxımdan, kitabın Səhnə danışığı kafedrasının fəaliyyəti ilə bilavasitə bağlı olması da təsadüfi deyil.

Yeni nəslin hazırlanması üçün yeni yanaşma.

Hazırda Azərbaycan kino və televiziya məkanında, xüsusilə rəqəmsal platformaların genişlənməsi ilə dublyaj sahəsinə maraq artır. Xarici filmlər, seriallar, animasiya məhsulları və digər audiovizual əsərlərin Azərbaycan dilində tamaşaçıya təqdim olunması artıq yalnız texniki məsələ deyil.

Bu, həm də dil siyasəti, nitq mədəniyyəti və milli mədəniyyət məsələsidir.

Azərbaycan dilində keyfiyyətli dublyajın inkişafı dilimizin zənginliyi, ifadə imkanları və müasir audiovizual mədəniyyətdə işləkliyinin nümayişidir.

Ona görə də,bu sahədə peşəkar kadrların hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

Mahirə Yaqubovanın dərs vəsaiti,məhz,bu kontekstdə dəyərlidir. Kitab yalnız dublyajın nə olduğunu izah etmir. O, tələbəni bu sənətin daxilinə aparmağa, onun peşəkar tələblərini anlamağa və təcrübi məşqlər vasitəsilə müəyyən vərdişlər qazanmağa istiqamətləndirir.

Nəşrdə praktiki tapşırıqlar, məşğələ nümunələri, təhlil sualları və metodiki tövsiyələrin yer alması onun tədris əhəmiyyətini artırır.

Tələbə burada yalnız oxumamalı, habelə dinləməli, təhlil etməli, təkrar etməli və yaratmalıdır.

Bu isə yaxşı dərs vəsaitinin əsas xüsusiyyətlərindən biridir.

Azərbaycan dublyaj məktəbi haqqında düşünmək vaxtıdır.

Azərbaycanın zəngin aktyor məktəbi var. Səhnə danışığı, bədii qiraət, radio və televiziya aparıcılığı sahəsində də ənənələrimiz kifayət qədər güclüdür. Azərbaycan aktyorlarının səs imkanları, intonasiya mədəniyyəti və obraz yaratmaq bacarığı uzun illər ərzində formalaşmış peşə məktəbinin nəticəsidir.

Lakin müasir dövr yeni tələblər irəli sürür.

Əvvəllər aktyor üçün səhnə və kino əsas yaradıcılıq məkanı idisə, bu gün rəqəmsal platformalar, animasiya, audiokitablar, podkastlar, video oyunlar və digər media formatları aktyor səsinin tətbiq dairəsini daha da genişləndirir.

Bu prosesdə dublyaj xüsusi yer tutur.

Ona görə də, Azərbaycan dublyajının yalnız ayrı-ayrı studiyaların fəaliyyəti səviyyəsində deyil, eləcə də elmi-metodiki və tədris sistemi çərçivəsində inkişaf etdirilməsi vacibdir.

Bu mənada, "Dublyaj sənətinin nəzəriyyəsi və praktiki əsasları" kitabını yalnız bir dərs vəsaiti kimi deyil, Azərbaycan dublyaj sənətinin peşəkar tədris bazasının formalaşdırılmasına xidmət edən nəşr kimi də qiymətləndirmək olar.

Kitabdan məktəbə, məktəbdən sənətə.

Hər bir sənət sahəsinin gələcəyi onun məktəbindən asılıdır.

Məktəb yoxdursa, fərdi istedadlar ola bilər, ayrı-ayrı uğurlu sənətçilər yetişə bilər, lakin davamlı peşəkar ənənənin formalaşması çətinləşir.

Dublyaj sənətində də bu belədir.

Aktyorun səsi təbii istedad ola bilər. Lakin həmin səsi idarə etmək, onu obrazın tələblərinə uyğunlaşdırmaq, mikrofon qarşısında işləmək, sinxronluğa riayət etmək, mətnin emosional strukturunu açmaq və bütün bunları texniki proseslə birləşdirmək artıq peşəkar hazırlıq tələb edir.

Mahirə Yaqubovanın hazırladığı dərs vəsaiti bu hazırlığın sistemləşdirilməsi baxımından diqqətə layiqdir.

Kitabın elmi redaktoru kimi hesab edirəm ki, müəllifin qarşısına qoyduğu məqsəd yalnız mövcud materialı bir kitabda toplamaq deyil. Burada əsas məqsəd dublyaj sənətinə dair nəzəri biliklə praktiki aktyor hazırlığını bir araya gətirməkdir.

Bu isə,xüsusilə təqdirə layiqdir.

Bir səs, bir obraz, bir məktəb.

Səs yaddaşımızda qəribə iz buraxır.

Bəzən illər əvvəl baxdığımız bir filmin adını xatırlamırıq, amma obrazın səsini xatırlayırıq. Bəzən aktyorun üzünü görmədən onun kim olduğunu səsindən anlayırıq.

Deməli, dublyaj aktyoru görünməsədə, tamaşaçının yaddaşında yaşayır.

Onun yaradıcılığının əsas materialı səsdir. Amma o səsin içində aktyorun sənəti, dilin zənginliyi, intonasiyanın gücü, obrazın psixologiyası və rejissorun yaradıcılıq yanaşması birləşir.

Məhz, buna görə də dublyaj sənətinə münasibətimizi dəyişməli, onu sadəcə texniki səsləndirmə kimi deyil, müstəqil yaradıcılıq sahəsi kimi qəbul etməliyik.

Mahirə Yaqubovanın "Dublyaj sənətinin nəzəriyyəsi və praktiki əsasları" dərs vəsaiti bu istiqamətdə mühüm addımlardan biridir.

Bu kitabın səhifələrində səsin texniki imkanlarından daha artıq bir şey var: aktyorun səs vasitəsilə görünməyən obraz yaratmaq cəhdi.

İnanıram ki, bu dərs vəsaiti Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri üçün faydalı tədris mənbəyinə çevrilməklə yanaşı, ölkəmizdə dublyaj sənətinin nəzəri və metodiki əsaslarının daha da möhkəmlənməsinə, yeni nəsil dublyaj aktyorlarının hazırlanmasına öz töhfəsini verəcək.

Çünki dublyajın mahiyyəti yalnız bir dili digər dilə çevirmək deyil.

Dublyaj - bir obrazın səsini başqa dildə yenidən doğurmaq sənətidir.

**Və hər doğuluş kimi, bunun da öz ustası, öz məktəbi və öz sənəti olmalıdır.**

## *Evlilik təkliflərini rədd edən qadınlar niyə "yox" dediklərini etiraf ediblər*

**Evlilik təklifi hər iki tərəf üçün də həyəcanverici bir an olmalıdır. Lakin bəzən işlər planlaşdırıldığı kimi getmir.**

Adalet.az xəbər verir ki, Reddit-in populyar "Ask Women" səhifəsində bir istifadəçinin verdiyi "Evlilik təklifini rədd edən qadınlar, o an tam olaraq nə yaşandı?" sualına gələn cavablar həm təəccüblü, həm də düşündürücü həqiqətləri ortaya çıxardı.

**1. "Ayrılmamaq üçün təklif etdi"**

Evliliyə hazır idim, ancaq sevgilimin ciddi şübhələri var idi. Eyni fikirdə olmadığımız bir münasibəti davam etdirə bilməyəcəyini söyləyəndə, sırf ayrılmamaq üçün üzük alıb gəldi. Düzgün səbəblərlə edilmədiyi üçün rədd etdim.

**2. "Seçimlərim instinktlərimə uduzdu"**

İki dəfə rədd etdim. Birincisində İtalyan sevgilim idi və münasibətimizin getmədiyini görüb bitirdim. İkincisi isə uşaqlarımın atası idi; əvvəlcə "hə" desəm də, toy planları başlayanda hiss etdiklərimə güvənib imtina etdim. Bu gün başqası ilə nişanlıyam və uşaqları böyüdərkən əla bir dostluğumuz var.

**3. "Ayrılıq ağrılı idi, amma peşman deyiləm"**

Təklifinə "xeyr" deyəndə çox sarsıldı. Sonra ciddi bir özünüqiymətləndirmə prosesinə girdi və yollarımızı tamamilə ayırdıq. Özümə gəlməyim vaxt aldı, lakin verdiyim qərardan peşman deyiləm.

**4. "Sadəcə mənim üçün evlənməsini qəbul edə bilməzdim"**

Hamiləyəm və 3 illik sevgilim evliliyin özü üçün mənasız olduğunu, amma mənim üçün edə biləcəyini söylədi. Məncə, bu, təhqir idi. Sadəcə mənimlə evlənməyi mənalı görən və bundan qürur duyan biri ilə evlənərəm deyərək rədd etdim. Qərarımla qürur duyuram.

**5. "48 saatdır tanıdığım adam seks üçün təklif etdi"**

19 yaşındaydım, o, isə 23. Birinin Rədd edəndə cinsi təcrübəsizliyini bəhanə gətirərək fikrimi dəyişməyə çalışdı. Tam bir kabus idi.

**6. "Yaşıl kart üçün pul təklif etdi"**

Sırf yaşıl kart ala bilmək üçün təklif etdi və pul təklif etdi. Təklif etdiyi məbləğ tələbə krediti borclarımı bağlamağa belə çatmırdı.

**7. "Üçüncü dəfədə 'hə' dedim, amma..."**

Birincisində münasibət çox yeni idi, ikincisində sərxoş olanda ağzından qaçırmışdı; rədd etdim. Üçüncüsündə "hə" dedim. 15 il sonrakı boşanma prosesimə baxsaq, ən başdakı instinktlərimə güvənməli imişəm.

**8. "Romantika problemlərimizi həll etməyəcəkdi"**

Ona "ayrılaq" deyəndən bir həftə sonra təklif etdi. Mənimlə pis davranırdı və romantik bir jestin 5 illik emosional zorakılığı ört-basdır edə biləcəyini hesab edirdi. "Xeyr" dedim. İndi 4 ildir gözəl evliliyim var.

**9. "Ən böyük qorxumu gerçəkləşdirdi"**

İcazə verilməyən bir yerdə, insanların içində edilən təklifə nifrət etdiyimi dəfələrlə demişdim. O isə bir gəzinti zamanı, insanların ən çox toplaşdığı yerdə, yad adamların qarşısında etdi. Panik atak keçirərək ağlayaraq uzaqlaşdım.

**10. "Tamamilə maddi bir qərar idi"**

7 illik sevgilimə "xeyr" dedim, çünki toy üçün heç pulumuz yox idi. Aramızda böyük bir dram yaşanmadı, sadəcə məntiqli olanı seçdik.

**11. "Məni aldatdıqdan bir ay sonra təklif etdi"**

Məni aldatdığı üçün ayrıldıqdan bir ay sonra gəlib evlənmə təklif etdi. Ən azından "xeyr" deyəcək qədər ağlı başında biri idim.

**12. "Yanlış zaman"**

Dərsə gecikirdim və o an təklif etdi. Vaxt seçimi bərbad idi. Əsəbləşdim və rədd etdim. Daha sonra bir doğru zamanda yenidən soruşdu, bu dəfə "hə" dedim! Bu il 11-ci ilimizi qeyd edirik!

**13. "Hələ 18 yaşındaydım"**

Məktəbi təzə bitirmişdik. O, gələcəyimizi planlaşdırmaq fikrində idi, mən isə 20-li yaşlarımı azad yaşamaq istəyirdim. Sevginin tək başına kifayət etmədiyini başa düşməli idi.

**14. "Notariat xərci tutmasın deyə təklif etdi"**

Ortaq evimiz və uşağımız üçün vəsiyyətnamə hazırlatmaq istəyirdim. Notarius 500 dollar istəyəndə sevgilim bahalı görüb "Şəhər məhkəməsində evlənək, daha ucuza başa gələr" dedi. Romantik olmadığı üçün rədd etdim.



Ramiz Göyüş,
Yazıçı-publisist

# Döyüşən ruhların hekayəti

**Bu ilin iyununda Şəmkir rayonunda yerləşən Kimya - Biologiya Təmayüllü lisseydə Xalq şairi Səməd Vurğunun 120 illik yubileyinə həsr olunmuş yubiley tədbirində iştirak edirdik. Tədbirdə AYB Qazax bölməsi də bir neçə sənət adamları ilə təmsil olunurdu. Qonaqlar arasında döyüşçü-şair, Azərbaycan ordusunun təqaüddə olan veteranı, mayor Mustafa Rasimoğlu da var idi. Tədbirdən sonra Mustafa müəllim mənə yaxınlaşaraq "Döyüşən ruhlar" adlı şeirlər toplusunu hədiyyə etdi. Doğrusu deyim, Mustafa müəlliməbir döyşçü-şair kimi çoxdan rəğbətim var idi. İndi o kitabı mənə verəndə könlümdən onun haqqında yazmaq keçdi...**

Səmimi desəm, yazı bir az çətin alındı. Deyəsən bir az da yayın istisitəsir etmişdi. Həm də Mustafa Rasimoğlu yaradıcılığına elə baxış bucağından yaxınlaşmaq istəyirdim ki, yazacağım yazı həm oxucunun zövqünü oxşasın, həm də müəllifin yaradıcılığına obyektiv işıq sala bilsin. Bilmədim onun "düyüşən ruhlar"ından yazım, yoxsa səngər qoxulu şeirlərindən. Şeirlərini oxuduqca, söhbətlərini xatırladıqca yaradıcılığı yumaq kimi çözülməyə başladı. Yazı yavaş-yavaş axarına düşdü

"Döyüşən ruhlar" kitabı Azərbaycan Yazıçılar Birliyinin Mustafa Rasimoğlunun 60 illik yubileyi ilə əlaqədar təbriklə başlayır. Elə həm şeirlərdən, həm də kitabın tərtibatından hiss olunur ki, topluya daxil edilmiş şeirlər bir növ Mustafa Rasimoğlunun yaradıcılıq hesabatıdır. Toplunu "Döyüşən ruhlar"ın hekayəti də adlandırmaq olar.

Mustafa Rasimoğlu əslən Qazağın Şıxlı kəndindəndir. O kənddən ki, yetirdiyi elm adamları, sərkərdələri , görkəmli dövlət və ictimai xadimləri ilə yanaşı Azərbaycan ədəbiyyatına Mehdi Hüseyn, Osman Sarıvəlli, İsmayıl Şıxlı, İsa Muğanna, Vidadi Babanlı, Teymir Bünyadov, Rüstəm Kamal kimi nəhəng ədəbi şəxsiyyətlər bəxş edib. Diqqət yetirsək görərik ki, əslən Şıxlı kəndindən olan neçə-neçə ədəbi şəxsiyyətlər vardır ki, onlar əsasən nəsr əsərləri yaratmışlar. Bununla belə təbiət bu yerlərdən poeziyanı da əsirgəməmiş, ədəbi camedə yaxşı tanınan Şota və Tofiq Saleh qardaşları, Eldar Nəsibli Sibirel və Vəli Xramçaylı qardaşları bu kənddə böyüyüb pərvazlanıblar.Bütün sadaladıqlarımla qeyd etmək istəyirəm ki, Mustafa Rasimoğlunun poeziyaya gəlişi heç də təsadüfü hadisə deyil, bu kəndin ab- havasından irəli gəlir. Mustafa müəllimin atası Rasim müəllim də peşə etibarı ilə mühəndis olmasına baxmayaraq, sözə sənətə vurğun adam idi.Mustafa müəllimin söhbətlərindən aydın olur ki, onların evi həmişə qonaqlı-qaralı, yığnaqlı olurmuş və bu məclislərin da əksəriyyətində Azərbaycan poeziyasının və ədəbiyyatının tanınmış simalar iştirak edirmiş. Mustafa müəllim də bu muhitdə böyüyüb, pərvazlanıb və bir vaxt baxıb ki, söz muncuğa dönüb,yerin təkindən süzülüb üzə çıxan bulaq kimi, Mustafa Rasimoğlunun qəlbininin dərinliklərindən süzülərək poetik ifadələrə çevrilir.

Mustafa Rasimoğlunun şeirləri mövzu etibarı ilə rəngarəngdir. Doğrusu onun yaradıcılığında mənim ən çox xoşuma gələn şeirlər atasına həsr etdiyi şeirlərdir. Ədəbiyyatımızda "Ata" mövzusu o qədər də populayar mövzu deyil. Lakin bu mövzuda xalq şairi Vaqif Səmədoğlu, görkəmli şairimiz Məmməd İsmayıl, Davud Nəsib və digərləri poezi-yamızın ən gözəl və bənzərsiz nümunələrini yaratmışlar. Bu baxımdan Mustafa Rasimoğlu da istisna təşkil etmir.Mustafa müəllimin atasına olan böyük sevgisi onunla söhbətlərdə daha çox hiss olunur. Onunla hansı mövzuda danışırsan danış, söhbətin bir ucu gəlib Rasim müəllimə çıxır. Atası haqqında söhbət edəndə Mustafa müəllim atasının mənəvi dünyasını, söz sənət vurğunluğunu, yüksək insani keyfiyyətlərini özünün dərk elədiyi kimi tərəf müqabilinə çatdırmağa çalışır və sanki tədricən bunanail ola bilir. Bundan sonra o bir qədər sakitləşir və elə bilir ki, onun təsəvvür etdiyi Rasim müəllimin böyüklüyünü tərəf müqabilinə anlada bilib. Mustafa müəllim atası haqqında düşüncələrini təkcə söhbətləri ilə çatdırmır, onu həm də poetikləşdirir. Bu baxımdan o, zaman-zaman atasına şeirlər həsr etmişdir. "Atam yenə yada düşüb..."silsiləşeirləri, "Bütövlük", "Tanrıya məktub", "Ata kölgəsi", "Tapılmaz", "Son sətir", "Atam", "Kölgəmə" və digərləri bu qəbildən olan şeirlərdir.Həmin şeirlərdən bir neçəsini nümunə gətirmək istədim:

*Salam köhnə yurdda təzə tanışlar,*
*Salam daş üzlərdən baxan baxışlar.*
*Salam ay qohumlar salam,qardaşlar,*
*Siz məni atamın qəbrinə qoyun.*

*Nə dərdə yalvarım, nə qarğış edim,*
*Qartalın səsini qoyun eşidim.*
*Siz Allah tez olun yaman üşüdüm,*
*Siz məni atamın qəbrinmə qoyun.*

Və ya

*Qartal uçubdu qayadan,*
*Ətəklərə səda düşüb.*
*Zirvəsinə qayıtmayıb,*
*Ürəyimə qada düşüşb.*

*Nə istədin etdim, Tanrım,*
*Anadiltək ötdüm, Tanrım.*
*Üz döndərib getdin, Tanrım,*
*Atam yenə yada düşüb.*

Bu faktdır ki, hər bir qələm adamının əsas qəhrəmanı onun özüdür, necə olmasınndan asılı olmayaraq o öz yaşantılarını qələmə alır. Mustafa Rasimoğlunun yaradıcılığında bu yaşantılar daha qabarıq görünür.

Onun şeirlərini oxuduqca bu qənaətə gəlirsən ki,bir şair olaraq onun yaradıcılığını daha aydın başa düşmək üçün sətir-sətir oxumaq lazımdır. Diqqət yetirin:

*Bəxtim gətirmədi şəhid olmağa,*
*Şəhid olmasam da mən şahid oldum....*

*Ömür uzanan səhradı.*
*Gəl döz görüm susuzluğa...*

*Səbrimi sıxıb dişimə,*
*Çeynəyib uda bilmirəm...*

*Sənin ürəyinə, sənin qəlbinə,*
*Bir dünya lazımdır sığışa bilsin...*

*Namərdləri başdan aşır,*
*Mərdlərilə qıtdı dünya...*

*Zirvə gözə görünməzdir,*
*Bacarırsan çıxar məni...*

"Döyüşən ruhlar" kitabına toplanmış şeirlərdə bu cür deyimlərin sayı kifayət qədərdir.Bu nümunələrə ayrı-ayrılıqda "iynə boyu" şeirlərdə demək olar, minatür şeirlərdə. Bəzi nümunələri hətta aforistik deyimlərə də bənzətmək olar.

Təbii ki, Tanrı hər bir bəndəsi üçün bir tale yazısı , bir ömür kitabı yazır. Bu kitabda acılı, şirinli günlərin vəhdəti, bütöv bir ömrün ayrı-ayrı hissələri yazılıb. "Döyüşən ruhlar" kitabına toplanmış şeirlər Mustafa Rasimoğlunun ömür səlnaməsindən poetikləşmiş səhfələrdir.

Qeyd etdiyimizi kimi Mustafa Rasimoğlu az-az şairlərdəndir ki, Vətən darda olanda, ononöz oğullarına ehtiyacı olanda, könüllü olaraq vətənin müdafiəsinə qalxdı, qələmini silahla dəyişməli oldu.

Birinci Qarabağ müharibəsinin ağrılı, acılı, çətin günlərində, yenicə təşkil olunanan Milli Ordunun tərkibində Ağdərə, Gədəbəy, Tərtər, Qazax, Tovuz və Ağstafa istiqamətində gedən döyüşlərdə iştirak etdi, yağı düşmənlə üzbə-üz qızğın döyüşlərə qatıldı və 8 il ordumuzun tərkibində mərdliklə vuruşdu. Bu döyüşlərdə onun qismətinə şəhidlik yazılmadı. Ancaq qazi olaraq mayor rütbəsinədə ordudan tərxis olundu. Müharibə dəhşətlərini öz gözü ilə görən, bu döyüşlərin iştirakçısı olan qələm adamı kimi onun yaradıcılığından yan keçə bilməzdi.

*Salam odlu torpağım, salam ey əziz diyar,*
*Sənə ehtiyacım var, danılmazdır bu ilqar.*
*Salam verdim, salama cavab versin ilk bahar,*
*Yox olsun yer üzündən səni bölən, Vətənim,*
*Şəhidliyə hazıram , sən ol mənim güvənim.*

- deyə hayqıraraq düşmən üzərinə aslan kimi atılırdı.

Ümumiyyətlə Mustafa Rasimoğlinun cəbhə şeirlərinini həyacansız oxumaq olmur. Mövzuya həsr edilmiş şeirləri oxuduqca sanki şeirin müəllifi ilə birlikdə həmin günləri, anları yaşayırsan ,onunla birlikdə səngərin ab-havasını hiss edirsən. Müəllifin bu mövzuya həsr etdiyi "Şəhid olmasam da...","Zəfər yaraşır", "Döyüşən ruhlar", "Səngərdən salamlar", "Səngər ömrü", "Vətəndaşam mən" və digər şeirləri maraqlı və yaddaqalandır. Bu şeirlərdən iki nümunə gətirmək istədim:

*Dostlarım çəkməsin məni sınağa,*
*Daha ölçülərim gəlməz qınağa,*
*Bəxtim gətirmədi şəhid olmağa,*
*Şəhid olmasam da , mən şahid oldum.*

Təbii ki, döyüşən şair üçün Zəfərdən böyük, möhtəşəm heç nə ola bilməz.Mustafa Rasimoğlu da Zəfərimizi vəsf etməkdən yorulmur, onu yeni-yeni şeirləri ilə tərənnnüm edir:

*Qayasında gül bitirən,*
*Sərvətə zəfər yaraşır,*
*Səmadan ulduz gətirən,*
*Qüvvətə Zəfər yaraşır.*

*Haqqı görüb, haqq danışan,*
*Qəzəb hissi iləalışan,*
*Gecə-gündüz aşıb-daşan,*
*Nifrətə Zəfər yaraşır.*

*Güllənin üstünə qaçan,*
*Baxışıyla ölüm saçan,*
*Al qanıyla çığır açan,*
*Qeyrətə Zəfər yaraşır.*

**Sözsüz ki, kiçik bir yazıda müəllifin yaradıcılığının bütünməqamlarınıncələmək imkanı məhduddur. Mustafa Rasimoğlu indi yaşının müdrik çağına qədəm qoyub və hesab edirəm ki, o, ən gözəl şeirlərini innən belə yazacaqdır.**

## Bu insanlar hər gün mütləq qəhvə içməlidirlər



**Təbii qəhvə yetkin insanlar üçün çox faydalıdır. Aparılan araşdırma nəticəsində məlum olub ki, müntəzəm qəhvə istehlakı əzələ itkisindən qoruyur.**

Adalet.az qəhvənin 50 yaşdan yuxarı insanlarda əzələ itkisi prosesini necə yavaşlatdığını və hansı qidaların əzələ toxumasını gücləndirməyə kömək etdiyini təqdim edir. Alimlər yaşı 50 və daha yuxarı olan 10 mindən çox amerikalının sağlamlıq məlumatlarını təhlil ediblər. Ekspertlər toplanmış məlumatlara əsasən belə qənaətə gəliblər ki, qəhvə yaşlı insanlarda əzələ kütləsinin itirilməsinə, gücün və fiziki aktivliyin azalmasına səbəb olan sarkopeniya xəstəliyinin inkişaf riskini azaldır.

Bir araşdırmaya görə, gündəlik qəhvə içən insanların əzələ kütləsi içkidən imtina edənlərə nisbətən orta hesabla 15 faiz daha yüksəkdir.

Əzələ kütləsini yaratmağa kömək edən qidalar

50 yaşından sonra bir çox insan əzələ kütləsini itirməyə başlayır, buna görə də rasionunuza əzələ böyüməsini dəstəkləyən və stimullaşdıran qidaları daxil etmək vacibdir.

1. Yumurta. 100 qram yumurtanın tərkibində əzələlərin qurulması üçün əsas material olan 12 qram protein var. Sarısı sağlam doymamış yağlarla və artıq yağların yığılmasının qarşısını alan karotenoidlərlə zəngindir.

2. Tam taxıl çörəyi. Hər 100 qram məhsul üçün təxminən 10 qram protein və çoxlu karbohidratlar var ki, bu da bədənin enerjisini saxlamağa və yağ kütləsini idarə etməyə kömək edir.

3. Toyuq filesi. 100 qram toyuq ətində 23 qram protein, həmçinin əzələ sağlamlığı və orqanizmin ümumi vəziyyəti üçün vacib olan vitaminlər, fosfor, selen və sink var.

4. Tam taxıllı dənli bitkilər: yulaf əzməsi, quinoa, düyü. Bu məhsullar həzmi yaxşılaşdırır və əzələ kütləsini saxlamaq üçün də vacib olan bitki zülalını ehtiva edir.

5. Qızıl balıq. 100 qram qırmızı balıqda təxminən 20 qram protein var. Somon, əzələlərin bərpasına və böyüməsinə kömək edən Omeqa-3 yağ turşuları ilə də zəngindir.

6. Toxumlar və qoz-fındıq. Fıstıqda 100 qram məhsulda 26 qram protein, balqabaq tumlarında 25 qram, günəbaxan toxumlarında isə 23 qram protein var.

Bu qidaları qida rasionunuza daxil etməklə və qəhvə əlavə etməklə siz nəinki əzələ itkisinin qarşısını ala bilərsiniz, həm də xüsusilə yaşlı insanlar üçün vacib olan əzələlərinizi gücləndirə bilərsiniz.

## Süni intellekt bu peşəni sərt şəkildə vurdu: 40 min gənc bir gecədə işsiz qaldı



**Milyonlarla insanın istifadə etdiyi süni intellekt söhbət botu "ChatGPT" düz 40 min gəncin əsas dolanışıq mənbəyi olan gəlirli sahəni demək olar ki, bazardan silib atdı.**

Xüsusilə inkişaf etməkdə olan ölkələrdə internet üzərindən sərbəst şəkildə (freelance) çalışan minlərlə rəqəmsal əməkçi üçün süni intellekt əsl dağıntıya çevrilib. Illərdir ali təhsilli gənclərin ən böyük gəlir mənbəyi olan onlayn məzmun və ev tapşırığı istehsalı OpenAI-ın inkişaf etdirdiyi yaradıcı süni intellekt sistemləri qarşısında uduzub.

Adalet.az xəbər verir ki, hekayə ucuz və yüksək sürətli internetin yayılması ilə başladı. Universitet məzunu gənc işsizlərin çox olduğu bölgədə, xaricdəki tələbələr üçün akademik mətn və tapşırıq hazırlamaq sektoru nəhəng bir bazara çevrildi.

Adambaşına başına 40-70 dollar qazandıran bu sahə minlərin gəncin həyatını xilas edən bir çörək ağacına çevrilmişdi. Tək bir şəhərdə təxminən 40 min nəfərin bu sistemdən mütəmadi gəlir əldə etdiyi bildirilirdi.

"ChatGPT" bazara çıxarıldıqdan sonra tələbələr saniyələr içində pulsuz mətnlər istehsal etmək imkanı qazandılar və kölgə yazarlara olan tələbat dərhal kəskin azaldı. Lakin süni intellektin səbəb olduğu fəlakət təkcə yazarlıqla məhdudlaşmadı; səs-mət transformasiyası (transkripsiya) və məzmun moderatorluğu kimi yüz minlərlə insanın sığındığı rəqəmsal çörək qapıları da bir-bir bağlandı.

Mütəxəssislər və işini itirən işçilər baş verənlərin aysberqin yalnız görünən tərəfi olduğunu xatırlatdılar. Süni intellektin qlobal miqyasda çox daha böyük bir məşğulluq böhranına səbəb olacağını qeyd edirlər.

# Şəhid polkovnik anıldı

**Zirə Mədəniyyət Mərkəzi Eko Parkda I və II Qarabağ müharibəsi iştirakçısı, Azərbaycan Dövlət Sərhəd Xidmətinin polkovniki, şəhid Füzuli Cavadovun 60 illik yubileyinə həsr olunmuş anım tədbiri keçirilib.**

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Tədbirin aparıcısı, Zirə Cümə Məscidinin axundu Hacı Qədir Nəcəfzadə çıxış edərək Bakının Zirə qəsəbəsində doğulan, böyüyüb boya başa çatan Füzuli Cavadovun keçdiyi şərəfli ömür yolundan danışıb.

Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov çıxışında şəhid Füzuli Cavadovun Azərbaycan Ordusunun möhkəmləndirilməsində xidmətləri olan peşəkar zabitlərdən biri olduğunu bildirib.

Elşən Salahov Azərbaycanın müstəqilliyinin və dövlətçilik ənənələrinin gücləndirilməsində Ulu Öndər Heydər Əliyevin müstəsna rolunu vurğulayıb. O, qeyd edib ki, 44 günlük Vətən müharibəsində Azərbaycan hərbçilərinin göstərdiyi şücaət və fədakarlıq xalqımızın tarixi Zəfərinin əsas amillərindən olub.

Milli Məclisin 14 saylı Xəzər-Pirallahı seçki dairəsi üzrə deputatı Günay Əfəndiyeva çıxışında Füzuli Cavadovun xatirəsinin Azərbaycan dövlətinin və xalqının yaddaşında hər zaman yaşayacağını bildirib.

Günay Əfəndiyeva vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qüdrətli rəhbərliyi nəticəsində ölkəmiz bu gün öz gücü, ordusu, dövlətçiliyi və milli birliyi ilə dünyada öz sözünü deyən bir dövlətdir.

Deputat Şəhidlərimizin, qazilərimizin fədakarlığının, hərbçilərimizin və ümumiyyətlə, bütün dövlət qulluqçularımızın sədaqətli xidmətinin dövlətimizin gücünün əsas dayaqlarından olduğunu qeyd edib.

Tədbirdə Füzuli Cavadovun hərbi xidmət yoldaşı, Azərbaycan Dövlət Sərhəd Xidmətinin polkovniki Vüsal Bağırov çıxış edərək Şəhid Füzuli Cavadovla bağlı xatirələrini bölüşüb.

Ailəsi adından çıxış edən Şəhid polkovnikin qızı Nərmin Ağayeva atasının xatirəsinin ehtiramla yad edilməsinə və ailəsinə göstərilən diqqətə görə tədbir iştirakçılarına təşəkkürünü bildirib. O, atasının həyatının və Vətənə xidmət yolunun ailəsi üçün daim qürur mənbəyi olduğunu qeyd edib.

Tədbirdə Füzuli Cavadovun ədəbiyyata və poeziyaya bağlılığı, Zirə qəsəbəsində keçirilən ədəbi məclislərin təşkilində aktiv iştirakı vurğulanıb.

Tədbirin bədii hissəsində böyük şair və mütəfəkkir Məhəmməd Füzulinin qəzəlləri və Şəhid Füzuli Cavadovun nəvələri tərəfindən şeirlər səsləndirib. Muğam Televiziya Müsabiqəsinin qalibi Vüqar Əbilovun ifasında, tarzən Şahin Babayev və kamança ustası Fərrux Haşımlının müşayiəti ilə muğam nümunələri təqdim edilib.

**2021-ci il noyabrın 30-da Qaraheybət hərbi təlim poliqonunda baş vermiş helikopter qəzası nəticəsində şəhid olan polkovnik Füzuli Cavadova həsr olunan tədbirdə dövlət və ictimaiyyət nümayəndələri, şəhid ailələri, hərbçilər, qazilər, ziyalılar və rayon sakinləri iştirak ediblər.**

# Stress zamanı bunları edin

**Stress gündəlik həyatda qarşılaşdığımız problemlərə və dəyişən şərtlərə orqanizmin verdiyi təbii reaksiyadır.**

Adalet.az xəbər verir ki, mütəxəssislərin fikrincə, stressi tamamilə aradan qaldırmaq mümkün olmasa da, müəyyən vərdişlər stresli vəziyyətlərin daha nəzarətli şəkildə idarə olunmasına kömək edə bilər. Bildirilir ki, stress şəxsi uğursuzluq deyil, orqanizmin normal fizioloji reaksiyasıdır. Buna baxmayaraq, bir çox insan stress keçirdikdə bunu həyatını düzgün idarə edə bilməməsinin göstəricisi kimi qəbul edir. Mütəxəssislər stresslə daha effektiv mübarizə aparmaq üçün bir sıra məqamlara diqqət yetirməyi tövsiyə edirlər.

### *Problemi yoxmuş kimi qəbul etməyin*

Mənfi vəziyyəti kiçiltmək insanın özünü daha sakit hiss etməsinə kömək edə bilər. Lakin problemi qəbul etmək və onu görməzdən gəlmək eyni şey deyil. Yaşanan hadisəni açıq şəkildə ifadə etmək stress reaksiyasının tənzimlənməsinə yardımçı ola bilər.

Stress və panika zamanı dərhal hərəkətə keçmək insanda nəzarəti ələ aldığı hissini yarada bilər. Lakin güclü stress altında verilən qərarlar düşünmədən hərəkət etmək riskini artırır. Buna görə də hər hansı addım atmadan əvvəl sakitləşmək vacibdir. Şərait dəyişdikdə prioritetlər də yenidən nəzərdən keçirilməlidir. Günün əvvəlində vacib görünən məsələ yeni hadisələrdən sonra əhəmiyyətini itirə bilər. Xüsusilə böhran vəziyyətlərində fiziki və emosional təhlükəsizlik əsas prioritet olmalıdır.

### *Problemdən nə öyrənə biləcəyinizə fokuslanın*

Psixiatr və nevroloq Viktor Frankl hesab edirdi ki, insan ən çətin vəziyyətlərdə belə yaşadıqlarına məna verə bilər. Bu yanaşmaya əsasən, qarşılaşdığımız problemi yalnız itki kimi deyil, ondan nəsə öyrənmək imkanı kimi də qiymətləndirmək mümkündür.

### *Kömək istəməyi gecikdirməyin*

**Mütəxəssislər problemləri hər zaman təkbaşına həll etməyə çalışmağın stressi artıra biləcəyini bildirirlər. İş yoldaşı, başqa şöbənin əməkdaşı və ya fərqli baxışa malik bir insan problemin həllində faydalı ola bilər. Beləliklə, problemi təkbaşına həll etmək cəhdindən daha erkən imtina etmək və ehtiyac olduqda dəstək istəmək stressin daha asan idarə olunmasına kömək edə bilər.**

# Elm, sənət və insanlıq zirvəsində – Gülnaz Abdullazadə

## Gülnaz Abutalıb qızı Abdullazadənin 80 illik yubileyinə

**Azərbaycan musiqi mədəniyyətinin, musiqişünaslıq elminin və fəlsəfi-estetik fikrinin inkişafında özünəməxsus iz qoymuş görkəmli şəxsiyyətlərdən biri də bəstəkar, musiqişünas, filosof, fəlsəfə elmləri doktoru, professor, Azərbaycanın Əməkdar incəsənət xadimi Gülnaz Abutalıb qızı Abdullazadədir. 7 sentyabr 1946-cı ildə Bakıda dünyaya gələn Gülnaz Abdullazadənin bu il 80 illik yubileyi qeyd olunur. Onun səksən illik ömür yolu Azərbaycan elminə, musiqi sənətinə, təhsilə və gənc tədqiqatçıların yetişdirilməsinə həsr olunmuş zəngin və mənalı bir fəaliyyət salnaməsidir.**

Gülnaz Abdullazadənin şəxsiyyətini səciyyələndirən başlıca cəhətlərdən biri onun bəstəkar, alim və filosof düşüncəsini vahid bir yaradıcılıq məkanında birləşdirə bilməsidir. O, 1971-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq sinfini, Cövdət Hacıyevin sinfini bitirmişdir. Sonrakı illərdə elmi fəaliyyətini fəlsəfə və estetika istiqamətində davam etdirərək M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin estetika kafedrasında aspirantura təhsili almışdır.

Onun elmi yaradıcılığının mühüm istiqamətlərindən biri musiqi sənətinin fəlsəfi və estetik mahiyyətinin araşdırılmasıdır. "Hegelin estetikasında musiqi incəsənətinin problemləri" mövzusunda namizədlik dissertasiyasını, daha sonra isə "Qədim və orta əsrlər musiqi mədəniyyətinin tarixi-fəlsəfi təhlili (Şərq-Qərb kontekstində)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Bu tədqiqatlar onun musiqiyə yalnız sənət hadisəsi kimi deyil, həm də fəlsəfi, estetik və ictimai-mədəni fenomen kimi yanaşdığını göstərir.

Gülnaz Abdullazadənin elmi irsində Azərbaycan musiqisinin, xüsusilə muğam sənətinin fəlsəfi mahiyyətinin araşdırılması xüsusi yer tutur. "Azərbaycan muğamlarının fəlsəfi mahiyyəti", "Musiqi sənətinin fəlsəfi mahiyyəti", "Musiqi, insan, cəmiyyət", "Qədim və orta əsrlərin musiqi mədəniyyəti", "Hegelin musiqi estetikası" kimi əsərləri onun elmi dünyagörüşünün genişliyini və tədqiqatlarının çoxşaxəliliyini nümayiş etdirir.

Onun yaradıcılıq fəaliyyəti elmi əsərlərlə məhdudlaşmır. Gülnaz Abdullazadə bəstəkar kimi də Azərbaycan musiqi mədəniyyətinə dəyərli töhfələr vermişdir. Fortepiano üçün əsərləri,vokalizləri, simli kvarteti, fortepiano triosu, simfoniyası, mahnı və romansları onun bəstəkarlıq yaradıcılığının müxtəlif janr və formaları əhatə etdiyini göstərir.

Bakı Musiqi Akademiyasının fondlarında onun əsərləri sırasında "7 prelüd və sonatina", "Simfoniya", eləcə də "Azərbaycan vokalizləri" kimi nəşrlər yer alır.

Lakin Gülnaz xanımın fəaliyyətini yalnız elmi əsərlərin və musiqi nümunələrinin siyahısı ilə məhdudlaşdırmaq doğru olmaz. Onun ən böyük xidmətlərindən biri alim şəxsiyyətinin pedaqoq və insan şəxsiyyəti ilə vəhdət təşkil etməsidir. O, illər ərzində çoxsaylı tələbə və gənc tədqiqatçıların elmi dünyagörüşünün formalaşmasına, onların düzgün istiqamət seçməsinə və elmi fəaliyyətə məsuliyyətlə yanaşmasına böyük diqqət göstərmişdir. Bakı Musiqi Akademiyasının materiallarında da onun gənc alimlərin yetişməsindəki xüsusi rolu vurğulanır.

### *Mənim elmi yolumda Gülnaz xanımın izi*

Gülnaz xanım haqqında danışarkən mənim üçün ən mühüm məqam onun yalnız tanınmış alim və professor olması deyil, mənim həyatımda və elmi fəaliyyətimdə böyük rolu olan bir şəxsiyyət olmasıdır.

Elmi fəaliyyətə başladığım və tədqiqat yolunda öz istiqamətimi müəyyənləşdirməyə çalışdığım dövrdə Gülnaz xanımın tövsiyələri mənim üçün xüsusi əhəmiyyət daşıyıb. O, elmi işimdə hər zaman düzgün yolu və istiqaməti göstərib, qarşıma çıxan məsələlərə daha geniş və sistemli yanaşmağı öyrədib.

Bəzən bir alimin gənc tədqiqatçıya verdiyi ən böyük dəstək yazdığı əsər və ya söylədiyi bir cümlədeyil, onun düşünmək, araşdırmaq və doğru nəticəyə gəlmək istiqamətində göstərdiyi yoldur. Gülnaz xanımın mənim elmi fəaliyyətimdəki rolu məhz belə dəyərlidir. Onun elmi yanaşması mənə bir daha göstərdi ki, tədqiqatçı üçün yalnız mövzu haqqında məlumatlı olmaq kifayət deyil. Alim daim sual verməli, mənbələri müqayisə etməli, hadisənin mahiyyətinə varmalı və əldə etdiyi nəticəyə elmi məsuliyyətlə yanaşmalıdır.

Gülnaz xanımın qayğıkeşliyi, tələbkarlığı və eyni zamanda insani münasibəti mənim üçün hər zaman xüsusi örnək olub. Onun verdiyi istiqamətlər bu gün də elmi fəaliyyətimdə mənim üçün dəyərli meyardır.



### *Zəngin elmi irs və davam edən məktəb*

Gülnaz Abdullazadənin elmi və yaradıcılıq fəaliyyəti Azərbaycan musiqi elminin müxtəlif istiqamətlərini əhatə edir. Onun tədqiqatlarında milli musiqi irsi ilə dünya fəlsəfi-estetik düşüncəsi arasında əlaqələrin araşdırılması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan onun yaradıcılığında Şərq və Qərb musiqi mədəniyyətlərinin müqayisəli təhlili, musiqinin insan və cəmiyyət həyatındakı rolu, muğamın fəlsəfi mahiyyəti, musiqi estetikasının problemləri mühüm yer tutur. Onun əsərləri musiqişünaslıqla yanaşı, fəlsəfə, estetika və mədəniyyətşünaslıq baxımından da əhəmiyyətli tədqiqat mənbəyidir. Bu gün Gülnaz Abdullazadənin fəaliyyəti Bakı Musiqi Akademiyasının elmi və yaradıcı mühitinin ayrılmaz hissəsidir.

O, elm və yaradıcılıq işləri üzrə prorektor, professor kimi fəaliyyətini davam etdirir və Azərbaycan musiqi mədəniyyətinin inkişafına öz töhfəsini verməkdədir.

### *80 il - bir ömrün deyil, bir məktəbin tarixidir*

Səksən il insan ömrünün mühüm bir mərhələsidir. Lakin elm və sənət adamlarının ömrünü yalnız illərlə ölçmək mümkün deyil. Onların əsl ömrü yaratdıqları əsərlərdə, yetişdirdikləri tələbələrdə, verdikləri elmi istiqamətlərdə və insanların həyatında buraxdıqları izlərdə davam edir. Gülnaz Abdullazadənin də ömrünün ən böyük mənası məhz bu izlərdədir. Onun elmi əsərləri musiqi elmimizin xəzinəsində yaşayacaq, bəstələri ifa olunacaq, elmi ideyaları yeni tədqiqatlara yol açacaq, yetişdirdiyi və istiqamət verdiyi insanlar isə onun yaratdığı elmi məktəbin davamçıları olacaqlar.

**Əziz Gülnaz xanım!**

**Sizi 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, yaradıcılıq və elmi fəaliyyətinizdə yeni uğurlar arzulayıram.Sizin kimi elmə, sənətə və insana dəyər verən şəxsiyyətlərin həyat yolu gənc nəsil üçün böyük məktəbdir. Mənim üçün isə Siz yalnız böyük alim, professor və müəllim deyil, elmi yolumda düzgün istiqamət göstərən, həyatımda xüsusi iz qoymuş dəyərli və əziz bir insansınız. 80 illik yubileyiniz mübarək olsun, Gülnaz xanım!**

**Nigar BAYRAMOVA,**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının elmi-tədqiqat laboratoriyasının elmi işçisi, doktorant**



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# ARZU ƏYYARQIZININ "SONUNCU KƏPƏNƏK RƏQSİ"

**Arzu Əyyarqızının şeirləri ilə lap yaxınlarda tanış oldum. "Natəvan" klubunda keçirilən bir tədbirdə o, biri həcmcə böyük , biri isə kiçik şeirlər kitabını mənə təqdim etdi, utana-utana "müəllim, oxuyarsınız, görün bunlar şeirdirmi?" dedi. Bir müddət keçdi, mən öncə "Sonuncu kəpənək rəqsi" kitabındakı şeirləri oxudum. Və doğrudan da Cəlilabadda yaşayan bu şairənin yazdıqları, o kitaba cəm etdikləri ŞEİR imiş. Kitab çox yaxşı tanıdığım Şəhriyar del Geraninin ön sözü ilə açılır: "Arzunun şeirlərini oxuduqca onun poeziyaya olan inamını gördüm. Ən vacib məqam isə, hər bir poeziya adamının öz gerçək nağılları olur ömürləri boyunca". Təsdiq edirəm, yaxşı şeir elə nağıla bənzəyir. Arzu Əyyarqızının şeirləri elə nağıl kimidir, şirinliyi də var, kədər doğuran məqamları da,amma səni darıxmağa qoymur o nağıllar.**

Arzu Əyyarnızının şeirləri ilk növbədə, mənə həyat həqiqətlərinin əks-sədası təsirini bağışladı. Dahi V.Q. Belinski yazıb ki: "Poeziya həyatı, bir imkan kimi, yaradıcı surətdə yenidən yaratmaqdır. Buna görə də, o şey ki, həyatda ola bilməz, o- poeziyada da yalandır; başqa sözlə, həyatda ola bilməyən şey poetik də ola bilməz". Amma ən əsası odur ki, o poetikliyi yaratmaq üçün gərək sözlərə dirilik verəsən, onları mənalandırasan.

***Bu dünya bir çarpayıdı,***
***yuxulayıb yıxılırsan .***
***Yıxılıb düşürsən qəbrə,***
***bölünürsən atomlara,***
***muncuq- muncuq dağılırsan,***
***düzülürsən çiçək-çiçək,***
***bir məzarın sinəsindən,***
***şəkil olub asılırsan.***

"Bu dünya" adlı şeirdə Arzu Əyyarqızı dünyanı çarpayıya bənzədib. Dünya haqqında həm klassik poeziyada, həm aşıq şeirində həm də müasir şeirimizdə çox bənzətmələr işlənilib.

"Fani dünya", "qoca dünya", "vəfasız dünya", "etibarsız dünya" və s. Amma "Biz gəldi gedərik, sən yaşa dünya"(Səməd Vurğun)-bu, dünyanı vəfasız, etibarsız bilənlərə deyilib. Arzu Əyyarqızı isə 8 misralıq bir şeirdə Dünya və İnsan rəsmini çəkib. İnsan dünyaya gəlir, yaşayır, bir gün dünyadan köçür və onun məzarı üstündə şəkli asılır. Arzu Əyyarqızı ata həsrətindən-atasızlıq yanğısından bir neçə şeir yazıb. Deyim ki, elə müasir şeirimihdə bu mövzuda nə qədər nümunələr var. Doğrudan da, ata itkisi hər bir övlad üçün ağır dərddir. "Atama məktub"da o, bir övlad kimi danışır, onsuz keçən günlərindən söz açır.

"Oyanasan o yatdığın məzardan"- təbii ki, ölənlər bir daha işıqlı dünyaya qayıtmırlar, amma o şeirin sonuncu bəndində:

***Saçlarımı dərd qanına boyayan,***
***Canım atam, sənsizlikdi , biləsən.***
***Səni Tanrı bilirdim mən özümə,***
***Tanrı ölməz, inanmazdım öləsən.***

Atanı Tanrıya bənzədir və inanmır ki, Tanrı ölə bilər. Amma ata haqqında ən poetik şeir beş misralıq şeirdir:

***Atam alan hər paltar***
***yaraşardı əynimə.***
***Bəlkə qabar əlinin,***
***soyulan dərisiydi***
***biçilmişdi çiynimə.***
***Bax, bu əsl şair sözüdür.***

"Ata həsrəti", "Atamın xatirəsinə", "Qayıt dizlərində yatım, ay ata" şeirlərində də eyni nisgil diqqəti cəlb edir. Amma çox istərdim ki, Arzu Əyyarqızı bundan sonra atasını yad edəcək şeirlərində "Ay ata, bidirsən, sən ölən gündən, mən də yaşamıram, mən də ölmüşəm", "Mən ölsəm mənimlə ölərdin, ata. Mən ölə bilmədim, ölmədim, ata" kimi son dərəcə pessimist misralara müraciət etməsin. Yaxşı olar ki, bu qədər həsrətlə yad etdiyi atasının insani portretini yaratsın. Yəni bir Ata obrazı hasilə gəlsin.Əlbəttə, hər bir şairin şeirlərində nikbinlik də ola bilər, pessimizm də. Gülmək də var, ağlamaq da.. Baxır onları necə mənalandırırsan. Məsələn, Arzu Əyyarqızının "Sevgi dərsi" şeiri başdan-ayağa nikbindliklə yoğrulub.

***Pəncərədən seyr edirəm***
***həyətdə üşüyən qarı;***
***Yağış üşüyüb qar olub,***
***qar üşüyüb buz olacaq.***
***gedib, ovcuma alıb***
***öpüm, isidim barı.***

Qarı öpür və öpdükcə o qar yağışa dönür. Oğlu da baxır.

***Öyrənir ki, üşümək***
***biganəlikdən doğur.***
***Üşüyən insanları***
***sevgi belə ovudur.***
***Öyrənir-yaşatmağın***
***Sevməkdir asan yolu,***
***böyüyür sevgi dolu.***

Bir halda ki, "sevgi" sözü gəldi ortalığa, onun 2024=cü ildə çap olunan "Ən müqəddəs pay kəlağay" kitabında "Ehq ilə zülməti boğan ən ali insanam mən" bölümü var. Bu bölümdə şairənin insanlara, dünyaya, ən müqəddəs, ən ali hisslərə sevgiləri öz ifadəsini tapıb.Amma onun hər hansı şeirində insan sevgisinin necə mənalı, necə təbii olduğuna inandım.Mən onun bir sıra şeirlərində "ağlamaq", "ağlayır" və s. bu cür naləli sözlərə rast gəldim, bu da təbiidir. O, öz taleyindən söz açanda dərd-qəm nisgilləri ortaya gəlir, ("Ağlama, ruhum" şeiri sanki bütün mənəvi əzablarına qarşı ürəyinin üsyanıdır) . Təbii ki, sırf sevgi şeirləri də yaşanılan hissləri, duyğuları ifadə edir.Sevgi şeiri yazmaq.. İstənilən bir şairin (yaşından asılı olmayaraq) sevgidən, məhəbbətdən yazdığı şeirləri oxumuşam, bu şeirlərin içində bəzən yalan, saxta, yaşanılmayan hisslərlə üzləşmişəm. Amma əsl sevgini, duyğusal sevgini iadə edən şeirlər də az deyil. Açığını deyim ki, Arzu Əyyarqızının sevgi şeirləri yaşanılan, duyulan hisslərin ifadəsidir. Yəni onun lirik qəhrəmanı bu hissləri yaşayıb. Mənim ən çox onun "Yer ilə göy arasında", "Ürəyimdə", "Gecələr", "Sevgimiz","Sanırsan" şeirlərini bəyəndim. Niyə? O səbəbdən ki, bu şeirlərdə çırpınan bir ürək var.

***Bu necə sevgidir, bu necə duyğu?***
***Sevgi gözlərimə verməyir uyğu.***
***Göstərmir bu ürək ruhuma sayğı***
***Qalmışam yer ilə göy arasında.***

***Alıbdır ruhumu bir baxışıyla,***
***Bəzəyib ömrümü öz naxışıyla.***
***Sanki ildırımdır, bir çaxışıylv***
***Qalmışam yer ilə göy arasında.***

***

***Gizləmişəm səni eşqim,***
***Çiyələk qoxusunda.***
***Dadmasam da qoxlayıram***
***Kəpənək yuxusunda.***

Arzu Əyyarqızının şeirləri mövzuca müxtəlifdir. O, həyatda, yaşadığı mühitdə, insanlar arasında və.təbiətdə hisslərinə nə təsir edirsə, dərhal ona reaksiya verir.Necə deyim, çox həssasdıra).). Və bu həssaslığını sözün rənglərinə qatır (həmişə olmasa da). Və ən başlıcası odur ki, Arzu Əyyarqızı az-çox şeirin texnikasına riayət edir.Məsələn, mən onun "Dağlar" şerini ən gözəl şeirlərindən biri hesab edirəm. Bu qoşmada o, "dağlar" rədifli ən yaxşı şeirlərin sırasına öz "Dağlar"ını qoşmaq istəyib.

***Fərhad külüng vurub yaranda səni,***
***İstərdim bir sərin yel olum, dağlar.***
***Qan-tərin içində yorulan zaman,***
***Əl-üzün yumağa göl olum, dağlar.***

***Hərdən bahar olum, hərdən də solum,***
***Dönüb bir şəraba kuzəyə dolum.***
***Neçə sevənlərin şahidi olum,***
***Məcnunun gəzdiyi çöl olum, dağlar.***

Arzuya arzum budur ki,növbəti şeirlər kitabını çapa hazırlayanda bir az səliqəli olsun, hər şeirini kitaba daxil eləməsin, təkrar mövzulardan qaçsın və şeirlərində dərddən, ağrıdan bir az uzaqlaşsın, üzünü həmişə İŞIĞA tutsun. Arzu Əyyarqızı Cəlilabadda yaşayır, buna baxmayaraq şeirləri Azərbaycanın müxtəlif bölgələrinə gedib çatır. Üç şeir kitabının müəllifidir. Təbrizdə, Tehranda şeirləri çap olunub. O, rayonda ədəbi mühit yaradanlardan biridir-" Həməşərə" ədəbi məclisinin yaradıcısı və hazırda rəhbəridir.Şər işində-həyatda, yaradıcılıqda ona uğurlar arzulayıram!

# Şairliklə şəhidliyin qovuşduğu ünvan

**(əvvəli 9-cu səhifədə)**

Şeirin ikinci bəndində "mərd sözünün dərman olması" metaforası folklor təfəkküründən süzülüb gələn mənəvi gücün ifadəsidir. Şair namərdliyi cəmiyyətin və insanın ən böyük faciəsi kimi qiymətləndirir, halal zəhməti və etibarı insani kamilliyin şərti sayır. Şeirin ideya yükünü ən yüksək səviyyəyə çatdıran son iki misradır. Vəfalılar hər yaşında/Qurban olur, qurban olur - misralarında məhz Müzəffər Məmmədoğlunun şəhidlik taleyi boylanır, bu iki misra xüsusi retrospektiv semantika qazanır:

Bu misraları 'şair öz şəhidliyini əvvəlcədən xəbər veridi' şəklində qəti bir hökm kimi təqdim etmək elmi-filoloji metodologiya baxımından tam dəqiq sayıla bilməz.

Burada daha əsaslandırılmış yanaşma ondan ibarətdir ki, müəllifin sonrakı şəhadət faktı bu şeirlərin 'vəfa' və 'qurban' semantikasını retrospektiv (keçmişə yönəlik) şəkildə dərinləşdirir və onlara yeni məna qatı bəxş edir.

Müzəffər Məmmədoğlunun poeziyasında ən maraqlı və elmi baxımdan diqqətçəkici detal digər şeirlərində də öz taleyini və şəhidliyini əvvəlcədən duyma halıdır.

Şairin "Eyləməz" və "Ağlaram" şeirlərində yer alan ifadələr sadə bir poetik mübaliğə olmayıb, real həyat faktı ilə üstüstə düşən bədii proqnozdur:

***Adın dönüb həsrətimə,***
***Həkk olubdur ürəyimə,***
***Yüz güllə dəysə qəlbimə,***
***O adı bərbad eyləməz.***

Və yaxud:

***Təqsirim nə idi, nə böyük oldu,***
***Didələrim abu-leysan tək oldu.***
***Bir gün eşidərsiz, güllərim soldu,***
***Cavan ömrüm bada gedər, ağlaram.***

Göründüyü kimi, 'cavan ömrün bada getməsi' və 'qəlbə güllə dəyməsi' kimi obrazlar müəllifin daxili hissiyyatının, Vətən uğrunda hər an canından keçməyə hazır olan döyüşçü psixologiyasının bədii təzahürüdür. Bu misralar şairin mistik bir uzaqgörənliyindən daha çox, onun müharibə dövrünün gəncində formalaşan fədakarlıq hissini və şəhadətə ruhi-mənəvi hazır olma məqamını filoloji cəhətdən əsaslandırır.

Müzəffər Məmmədoğlunun məhəbbət lirikası da zəngin bədii boyalarla işlənmişdir. "Görünməz", "Bizləri", "Kimisən" kimi şeirlərində sevgilinin portreti klassik Şərq poetikasının estetik kanonlarına uyğun olaraq təsvir edilir: "sədəf dişlər", "yay qaşlar", "ceyran baxışlar", "şahmar zülflər".

Bununla yanaşı, şair lirik aşiqliyi mistik-irfani müstəviyə qaldırır:

***Nagahından yolum bu yana düşüb,***
***Gözlərim sataşıb ceyrana düşüb,***
***Öldürər sözlərin dəhanə düşüb,***
***Mənsur kimi çəkmə dara bizləri.***

Şeirdəki "Mənsur kimi çəkmə dara bizləri" misrası klassik sufi ədəbiyyatında Həllac Mənsur arxetipinə edilən göndərişdir (reminisensiyadır). Şair aşiqin məşuq yolunda əzab çəkməsini, canından keçməsini Mənsurun "Ənəl-Həqq" fəlsəfəsi ilə eyniləşdirir.

Müzəffərin şeirlərində zamana eksistensial münasibət də maraq doğurur.

1992-ci ilin mürəkkəb ictimai-siyasi və hərbi şəraiti fonunda yazdığı "Eylər" şeiri fərdi hissin hüdudlarını aşaraq zamanın yaratdığı mənəvi böhranı poetik şəkildə ümumiləşdirir.

***Fələyin bu tərs işləri,***
***Mərdi namərd, həm qul eylər.***
***Haqqı nahaqqın odunda,***
***Yandırar onu kül eylər.***

Bu şeir Qarabağ müharibəsinin ən gərgin mərhələsində qələmə alınmış və dövrün sosial-siyasi dramatizmini, fələyin ədalətsizliyini fəlsəfi müstəvidə ümumiləşdirmişdir.

Şair dünyadakı nizamın pozulmasından, "mərdin namərdə qul olmasından" və "haqqın nahaqq odunda yanmasından" dərin mənəvi əzab çəkir.

Bu eksistensial kədər müəllifin şəxsi taleyi ilə yanaşı, mənsub olduğu xalqın faciələrindən doğan ağrının poetik əksidir.

Müzəffər Məmmədoğlunun şeir dili canlı xalq danışığı ilə klassik folklor frazeologiyasının sintezindən ibarətdir. Şair şeirlərinin bədii təsir gücünü artırmaq üçün zəngin troplar sistemindən istifadə etmişdir.

***Ah çəkib eyləsən nalə,***
***Küy düşər, dağlar inciyər.***
***Gözüm yaşı Göy-göl olar,***
***Çağlayar çaylar inciyər.***

Şair burada kədərin və göz yaşının miqyasını milli coğrafi toponim olan Göygöl ilə əlaqələndirərək böyüdür. Olduqca unikal yanaşmadır: nümunənin semantik strukturunda insan duyğusu ilə təbiət hadisəsi arasında metaforik-ekspressiv əlaqə yaradılır. "Dağlar inciyər" ifadəsində personifikasiya, "Gözüm yaşı Göy-göl olar" misrasında isə metaforik transformasiya və mübaliğə bir-birini tamamlayır.

**Nəticə olaraq qeyd edə bilərik ki, şəhid şair Müzəffər Məmmədoğlu Azərbaycan aşıq poeziyası ənənələrinə, xüsusilə qoşma janrının daxili qanunauyğunluqlarına və ritmik-qafiyə sisteminə dərindən bələd olmuş və onu özünəməxsus şəkildə inkişaf etdirmişdir. Müzəffər Məmmədoğlunun bədii irsi, Ülvi Bünyadazadə, Cavad İsmayılov, Nizami Aydın, Fuad Əsədov, Alı Mustafayev, Murad Nağıyev, Teymur Rəsulov, Elzamin Təhməzov və.b şəhid şairlərimizin yaradıcılığı ilə ideya-estetik və mənəvi-poetik müstəvidə səsləşərək Azərbaycan poeziyasının unikal və əbədi bir halqasını təşkil edir.**



Rafiq ƏLƏKBƏR

## ÖZÜMƏ DİQQƏT ETMİŞƏM

Bu yolları, bu izləri,
Bir az əvvəl mat etmişəm.
Gəlib sənə çatanacan,
Nə qədər yol qət etmişəm.

Baxmadım ki, bu, gümandı,
Yol üstü çiskin, dumandı,
Sənə düşərli zamandı,
Halına şəfqət etmişəm.

Kölgəm yox, kölgə özüməm,
El, oba, ölkə özüməm,
Mən elə bəlkə özüməm?
Özümə diqqət etmişəm.

## GÖZ YAŞI GÜLÜŞÜN QƏM BACISIDIR

Bir damcı göz yaşı dənizə sığmaz,
Çünki o göz yaşı ah acısıdır.
Göz yaşı olmasa, gülüş dirilməz,
Göz yaşı gülüşün qəm bacısıdır.

Gözümdən düşənlər daha qorxumdan
Bir daha yanıma gələ bilmirlər.
Bəlkə də bu, elə gözdəyməmdəndir,
Gözəgəlimlilər ələ gəlmirlər...

Eh, mən o qədər də qəddar deyiləm,
Hər şeyə dəysəm də, gülə dəymərəm.
İçimi yeyirəm bu sevdalardan,
Bircə ürəyimə hələ dəymərəm...

Bir az özümüzə gələk, dayanaq,
Fikirləş, o itən nazın harada.
İlişib qalsaydıq keçmişdə əgər,
İndi nə işimiz vardı burada.

## MƏNİ TANIYANLAR BİLİR, MƏN KİMƏM

Deyirsən, sevgidə yonulmamışam,
Əgər bacarırsan, buyur yon, kiməm.
Kimsə anlamayır məni, neynəyim,
Məni tanıyanlar bilir, mən kiməm.

Hər halda, özümü öldürməyəcəm,
Daha ruh verməyir mənə gəlişin.
Busələr həyatın mənası deyil,
Məni anlamamaq sənin öz işin.

Yüz düzgün işimi atıb qırağa,
Bir səhvi nə qədər qabartmaq olar?!
Dağ vurdun qəlbimə, necə edim ki,
O dağdan qəlbimi qoparmaq olar...

Əvvəllər sevgilər qəlbdə ölərdi,
Ölən eşqlər indi qəbrin dəyişir.
Abrın mənası da get-gedə itir,
Ağıla güc gələn abrın dəyişir.

## ADAM ADAMLIQDAN ÇIXMIŞ ADAMDIR

Eşq niyə qaldırır göylərə məni,
Yəqin orada da taxtım olacaq.
Dünyanın da sonu deyildir hələ,
Burda da sevməyə vaxtım olacaq.

Paralanan Ayı bütöv görürəm,
Üzümə çəkəndə nur pərdəsini.
Mələklər qoşunu yanımdan keçir,
Tanıya bilmədim sərkərdəsini.

Qartal yuvasını qayada qurur,
Mənə də ən yaxşı göylər də damdır.
Adam nə sadədir, nə də mürəkkəb,
Adam adamlıqdan çıxmış adamdır.

Kəndləri vermişik selə, daşqına,
İndi itirilmiş kənd axtarırlar.
Qəlbimin yolunu unudub qızlar,
Üzümə gülməyə fənd axtarırlar...



Səlbi BAXIŞ

## QADINLAR

Qadınlar bu dünyanın
Solmayan çiçəyidir.
Sevgiyə möhtac olan
O zərif ürəyidir.

Gizlədilmiş dərdləri
Çatılar qaşlarında.
Qırılmış ümidləri
Axar göz yaşlarında.

Qadın elə qüvvədi
Günəştək doğar yenə.
Bir daha sahib çıxar
Ocağına, evinə.

İnamı sarsılarsa
Könül verməz heç kimə.
Məhəbbəti qəlbindən
Sökülər ilmə-ilmə.

Susan qadın onu bil
Bir gün tufan qoparar.
Səbrini çox sınasan
Seli səni aparar.

## MƏN İNDİ NEYNİM

Əlimdən almısan səbri, dözümü,
Tanıya bilmirəm özüm özümü,
Bu sevda tapaydı gərək bizimi?
Mən indi neynim?...

Yaşatma sən mənə, gəl dərdi, qəmi,
Həyatda sevmədim səntək heç kimi,
Bilmirəm mən kimə deyim dərdimi,
Mən indi neynim?...

Ürək söz dinləmir, verib hökmünü,
Deyir, eşqə sərf et qalan ömrünü,
Yerinə yetirim onun əmrini?
Mən indi neynim?...

Sənsiz keçmir daha bircə günüm də,
Sevginlə dəyişdi mənim yönüm də,
Bilirəm keçilməz sədd var önümdə,
Mən indi neynim?...

Qəlbim qucaq açdı məhəbbətinə,
İnandı əhdinə, sədaqətinə,
Səlbi dözə bilməz heç həsrətinə,
Mən indi neynim?...

## ÖZÜ OLDUM

Məni dərdə salan yarım,
Ya gəl, ya da öldür məni.
Sənsiz daha yox qərarım,
Ya gəl, ya da öldür məni.

Könlüm yenə qan eyləyir,
Dərd əlində can inləyir.
Gör bu ürək nə söyləyir,
Ya gəl, ya da öldür məni.

Məhəbbətin özü oldum,
Yanan odun közü oldum.
Buludların gözü oldum,
Ya gəl, ya da öldür məni.

Ağlar gözüm səni gəzir,
Ürəyimi kədər üzür.
Yollarına həsrət düzür,
Ya gəl, ya da öldür məni.

Bir görəydin nə gündəyəm,
Nə yerdəyəm, nə göydəyəm.
Axı mən də bir bəndəyəm,
Ya gəl, ya da öldür məni.



Şəfəq VİLAYƏTQIZI

## ELƏ DARIXDIM Kİ...

Elə darıxdım ki, bu gecə yenə,
Çağırdım haraya xatirələri.
Toplayıb başıma keçmiş günləri,
Yığdım bir araya xatirələri.

Danışdıq, ağladıq, susduq, düşündük
Gözümün kökünü saraltdı həstət.
Gah təsəlli olduq bir- birimizə,
Gah da ürəyimi daraltdı həstət.

Elə darıxdım ki, bu gecə yenə,
Canım boğazıma yığışıb gəldi.
Bəxtimin rəngitək qaranlıq gecə,
Neştərə çevrildi, bağrımı dəldi.

Hicran əlləriylə yumdu gözümü,
Zülmətin içində yolumu azdım.
Bir iynə ulduzu ümüd gəzirdim,
İynənin ucuyla qəbrimi qazdım.

Elə darıxdım ki, bu gecə yenə,
Qəhər boğazımda tıxanıb qaldı.
Çarmıxa çəkildim arzularımla,
Bir qəddar intizar canımı aldı.

Böyük "dünya" adlı insan gölündə
Dərdin qarmağına ilişib qaldım
Çarəsiz boylandım zülmət yollara
Gözümün kökütək mən də saraldım

Elə darıxdım ki, bu gecə yenə,
Üz tutub qaçmağa yer yoxa çıxdı
Qurmaq istədiyim xəyallarımı
İçimdəki tufan, fırtına yıxdı
Elə darıxdım ki, bu gecə yenə...

## QAYTARAR

Bəzən gördüklərim salar heyrətə
Tülkü aslan olar düşsə xəlvətə
Qəlbinin qapısın açsan həsrətə
Alar sevincini qəhər qaytarar

Yığma hər günahı, yükü boynuna
Bu fani dünyanın qatıl oynuna
Alar yuxumuzu gecə qoynuna
Saxlayar əzizlər səhər qaytarar

Mərhəmət hissini odunda saxla
Şərəf, ləyaqəti adında saxla
Tək bir həqiqəti yadında saxla
İlana bal versən zəhər qaytarar.

## KAŞ SAXLAMIŞAM

Göy üzü vərəqdi, ulduzlar nöqtə,
Hər nöqtə bir ömrün bitiş yeridi.
Alnımda görünən o dərin qırış,
Vüsalla hicranın tikiş yeridi.

Dayanıb baxıram ötən illərə,
Sanki bir yuxudu, görüb keçmişəm.
Acı dərman kimi udub dərdimi,
Üstündən intizar süzüb icmişəm.

Küləklər aparıb arzularımı,
Gözümdə bir damcı yaş saxlamışam.
Ürək sözlərimi kağıza yazıb,
Dilimdə tək bircə kaş saxlamışam.

## DİLİMDƏ DONUBDU

Könül pəncərəmdən boylanan həsrət,
Kölgəli yollarda qoydu gözləri.
Sevmək cəzadırmı, yoxsa bir nemət?
Saldı ürəyimə qara izləri.

Hər duyğuda gizli, hər sözdə aşkar,
Sevənin gözü kor, qulaqları kar,
Heç rəhm eyləmədi mənə sitəmkar,
Gözümdə çağlatdı lal dənizləri.

Zamanla yox oldu ən xoş arzular,
Susqun gözlərimdə min bir sual var.
Gecəni gündüzə bağlayan yollar-
Həsrətin əlində qoydu bizləri.

Ağılla ürəyin bitmir davası,
Mehtək ayrılığın gəlir havası,
Şəfəqəm başımda eşqin sevdası,
Dilimdə donubdu vida sözləri.

## GECƏLƏR

Gündüzün səs-küyü çəkilir geri,
Dərin bir sükuta dalır gecələr.
Ulduzlar səpilir göyün üzünə,
İnsanı tilsimə salır gecələr.

Gecə yalqızların səssiz dünyası,
Hicranın naləsi, həsrətin yası
Sükutdan yoğrulub qəmdir mayası,
Xəyal dünyasında qalır gecələr.

Hər kəs öz qınına çəkilir onda,
Fikirlər buluda əkilir onda,
Sirlər çözələnir, sökülür onda,
Məni mənliyimdən alır gecələr.
Dünyanın səs-küyü çəkilir geri,
Dərin bir sükuta dalır gecələr.

## QALMIŞAM

Sirrimi qoynunda Murov saxlayıb,
Yolumu qış kəsib, qırov saxlayıb
Həsrət qollarında girov saxlayıb
Əl, qolum bağlanıb darda qalmışam

Vüsal həvəsliyəm möhnətə dözdüm,
Sonsuzluq içində yolumu gəzdim,
Çox fikir eyləyib özümü üzdüm,
Bölünüb yarıya yarda qalmışam.

Qəlbimdən gözünə yolmu çəkim mən?
Quşlara yem olub saçımdakı dən,
Aç o gözlərini çıxım zülmətdən,
Çovğunda qalmışam, qarda qalmışam

Çəkibdi səbrimi dərdim tarıma,
Göz yaşımı düzdüm misralarıma,
Əgər soruşarsa deyin yarıma,
Özüm də bilmirəm harda qalmışam.

# Nuhun gəmisinin sirri açılır?

**Tədqiqatçılar rəvayətlərə görə Türkiyə ərazisində yerləşən Nuhun gəmisinin sirrini açmaq istiqamətində növbəti mühüm addımı atıblar.**

Adalet.az xəbər verir ki, bu barədə arxeoloq Endryu Cons "İzvestiya" nəşrinə müsahibəsində bildirib.

Arxeoloqun sözlərinə görə, axtarış aparılan ərazidə gəmi formasını xatırladan obyekt aşkar edilsə də, onun mənşəyi hələlik tam dəqiqləşməyib.

"Biz bunun torpaq qatı altında qalaraq dağılan Nuhun gəmisinin qalıqları ola biləcəyini düşünürük", - deyə Cons qeyd edib.



Alim əlavə edib ki, georadar skanlaması nəticəsində obyektdə düz bucaqlar, dəhlizlər və ehtimal olunan daxili bölmələr üzə çıxarılıb. Bu fakt strukturun sadəcə təbii qaya çıxıntısı olması versiyasını şübhə altına alır.

Consun bildirdiyinə görə, bu əraziyə ilk dəfə hələ 1959-cu ildə xəritəşünas İlhan Durupınar diqqət çəkib və yerin koordinatları İncildəki (Müqəddəs kitab) təsvirlərlə üst-üstə düşür.

Tədqiqatçılar artıq GPS xəritələndirməsini aparıb və analiz üçün torpaq nümunələri götürüblər. Beynəlxalq layihədə ABŞ, Avstraliya, Braziliya və Slovakiyadan olan mütəxəssislər də təmsil olunurlar.

Xatırladaq ki, bundan əvvəl Türkiyədə Nuhun gəmisini axtaran alimlər ərazidə anomal boşluqların təsbit edildiyini bildirmişdilər.

№ 34 (2506) 11 sentyabr 2026-cı il

# DÜNYAYA İNTEQRASİYA OLUNMAQ ASAN MƏSƏLƏ DEYİL



**Bu gün dünyada hər bir dövlət ona çalışır ki, inteqrasiya yolunu seçsin və dünya ölkələri ilə siyasi-iqtisadi, mədəni əlaqələr qursun. Təbii ki, bunu da etmək bir o qədər asan məsələ deyil. Ən azından ona görə ki, həmin ölkə iqtisadi və siyasi cəhətdən güclü olmalı və zəngin resurslara sahib çıxmalıdır. Heç şübhəsiz, bütün bu deyilənləri əldə edən hər hansı dövlət dünyaya daha asanlıqla və tez inteqrasiya olunur.**

Əlbəttə, bütün bunların gerçəkləşməsi fonunda dünyaya yenicə inteqrasiya olunmuş ölkələrə maraq artır, zəngin və inkişaf etmiş dövlətlər həmin məmləkətlərin ərazisində investisiya qoyuluşuna böyük önəm verirlər. Bunlarsa elə də asanlıqla həll edilmir. Yəni hər hansı ölkədə marağı olan dövlət öncə istəyir ki, qoyduğu investisiyanı qısa zaman kəsiyində əldə edə bilsin, ən azı maya dəyərini çıxarsın və izafi gəlir əldə etsin.

Bir faktı da qeyd edək ki, bu maraqların təmin edilməsi üçün ölkələr arasında müqavilələr imzalanır və müqavilə şərtlərinə investisiya qoyan da və qoymuş ölkələr də birmənalı olaraq əməl etməlidir. Əks təqdirdə hər hansı ölkə imzalanmış müqaviləni pozarsa heç şübhəsiz, bunun müqabilində müəyyən qədər kompensasiyalar ödəməyə məcburdur.

Təsadüfi deyil ki, bir çox ölkələr belə mübahisələr zamanı ədalət məhkəməsinə müraciət edir və ona dəymiş ziyanın ödənilməsini tələb edir.

Amma bizim ölkə dünyaya inteqrasiya olunandan sonra hər hansı xarici ölkələrin şirkətləri ilə bağladıqları müqavilələrin hamısına vaxtında və dəqiq əməl edir və heç bir hüquqpozmalar yaranmır.

Məhz buna görə də bu gün dünyanın ən inkişaf etmiş və eləcə də dünyanın super dövlətlərinin ölkəmizə maraqları var. Çünki uzun illərin təcrübəsi göstərir ki, Azərbaycan hər hansı ölkə ilə bağladığı iqtisadi müqavilələrə çox vaxtında və dəqiq əməl edir. Eyni zamanda bunu qarşı tərəfdən də tələb edir.

Bu gün Azərbaycanda ABŞ-ın, Rusiyanın, Türkiyənin, İtaliyanın, Almaniyanın, Fransanın, Çinin, Bolqarıstanın, Rumıniyanın, Çexiyanın, Slovakiyanın, Birləşmiş Ərəb Əmirliklərinin, Səudiyyə Ərəbistanın və digər ölkələrin şirkətləri iqtisadiyyatın müxtəlif sahələrində sərmayələr yatırıblar.



Xüsusən də neft və qaz sektorunda bu sərmayələr daha çoxdur. Elə Bakı şəhərinin özündə 200 milyarda yaxın müxtəlif şirkətlər investisiya qoyublar. Bəli, bu qoyulan vəsaitlər zaman-zaman öz bəhrəsini verir, həm həmin ölkələrə, həm də Azərbaycana milyardlarla dollar gəlir gətirir.

Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələndən sonra birmənalı olaraq deyə bilərik ki, ölkəmizdə dünyanın heç yerində olmayan sabitlik yaradıldı.

Başqa sözlə demiş olsaq, Ermənistanla aramızda atəşkəs yarandı və eyni zamanda ölkəmizin daxilində mövcud siyasi problemlər qısa zaman kəsiyində öz həllini tapdı.

Neft və qaz sektorunda möhtəşəm layihələr gerçəkləşdi, müqavilələr imzalandı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə isə Azərbaycan dünyaya daha sürətlə inteqrasiya olundu. Belə ki ölkəmizdə dünyanın heç bir yerində olmayan sabitlik və əmin-amanlıq qorunub saxlanıldı və Azərbaycan dünyanın ən inkişaf etmiş, demokratik və sivil ölkələrindən birinə çevrildi.

Neft və qaz sektoru ilə yanaşı, ölkəmizdə digər sahələrin inkişafına da böyük önəm verildi. Ağır və yüngül sənaye, kənd təsərrüfatı inkişaf etməyə başladı. Onu da qeyd edək ki, ölkəmiz 2020-ci ildə 44 günlük İkinci Qarabağ savaşından sonra ərazi bütövlüyünün əsas hissəsini təmin etdi və 2023-cü il antiterror əməliyyatı zamanı Azərbaycanın bütün ərazisi işğaldan azad olunaraq qüdrətli bir dövlət yaradıldı.

Əlbəttə, belə bir dövlətlə dünyanın hər bir ölkəsi iqtisadi əlaqə qurmağa və orda investisiyalar qoymağa daha da böyük maraq və həvəs göstərirlər. İlk növbədə Azərbaycan qonşu ölkələrlə - Rusiya, İran, Ermənistan, Gürcüstan, Türkiyə və Türkmənistanla yeni iqtisadi müqavilələr imzaladı.

Bununla yanaşı, Azərbaycan prezidenti İlham Əliyev türk xalqları ilə münasibətləri daha yüksək səviyyədə inkişaf etdirdi.

Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstanla yeni əlaqələr qurmağa nail oldu. Təsadüfi deyil ki, həm Qazaxıstan, həm də Özbəkistan Dağlıq Qarabağda gedən abadlıq və quruculuq işlərində yaxından iştirak etməyə başladı. Özbəkistan Füzuli şəhərində yeni tam orta məktəbin inşasını həyata keçirir.

Bununla yanaşı, türk dövlətlərinin köməyi ilə Qarabağda digər sosial-iqtisadi layihələr də gerçəkləşdirilir. Bu günlərdə Azərbaycan prezidenti İlham Əliyevin Qırğızıstanın paytaxtında keçirilən dünya dövlətlərinin tədbirində iştirak etməsi bir daha Azərbaycana olan marağı daha da artırıb.

**Əlbəttə, Şanxay İqtisadi Əlaqələr Təşkilatının yığıncağına dəvət almaq və orda iştirak etmək heç də asan məsələ deyildir. Artıq Azərbaycan prezidenti ikinci dəfədir ki, bu mötəbər tədbirə dəvət alır. Çinin "Bir kəmər, bir yol" layihəsi dünya dövlətləri tərəfindən, eləcə də Azərbaycan tərəfindən dəstəklənir. Heç şübhəsiz ki, dünyaya ən böyük töhfələrdən biri də Zəngəzur dəhlizi olacaqdır. Bu dəhlizin açılmasında ilk növbədə ABş prezidenti Donald Trampın və Azərbaycan prezidenti İlham Əliyevin böyük marağı vardır. Heç şübhəsiz dünyaya sülh istəyən və əmin-amanlıq arzulayan böyük dövlətlər də bu layihəni müdafiə edirlər. Çünki dünyanı bütün bəlalardan və müharibələrdən yalnız sülh xilas edə bilər. Azərbaycan prezidenti İlham Əliyev isə dünyada sülhün carçısı kimi tanınır.**

**Emil FAİQOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



Əntiqə Kərimzadə

## Gözlərində gizlənən qız

### (Kor Zəminənin xatirəsinə)

Zamanın küləyi insanı hansı səmtə atırsa, insan da o cığırla gedir. O yolu tutur, o hislərin arxasınca qaçır. Qaçdığı yolda nə qədər yorulursa, nə qədər büdrəyirsə, bir o qədər də ürəklənir.

Əvvəlki ürkək baxışları ürəyində basdırır. Qaranlıqlara qərq edir. Bütün basdırdıqlarımızı unuda bilirik. Unuda bilməsə də, həmin yaranın üstün örtməyi bacarırıq. Bacara bilməsək də bu ömür yolunda təngənəfəs oluruq...

Yadımdadı, uşaq olanda nənəm həmişə kimdənsə nigaran qalanda filankəs ürəyimin qaranlığıdır, deyərdi.

Zəminəni Esmira Məhiqızının xatirələrindən tanıyıram. Esmira xanımın şeirlərini oxuyanda elə bilirəm ki, Zəminə danışır. Heç Zəminənin necə danışdığın da bilmirəm. Səsin eşitməmişəm, üzün görməmişəm. Amma sanki illərdir tanıyıram. Elə bilirəm ki, onun əlindən tutub gəzdirən də , onu oyuna çağıran də mən idim...

İlk dəfədir ki, heç üzünü görmədiyim, səsini eşitmədiyim adamın ağrılarını hiss edirəm. Mənə elə gəlir ki, Zəminənin ən çox mədət umduğu yer məhz elə onun gözləridir.

Zəminənin əkiz tayı da var imiş- Əminə. Zəminənin daha çox o gəzdirirmiş. Onun da ağrıları az deyilmiş. Amma Zəminə mənim üçün özü boyda bir işığa çevrilmişdi. Özü boyda? Özü nə boyda idi ki? Suallar beynimi təpikləyir...

Axı mən Zəminənin görməmişdim. Heç bilmirəm hündürboy idi, yoxsa bəstəboy, kök idi, ya arıq, əsmər idi, ya sarı... Bilmirəm... Bircə onu bilirəm ki, Zəminə işıq gələn tərəfi gözlərinin qaranlığında tapırdı. Mənə elə gəlir ki, onun gözlərinin qaranlığını ürəyinin işığı aydınladırdı. Qəribədir, heç uşaqlıqda kor oyun dostum da olmayıb. Bu sevgi Zəminəyə hardandır?

İllərdir Esmira xanım Zəminəyə şeir yazır. Həmin şeirlərdə Zəminə körpə kimi ağlayır, uşaq kimi oynayır, gənc qız kimi nazlanır, amma böyümür ki, böyümür. Xatirələrə hopur, bəzən oyunlardan boylanır, gülüşü misralara çevrilir, harayı gözlərindən o tərəf keçmir. Birdə baxırsan ki, tale Zəminəni çox uzaqlara aparıb, amma izləri şeirlərdə qalıb. Gözləri də çox uzalqara baxır, ancaq Zəminə xatirələrindən başqa heç nəyi görə bilmir...

Mənə elə gəlir ki, Zəminə yaşaysaydı, onun ən çox tutunduğu yer Esmira xanımın şeirləri olardı.

İndi Zəminə həyatda yoxdur, amma həm də var. Danışır, oynayır, qaçır...

Öz gözlərində gizlənir... Esmira Məhiqızının xatirələrində yaşayır...

## Rəqqasə Fatimə: “ ...mənə qutab verməyiin günü xatırla”



**Rəqqasə Fatimə Fətəliyeva ilk evliliyində yaşadıqları problemlərdən danışıb.**

Adalet.az bildirir ki, o, keçmiş yoldaşını övladı ilə görüşməməkdə qınayıb:

”Əslində bu haqda heç vaxt danışmağı sevmirəm. Ancaq heç kəs məni qınaq obyektinə çevirməsin deyə danışıram. İlk evliliyimdə çətinliyim, əlbəttə, olub. Hətta deyərdim ki, bir qutabı belə keçmiş qaynanam mənə qıymayıb.

Eşidirəm ki, yaxşı yaşayırlar. Keçmiş yoldaşım isə evlidir, iki uşağı da var. Amma unutmaq olmaz ki, sənnin Aydan kimi qızın var. O sənin ilk balandır. Necə ola bilər ki, adam öz övladı ilə maraqlanmasın.

Bahalı maşın sürmək, yaxşı evdə yaşamaq insanlıq deyil. İnsanlıq rəhmət və mərhəmət hissinin olmasıdır.

Axirətini düşünmək istəyəndə, hamilə vaxtı mənə qutab verməyiin günü xatırla”.

Əntiqə




## "Bakcell" "Peerstack Academy" tələbələri üçün hakaton keçirdi

**”Bakcell” ”Peerstack Academy” tələbələri üçün süni intellekt üzrə hakaton keçirib.**

Adalet.az xəbər verir ki, hakaton çərçivəsində iştirakçılar telekommunikasiya sahəsi üçün süni intellekt dəstəkli çatbot hazırlayıblar.

Komandalar süni intellekt alətləri, düzgün sorğu hazırlama və proqramlaşdırmadan istifadə edərək ideyalarını real layihəyə çeviriblər.




İştirakçılar layihələr üzərində işləyərkən ”Claude”, ”Google Colab”, ”Hugging Face”, ”Ollama”, ”Gradio” və ”Streamlit” kimi ödənişsiz alətlərdən istifadə ediblər. Final mərhələsində komandalar hazırladıqları çatbotları təqdim edərək istifadə etdikləri üsul və texnologiyalar barədə məlumat veriblər.

Layihələr funksionallıq, düzgün sorğu hazırlama, məlumatlardan düzgün istifadə, kodun yoxlanılması, istifadəçi təcrübəsi və təqdimat meyarları əsasında qiymətləndirilib.

Hakatonun sonunda fərqlənən iştirakçılar ”Bakcell” tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırılıblar.

**”Bakcell” haqqında**

”Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan ”Bakcell” süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

”Bakcell” müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən ”NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibində olan ”Azerconnect Group”a daxildir.

## TƏBRİK



8 Sentyabr HƏYATIMIN, AİLƏMİN ən SEVİLƏN və XOŞBƏXT GÜNÜDÜR! Bu Tarixi Bizim üçün Yaradanımız - Uca Allahım BƏXŞ edib! 8 Sentyabr NƏRGİZİMİN DOĞUM GÜNÜDÜR!

Dünyaya, DÜNYAMIZA GƏLİŞİN MÜBARƏK NƏRGİZİM!!! Allah SƏNİ hər ZAMAN Hər YERDƏ Öz nəzərində SAXLASIN!

Dilin baldan da şirin,
Məst oluram sözündən!
Gözündə məna dərin -
Gətir öpüm gözündən-
NƏRGİZİM!

Gülüşün sehirləyir
Ev-eşikdə hamını...
Durub ürəklə yandır
Sən ad günü şamını -
NƏRGİZİM!

Sağlam böyü, şən böyü
Gözəl olsun hər anın!
Xoşbəxtlərin xoşbəxti -
Sən ol, bizim dünyanın -
NƏRGİZİM!
5 yaşın MÜBARƏK olsun! Öpürəm səni

Baban Əbülfət Mədətoğlu

## AFFA məlumat bazası yaradır

**AFFA xaricdə yaşayan və futbol oynayan azərbaycanlı futbolçularla bağlı məlumatların toplanmasına başlayıb.**



QOL.az xəbər verir ki, AFFA-nın məlumatına görə, federasiya 2006-2015-ci il təvəllüdlü, əsasən Avropada yaşayan futbolçular barədə məlumat bazası yaratmağı planlaşdırır.

Toplanacaq məlumatlar arasında oyunçuların yaşı, yaşadığı ölkə, çıxış etdiyi klub və liqa, həmçinin daha əvvəl regional, əyalət, milli və ya seçmə komandalara dəvət alıb-almadığı yer alacaq. Layihənin əsas məqsədi xaricdə futbol oynayan azərbaycanlı futbolçuları müəyyənləşdirmək, onların inkişafını izləmək və perspektivli oyunçularla əlaqə yaratmaqdır. Məlumatların AFFA-nın Futbolun İnkişafı Departamenti vasitəsilə toplanacağı bildirilib.

## Ronaldo 979-cu qolunu vurdu

**Portuqaliya milisinin və ”Əl-Nəsr”in futbolçusu Kriştiano Ronaldo Səudiyyə Ərəbistanı çempionatının ”Abha”ya qarşı oyununda fərqlənib.**

QOL.az xəbər verir ki, 41 yaşlı hücumçu bunu Səudiyyə Ərəbistanı Pro Liqasının 6-cı turunda baş tutan qarşılaşmanın 22-ci dəqiqəsində bacarıb.Ronaldo künc zərbəsindən sonra Qabriel Anjelonun ötürməsini dəqiq tamamlayıb.

Bu, portuqaliyalı futbolçunun peşəkar karyerasında 979-cu qolu olub.

Qeyd edək ki, ”Əl-Nəsr” 2:1 hesabı ilə qalib gəlib. Ronaldo ilə yanaşı, meydan sahiblərinin heyətində Əl-Həmdan da fərqlənib. ”Abha”nın yeganə qoluna isə Nabil Fekir imza atıb.

## Zeynəb Həsəni: "Talıbla kənarda dostluğumuz yoxdur"

**Müğənni Zeynəb Həsəni həmkarı Talıb Tale ilə münasibətlərinə aydınlıq gətirib.**

Adalet.az bildirir ki, onlar sosial şəbəkələrdə yazılan fikirlərə əhəmiyyət vermədiklərini qeyd ediblər:

”Mən Talıbla duet ortağıyam. Biz yalnız səhnədə bir yerdəyik. İfamız bitdisə hər kəs öz yoluna davam edir. Səhnə adamıyıq pis yazanlar da olur, yaxşı yazanlar da. Mən subayam, bu yazılanlar demək olar ki, ailəmdə problem ola bilməz. Çünki ailəm məni tanıyır. Amma Talıb bəyin həyat yoldaşı üçün narahat oluram. Axı o da mənim həmcinsimdir, bir qadının üzülməyin əsla istəmərəm. Sadəcə əmin liklə deyə bilərəm ki, biz sənət dostuyuq, yəni kənarda heç dostluğumuz da yoxdur”.



Əntiqə


| | | | | |
|---|---|---|---|---|
| Təsisçi və baş məsləhətçi: Aqil ABBAS<br>Baş redaktor: İradə TUNCAY | Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.<br>Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. | KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.<br>kod: 200112 h\h<br>Müxbir hesab: 0137010001994<br>S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161<br>İndeks:0107 Qeydiyyat nömrəsi 100 | Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A<br>Telefon: (012) 491-23-53<br>adaletqezeti@rambler.ru<br>adaletqezeti@mail.ru, adaletqezeti@box.az | Tiraj: 1500<br>Sifariş: 294<br>Çapa imzalanmışdır: 10.09.2026 |